Kamran Məmmədov

# Azərbaycan yazıçılarının həyatından dəqiqələr

Kamran Məmmədov

104399

# Azərbaycan yazıçılarının
## *həyatından dəqiqələr*

Azərbaycan Milli
Kitabxanası

HƏDƏF NƏŞRLƏRİ

Ш5(2=Az)-8.

**Redaktor**: Şəmil Sadiq
**Naşir**: Müşfiq XAN
**Dizayn və qrafika**: Teymur Fərzi
**Korrektor**: Rövşən Ağayev
**Mətn tərtibatı**: Rüfət Əhmədzadə

Kamran Məmmədov
Azərbaycan yazıçılarının həyatından dəqiqələr

**ISBN 978-9952-464-76-4**

© Hədəf Nəşrləri / 2013

ARXİV

# GİRİŞ

Azərbaycan xalqının bədii və ictimai fikir tarixinin yetirdiyi sənətkarlardan bir çoxunun şöhrəti sərhədləri keçmiş və onların əsərləri dünya mədəniyyəti xəzinəsinə daxil olmuşdur. Hər bir xalq öz sənətkarları ilə fəxr etdiyi kimi, onlar haqqında daha geniş məlumat toplamaq, onların gündəlik həyatlarındakı ibrətamiz əhvalatları, qəribəlikləri də bilmək istəyir. İngilislərdə Şekspir, Bayron; fransızlarda Volter, Balzak, Düma; ispanlarda Servantes, Lope de Veqa; farslarda Firdovsi, Sədi, Hafiz; şotlandlarda Robert Berns; italyanlarda Bokkaçio, Dante; ruslarda Puşkin, Lermontov, Krılov, Lev Tolstoy, hindlilərdə Taqor, amerikalılarda Bret Qart, Cek London, gürcülərdə İ. Çavçavadze, Q. Tabibze, doğma Azərbaycanımızda M.P. Vaqif, C. Məmmədquluzadə, M.Ə. Sabir, C.Cabbarlı, S.Vurğun və başqaları haqqında məzmunlu lətifələr, maraqlı rəvayətlər yaranmış, hazırcavablığı bildirən atmacaların bir çoxu onlara istinad edilmişdir. Böyük xalq sevgisi ilə bağlı olan kəlamların çoxu, doğrudan da, sənətkarların öz həyatlarında olmuş əhvalatlara bağlıdır. Həmin lətifə, atmaca və rəvayətlərdə yazıçının cəhaləti, nadanlığı, kütbeyinliyi ifşa etməsi qısa, bədii

ümumiləşdirmələrlə göstərilir, həm də onlardakı humanizm, vətəndaşlıq cəsarəti, özlərinə məxsus orijinal sifətlər, nəcib insani keyfiyyətlər, fərdi xüsusiyyətlər aşkara çıxır.

Bir çox xalqlarda (ingilis, fransız, rus, fars, gürcü və s.) yazıçıların həyatından alınmış ibrətamiz, duzlu-məzəli əhvalatlar kitab şəklində dəfələrlə can olunmuşdur. Bizim söz ustalarımız haqqında atmaca və rəvayətlər xüsusilə çoxdur. Onların böyük tərbiyəvi və estetik əhəmiyyətini biz hər gün görürük. Sevimli sənətkarlarımız haqqındakı rəvayət, atmaca və lətifələr yeri düşəndə, məclislərdə və ya adicə söhbətlərdə fikri tamamlamaq üçün bizə kömək edir, müdriklik, hazırcavablıq, orijanallıq timsalı kimi işlənir.

Bu kitab, bizə belə gəlir ki, klassiklərimizin geniş oxucu kütləsinə daha da yaxınlaşmasına, başqa sözlə desək, sənətkarlarımızın yaradıcılığının təbliğinə, öyrənilməsinə və sevilməsinə kömək edəcək.

Kitabın adı təxminidir. Çünki burada ayrı-ayrı görkəmli şəxsiyyətlərin təkcə həyatından, əsərlərinin yaranması tarixindən, yaşadıqları dövrün hadisələri ilə əlaqəsindən danışılmamış, onların söylədikləri ibrətamiz orijinal kəlamlara da yer verilmişdir.



"Azərbaycan yazıçılarının həyatından dəqiqələr" adı ilə topladığımız bu materiallar bir neçə illik zəhmətin məhsuludur. Azərbaycan ədəbiyyatına aid mənbələrin əksəriyyəti yazıçıların öz əsərlərindən, təzkirələrdən, cünglərdən, tarixi kitablardan, müxtəlif tədqiqat əsərlərindən, monoqrafiyalardan, ədəbiyyat tarixlərindən, me-muarlarından götürülüb. Başqa sözlə desək, bu kitabın arxasında tarixi sənədlər durur. 1970-ci ildə olan ilk nəşrindən sonra, bu kitab yenidən işlənmiş variantda oxuculara təqdim olunur. Ancaq yazıçılarımızı (bu da, hələlik yarımçıq iş hesab oluna bilər) əhatə edən əhvalatların toplanması işi genişlənməli, ümumiyyətlə, zəngin tariximizin, elmimizin, incəsənət və ədəbiyyatımızın görkəmli şəxsiyyətləri haqqındakı maraqlı, ibrətamiz deyimlər bir yerdə çap olunmalıdır. Bu xeyirxah işdə gənclərimizə ümidimiz daha çoxdur.



## FƏLƏKİ ŞİRVANİ
**1108-1146**

Fələki zindanda yazdığı şeirlərini "Həbsiyyə" adlandırıb. Fələkini ürəkdən sevən Xaqani, onun vaxtsız ölümü münasibətilə yazırdı:

*Fələki doğmuşdu sehrimdən mənim,*
*Olmuşdu göylərin sirrinə agah.*
*Hayıf ki, tez öldü, çox yaşamadı,*
*Fələkim tez getdi əllərimdən, ah!*

Sonralar, Xaqaninin özü də nahaqdan ittiham edilib 1170-ci ildə Şabran qalasına salınır. Xaqani həbsdə yazdığı şeirləri xətrini çox istədiyi Fələki kimi "Həbsiyyə" adlandırır.





## ƏFZƏLƏDDİN XAQANİ
**1120-1199**

Xaqani şeirin, sənətin tərbiyəvi qüdrətinə inanır, şair haqda deyirdi:

–Hər tərbiyəçi şairliyi bacarmaya bilər, lakin hər şair tərbiyə verməyi də bacarmalıdır.

***

Şair Azərbaycan qadınlarının qara pərdədə keçən həyatını ölümdən pis sayırdı. O, öz fikrini kiçik qızının ölümü münasibətilə yazdığı bir qitədə çox təsirli və mənalı ifadə etmişdir:

*Yenicə doğulan qızım gördü ki,*
*Qarşıda gözlənir min bəla, öldü.*
*Qeybdən gələn o töhfə duydu ki,*

*Dərdlərə olacaq mübtəla, öldü.*
*O, böyük qızını pərdədə görcək,*
*Dedi: - Kifayətdir bu cəfa, öldü.*

***

Xaqaninin təlim və tərbiyəsində əmisi Ömər Osman oğlu əsas rol oynamış və ona atalıq qayğısı göstərmişdir. Şair əmisinin çəkdiyi zəhmətləri yüksək qiymətləndirərək demişdir:

*Ömər ibn Osman sayəsində mən,*
*Yetimlik divinin qaçdım əlindən ...*
*Atam dözməyərək dərdə cahanda,*
*Sam Zalı atan tək məni atanda,*
*Əmim Simurq kimi uçub, gələrək*
*Qanadı altına alaraq, Zal tək*
*Qaldırdı biliyin Qafına həmən,*
*Bəsləndim onun öz yuvasında mən!*

***

Şair təmiz eşqi başa düşməyənlərə üz tutaraq deyirdi:

– Eşq odunda bişməyən xamdır. Ancaq təmiz eşq sayəsində könül pak və vüqarlı olar.



***

Şair ömrünün sonunda öz vətəni Şirvandan Təbrizə köçmək məcburiyyətində qalır. Şamaxını anaya, Təbrizi isə ataya oxşadır:

*Anasından küsən körpə bir uşaq*
*Ata ağuşunda yer tapar ancaq.*

***

Yaşadığı dövrün hər cür alçaq işləri, sarayın şairə ədalətsiz münasibəti Xaqanini çox əsəbiləşdirmişdi. O, şairlik ləqəbinə də nifrət edirdi:

*İstəmərəm adımı çağıralar Xaqani,*
*Mən yoxsullar şairi, xəlqaniyəm, xəlqani.*

***

Xaqaninin həyatının son illəri iztirab içərisində keçmiş, cavan oğlu, qızı və arvadı birbirinin ardınca vəfat etmişlər. Tamamilə tək qalmış qoca şair özünə ölüm arzulamışdır:

*Hanı ürəyimin məlhəmi- zəhər?*
*Hanı həyatımı bitirən xəncər?*
*Hansı dərdi-qəmi unudan ölüm?*
*Gəlsələr, çəkmərəm belə qəm-kədər.*

***

Həqiqəti açıq söyləyən şair zülmə nifrət edir, zalim və cahil şahlara kinayə ilə deyirdi:

*Məncə, eşşək başına yaraşmayır qızıl tac,*
*Eşşək üçün yaranıb palan, noxta və ağac.*





**NİZAMİ GƏNCƏVİ**
**1141-1209**

Nizami öz dövrünün "şairlər şahı" Xaqani ilə dost imiş. Xaqaninin vəfatı Nizamiyə ağır təsir etmiş, onun ölümü münasibətilə yanıqlı bir mərsiyə söyləmişdir:

*Hey deyirdim ki, Xaqani mənim mərsiyəçim olsun,*
*Təəssüf ki, indi mən Xaqaninin mərsiyəçisi oldum.*

***

Nizami çox istədiyi qadını Afaqdan olan Məhəmməd adlı yeganə övladını çox sevmiş, ona həm atalıq, həm də analıq etmişdir. Şairin oğlu gənc yaşlarında şeirə həvəs göstərmişsə də, atası

onu öz nəsihətləri ilə bu yoldan saqındırmış, alim və birinci növbədə, həkim olmağa həvəslən-dirmişdir:

*Görürəm, şöhrətə ləyaqətin var,*
*Şeirdə, sənətə məharətin var,*
*Şairlik eləmə! Dövranə bax ki,*
*Tərif əvəzinə pislənir şeir.*
*Şeirdən ucalıq ümma dünyada,*
*Çünki Nizamilə qurtardı o da.*

***

"Xosrov və Şirin" poemasını bitirən şair, o dövrün hökmdarı Qızıl Arslanın dəvətilə onun yanına getmiş, poemanı ona təqdim etmiş, əvəzində hökmdar ona Həmdünyan kəndini ba-ğışlamışdır. Nizami ona hədiyyə verilən kənd haqqında şikayətlənmişdir:

*Kənd nə kənd, andırır dar bir kürəni,*
*Yarımca ağacdır üzünü, eni.*
*Gəlirindən artıq onun xərci var,*
*Yarılığa əgər onu abxazlar.*



***

Müasiri Xaqanidən fərqli olaraq, Nizaminin həyatı sakit və macərasız keçmişdir. Öz dediyi kimi, o heç vaxt başını hökmdarların qılıncı altına verməmişdir. Lakin bununla belə, onun dühası, istedadı qarşısında acizliklərini hiss edən, onu ən güclü rəqib sayan, "süfrəsinin tör-töküntüsü" ilə qidalanan, ona quyu qazan "ədəbiyyat oğruları"ndan yaxa qurtara bilməmiş, onlarla gərgin mübarizə şəraitində yaşamışdır. Nizami hələ gəncliyində şeirin şərəfini alçaldan, sənəti pula satan məddah, yaltaq şairləri amansızcasına qırmanclayırdı:

*O kəslər ki, qızılçün ölüb əldən gedirlər,*
*Sözüncə sikkəsini qızılla məhv edirlər ...*
*Bir sözlə, bu pulpərəst, küt şairlər ki, vardır,*
*Yüksək yer tutsalar da, ən alçaq adamlardır.*

***

Nizami özünə çox tələbkar idi. O, utanmadan, həya etmədən özünü "şair" adlandıranlara deyirdi:

– Əgər şeirin səni hamıya tanıtdırma-mışsa, heç bir zaman özünü "şair" adlandırma!

***

Nizami söz ustasının, sənət aşiqinin vurğunu idi. O, həqiqi şairlər haqqında söyləyirdi:

*Ərşin bülbülləridir qələm çalan şairlər,*
*Qırğı hey səy etsə də, olmaz bülbülə bənzər...*
*Səfin önü, arxası o zaman ki, düzəldi,*
*Qabağa peyğəmbərlər, sonra şairlər gəldi...*

***

"Xosrov və Şirin" poemasının yaranması haqqında şair deyirdi:

– Elə ki, könlümün gizli səsi mənə köməkçi oldu, hümmət fəzasından səslənib dedi: Ey Nizami, tələs, gecdir, tez ol. Fələk əhdini pozan, dövran tez keçib gedəndir. Şirin bulaq suyu ilə yeni bir şirni hazırla, sözə yeni bir xələt geyindir.

***

Nizami "Xosrov və Şirin" poemasına məhəbbətin, eşqin möhtəşəm abidəsi kimi baxırdı. O, eşqdən alovlanıb, yanan bir aşiq kimi deyirdi:

– Mənim yanımda eşqdən gözəl bir şey yoxdur. Nə qədər ki, sağam, qoy eşqdən başqa işim olmasın. Fələyin eşqdən özgə mehrabı yoxdur. Eşq torpağı olmazsa, yer üzündə su tapılmaz... Göylər eşqdən azad olsaydı, yer üzü abad olmazdı... Eşq dərdindən yaxşı dünyada heç nə yoxdur, onsuz gül gülməmiş, bulud ağlamamışdır... Əgər daşın qəlbində eşq varsa, o, gövhəri məşuqə kimi qucaqlayar. əgər maqnitdə eşq olmasaydı, dəmiri o qədər böyük bir şövq ilə özünə tərəf çəkməzdi. Əgər kəhrəba aşiq olmasaydı, saman çöpünü axtarıb tapmazdı ... Əgər dərindən düşünsən, bütün kainat eşq üzərində dayanmışdır ...



***

Hökmdar Axsitanın "Leyli və Məcnun" poemasını Nizamidən qələmə almasını və "bu təzə gəlini fars və ərəb bəzəyi ilə bəzəməsini" ondan tələb etməsi şairi bərk əsəbiləşdirmişdir.

– Şahın halqasının qulağıma taxıldığını gördükdə, qan beynimə vurdu. Nə bu təklifi rədd etməyə cürətim var idi, nə də xəzinəyə yol tapmaq üçün gözüm ...

O, şahın təklifini rədd etmək istəyəndə, "canından əziz tutduğu" oğlu Məhəmmədin xahişini yerə sala bilmir, oğul məhəbbəti ürəyində məşhur aşiqanə "Leyli və Məcnun" poemasını qəlbinin qanı ilə yazır və başa çatdırır.

***

Nizami həyatın mənasını çalışmaqda, yaratmaqda, xalqa fayda verməkdə görürdü. O, "İsgəndərnamə" poemasını qələmə alanda, gəncliyini itirmiş, ömrünün baharı xəzana dönmüş, sərv qəddi bükülmüş, gücü-taqəti tükənmişdi. Lakin şairin qəlbi hərarətlə döyünür, coşur, yuxu gözünə haram olur. O, qoca vaxtında öz varlığını unutmuş, daha yeni bir əsər yazmaq arzusu ilə alovlanmışdı:

– Pərvanələr üçün yeni bir şam yan-dırmalı, barlı bir ağacın tumunu sancmalıyam.

Şairin iradəsi qalib gəlir, "İsgəndərnamə" böyük sənət eşqi ilə yazılır və başa çatdırılır.

Nizami öz ölməzliyinə, əbədi yaşayacağına möhkəm inanırdı:

*Yüz il sonra desən: Haradadır, o?*
*Hər yerdən səs gələr: buradadır, o!*



***

Ölü siçan kimi suyun axını ilə axanlara, insanlıq şərəfini ləkələyən alçaqlara müraciətlə, Nizami deyirdi:

*Neçin alçaqlara boyun əyirsən?*
*Oyuncaq olursan namərdlərə sən?*
*Nə üçün boynuna min yük alırsan?*
*Zalımın zülmündən razı qalırsan?*
*Qəlbi yumşaqlığı bir dəfə unut,*
*Çiynini dağ kimi ucalıqla tut! ...*
*Acizlik ürəyi ağrıdır, bilsən,*
*Bir alçaqlıq olar, hər zülmə dözsən.*
*Tikan tək çiynində tut yarağını,*
*O vaxt qucaqlarsan gül budağını.*

104399

Azərbaycan Milli
Kitabxanası



## QİVAMİ MÜTƏRRİZİ GƏNCƏVİ
### XII əsr

Mütərrizini təzkirəçilər ya Nizaminin qardaşı, ya da onun əmisi oğlu kimi yazır. Şair çörəkçi olması və şairliyi ilə fəxr edirmiş:

*Şairlikdə yoxdur mislimi görən,*
*Çörəkçilikdə də hələ təkəm mən.*

Dövrünün narazılıq edən, "bir quşam, dünyadır mənimçün qəfəs" deyən şair gördüklərinə acı-acı gülürdü:

*Əcəb zamanədir, türfə xəlayiq,*
*Cəhalət meyindən tapılmaz ayıq,*
*Nə adil bir şah var, nə doğru hakim,*
*Nə dindar zahid var, nə təmiz alim.*





## MƏHSƏTİ XANIM GƏNCƏVİ

### XII əsr

Yoxsul qızı olan, gözəl musiqiçi və şairə kimi tanınan Məhsətinin Gəncə xətibinin oğlu Əmir Əhmədlə sevgi münasibətləri haqqında çoxlu rəvayətlər yaranmışdır. Məhsəti xanım rübai ustası kimi daha çox şöhrət qazanmış, Ömər Xəyyamdan təsirlənmişdir. Şairənin hər bir rübaisi oxucunu fikir dəryasında üzdürür. Məsələn:

*Bu dünya bir qızıl kuzəyə bənzər,*
*Suyu gah şirindir, gah da ki zəhər*
*Çox da öyünmə ki, uzundur ömür,*
*Əcəl köhlənində hazırdır yəhər!*

*Hünərin səfası acıdır, müdam,*
*Odur ki, hünəri içmir bir adam,*
*Alçaq adamların cəhalət odu*
*Hünəri küləyə vermişdir tamam.*



## ƏVHƏDƏDDİN ƏVHƏDİ
**127...-1338**

Rəvayətə görə, bir məclisdə eşqbazlığı eyib bilənlərə Əvhədi demişdir:

– Eşqbazlığı heç də özümüzə eyib hesab etmirik, bu yolda bizdən əvvəlkilər də çalışmışlar, biz də çalışırıq.

***

Əvhədi səyahəti çox sevirmiş. Ömrünün çoxunu da səyahətdə keçirmişdir. Onun nə üçün səyahət etdiyini xəbər alanda şair demişdir:



– Səyahət kamilliyə dəlalət edir. Özün ki, bir şey bilmədiyini hiss edirsən, səfərə çıxıb bütün dünyanı gəzməlisən. Mən də elə. Bir şey bildiyimi hiss edincəyə qədər gəzəcəyəm ...

***

Doğma vətəni hədsiz məhəbbətlə sevən Əvhədi, uzun illər qürbətdə yaşamış və peşman olmuşdu. O demişdir:

– Mən kiməm?

Özü-özünə cavab vermişdir:

– Mən behiştdən qaçıb cəhənnəmə girmiş, yolunu azmış, karvandan geriyə qalmış, səbəbsiz çöllərə düşmüş, fədakarlıq və mərdlik vaxtı bacarıqsızlıq göstərmiş bir şəxsəm.

Şair səhvini düzəltmiş, tezliklə vətəni Azərbaycana qayıtmışdır.



## SEYİD İMAMƏDDİN NƏSİMİ
**1369-1417**

Hələb şəhərində Nəsiminin çox istədiyi şagirdlərindən biri onun qəzəlinin ucadan, avazla oxuyurmuş. Eşidənlər gəncdən:

– Bu qəzəl kimindir? – soruşduqda gənc:

– Mənim şeirimdir, - cavabını verir. Gənci tutub qətl etmək istəyəndə Nəsimi özünü hadisə yerinə çatdırır və deyir:

– Şeir mənimdir. O gənc mənim xatirim üçün qəzəli özünə isnad vermişdir.

Gənci buraxıb Nəsimini tuturlar və dərisinin soyulmasına hökm verirlər. Dərisi soyulanda qanı axan şairin rəngi saralır. Onu ələ salmaq məqsədilə:



– Şair, bərk dayan, bəs rəngin nə üçün saralır? – deyə ondan sual etdikdə, Nəsimi qürurla cavab verir:

– Bəli, rəngim saralır. Mən əbədiyyət üfiqlərində doğmuş eşq günəşiyəm. Günəş qürub edəndə saralar.

***

Nəsiminin edamına hökm verən ruhani demişdir:

– Bu elə məlundur ki, onun qanından bir damcı hara düşsə, kəsilib atılmalıdır.

Təsadüfən, şairin qanından bir damcı həmin ruhaninin barmağına sıçrayır. Camaat ondan barmağının kəsilməsini tələb etdikdə, o, qorxur:

– Mən söz məsəli demişəm, – deyə ya-xasını qurtarır. Bu zaman al-qan içində olan şairin əzəmətli səsi ucalır:

*Zahidin bir barmağın kəssən, dönüb həqdən qaçar,*
*Gör bu miskin aşiqi, sərpa soyarlar, ağrımaz.*

## CAHANŞAH HƏQİQİ OĞLU PİRBUDAQ
### XV əsr

XV əsr Azərbaycan tarixində görkəmli yer tutan şair Cahanşah Həqiqinin oğlu Pirbudaq da şair olmuşdur. Pirbudağın bu gün də zərb-məsəl kimi işlədilən bir beytinin maraqlı tarixi vardır. Pirbudaq Simnan və Tehran yolunda, susuz bir dağın döşündə bağ salmaq istəyir. Lakin ona deyirlər ki, bu yerdə su yoxdur, burada ağac əmələ gəlib meyvə gətirməz. Pirbudaq isə cavabında deyir:

*İstəmirəm heyvasını, narını,*
*Qoy desinlər, Pirbudağın bağı var.*



## HƏBİBİ
### XV-XVI əsrlər

Həbibinin uşaqlığı Bərgüşad kəndində quzu otarmaqla keçirmiş.

Sultan Yaqub bir gün ova çıxanda çöldə quzu otaran bir uşaq görür. Öz mülazimlərindən birini göndərib quzuların kimə aid olduğunu öyrənmək istəyir. Mülazim uşağın yanına gəlir və soruşur:

– Nə yığırsan?

– Çör-çöp.

– Çör nədir, çöp nədir?

– Çör dik duranlardır, çöp yıxılanlar.

– Bu quzular kimindir?

– Qoyunların.

– Kəndinizin böyükləri kimlərdir?

– Öküzlər hamıdan böyükdür.

– Onu demirəm. Kəndə gələnləri kim qarşılayır?

– Sənin kimi əziz adamlar gələndə, qarşılamağa itlər yüyürür.

Mülazim qəzəblənib deyir:

– Ay, nə çapaydım səni!

Uşaq cavab verir:

– Atını çap, gör ki, yoldaşların getdi.

Mülazim həmin söhbəti padşaha nəql edir. Hazırcavablığı, məzəli söhbəti sevən Sultan Yaqub uşağın çox istedadlı olduğunu başa düşüb, onu saraya gətirir, təlim və tərbiyəsi ilə məşğul olur. Sonralar Həbibi görkəmli sənətkar kimi məşhurlaşır.





## ŞAH İSMAYIL XƏTAİ
## 1486-1526

Xətai elm, sənət adamlarını yüksək qiymətləndirirdi. Belə nəql edirlər ki, 1514-cü ildə məşhur Çaldıran müharibəsində Şah İsmayıl döyüş meydanına getməmişdən əvvəl sarayın ən məşhur xəttatı Mövlanə Şah Mahmud Nişapurini və misilsiz ustad rəssam Behzadı bir mağarada gizlətmiş və demişdir:

– Kim bilir, bəlkə müharibədə öldüm və ya məmləkətimdə qarət və qarışıqlıq baş verdi. Onlar niyə Sultan Səlimin əlinə əsir düşsünlər?!

Şah İsmayıl müharibədə məğlub olub geri qayıdarkən, ilk əvvəl məşhur xəttatı və misilsiz

rəssamı gizlətdiyi yerə gedir. Onları gizli saxladığı yerdə taparkən sevinir və "Allaha çox şükür!" deyir.

***

Şah İsmayılın ən çox sevdiyi şairlərdən biri Nəsimi olmuşdur. O, Nəsiminin qəhrəmanlığına, məsləkcə möhkəmliyinə heyran qalmışdır. Onun faciəli ölümünü şair dönə-dönə yad etmiş, ölümün gözləri içinə dik baxan Həllac Mənsurun və Nəsiminin tutduğu yolu təqdir və təbliğ etmişdir:

*Şah Xətai, didarə bax,*
*Mənsur ipin boynuma tax.*
*Nəsimi oldu haqla haqq,*
*O üzülən dərisidir.*

***

Şah İsmayıl Xətaini əsrlər boyu türk-qızılbaş xalq şairləri və Anadolu el aşıqları bir mürşid, mənəvi ata kimi qəbul etmişlər. Məclislərdə Xətai təxəllüslü şeir oxunarkən ayağa qalxar və kişilər çökərlər.

Şah İsmayıl Xətai Azərbaycan xalqı içərisində şöhrətli bir dövlət xadimi, yenilməz pəhləvan, gözəl şair kimi ad qazanmışdır. Seyid Əzim Şirvani yazır ki, şairin:

*Şah Xətai seyrə çıxdı, açdı Hürrün qəbrini,*
*Bar-ilahi, əfv qıl kim, tövbəkarəm doğrusu –*

məqtəli qəzəli xanəndələr tərəfindən musiqiyə uyğunlaşdırılıb tez-tez oxunardı. Mir Möhsün Nəvvab da "Şah Xətai" adlı musiqi havasının xalq arasında çox məşhur olduğunu göstərir.



## MƏHƏMMƏD FÜZULİ
## 1494-1556

İnsan və sözün qiyməti Füzulicə belədir:

– ... Aləm sədəfində insandan qiymətli bir gövhər görmədim, insan gövhərində isə sözdan bahalı cövhər tapmadım.

Sözün dərəcəsi və rütbəsi ucadır. Söz bilən adam hər yerdə olsa, hörmətli olar. Sözü tərif etmək mənim həddim deyil ... Yaxşı söz kamalı doğruluqdan alar. Doğruluq sözün qiymətini artırar, doğru zinət daha yaxşı görünər.



***

Füzuli şeirin əbədiliyi tərəfdarıdır:

– ... Elə ki, şeir bağçasından doğruluq qoxusu duydum, məsləhət gördüm ki, mən də bu bağçada bir ağac əkim ki, onun kölgəsində əbədi yaşayım... Bu qanlı bir çöl, cahilsiz bir dəryadır. Bu sədəfdə deşilməmiş bir dürr tapmaq çətindir. Bir söz qalmamışdır ki, deyilməmiş olsun. Döyülmüş xırmandan başaq yığmaq yaxşı deyil. Tapdanmış yoldan gedib-gəlmək faydasızdır... Məndən əvvəl gələn şairlərin hamısı yüksək istedadlı, dərin düşüncəli insanlar olmuşlar. Qəzəl üslubuna yarayan hər gözəl ibarəni, incə məzmunu öylə işləmişlər ki, ortada bir şey qalmamışdır. Bir insan onların bütün yazdıqlarını bilməlidir ki, çalışıb vücuda gətirdiyi əsərlərdə özündən əvvəl söylənən mənalar olmasın.

***

Füzuli orijinaldır:

– *Mən aləmdə yeganə olmaq istəyən bir insanam. Bunu təxəllüsüm təyin etdi.*

***

Füzuli böyük zəhmətkeş idi:

– Elə zamanlar olmuşdur ki, gecə sabaha qədər yuxusuz qalmaq zəhərini dadıb bağrımın qanı ilə bir məzmun tapıb yazmışam. Sabah olanda, başqa şairlərə təvarüdə düşdüyümü görüb yazdıqlarımın üstündən qələm çəkmişəm. Elə zamanlar da olmuşdur ki, səhərdən axşama qədər düşüncə dəryasına dalıb şeir almazı ilə heç kəs tərəfindən söylənməmiş inci deşmişəm. Bunu görənlər, "bu məzmun anlaşılmayır, bu ləfz xalq arasında işlənməz və xoşagəlməzdir" – demişlər. O məzmun gözümdən düşmüş, hətta qələmi əlimə alıb onun üzünü ağartmamışam. Nə qəribə haldır. Söylənilmiş bir şey - əvvəlcə söylənilmişdir, - deyə, söylənilməmiş söz də əvvəlcə söylənilməmişdir, - deyə yazılmır .



***

Füzuli qəzəllə yüksəlmək istəyirdi:

*Qəzəl de ki, məşhuri-dövran ola,*
*Oxumaq da, yazmaq da asan ola.*

***

Osmanlı hökmdarı Sultan Süleyman Füzuliyə ayda doqquz ağca təqaüd təyin edir və bu haqda ona bəzəkli bir barat verirlər. Şair həmin baratla ovqaf idarəsinə müraciət edir. Onu süründürməyə salırlar. Ovqaf idarəsində gördüyü yaramazlıq, rüşvətxorluq, ədalətsizlikdən təngə gələn şair məşhur "Şikayətnamə" satirasını yazır:

*"Salam verdim, - rüşvət deyildir, - deyə almadılar. Hökm göstərdim – faidəsizdir, - deyə mültəfit olmadılar. Əgərçi zahirdə sürəti – itaət göstərdilər, amma zəbani-hal ilə cəmi sualıma cavab verdilər.*

*Dedim:*

*– Ey cənablar, bu nə yaramaz hərəkət, bu nə qaşqabaqdır?*

*Dedilər:*

*– Bu bizim köhnə adətimizdir.*

*Dedim:*

*– Mənə yardım etməyi lazım bilmişlər ...*

*Dedilər:*

*– Ey yazıq! Sənə zülm etmişlər. Əlinə avaraçılıq kağızı vermişlər ki, faydasız yerə qapılar gəzəsən, savaşasan, pis-pis üzlər görəsən, çirkin sözlər eşidəsən.*

*Dedim:*

*– Baratımın məzmunu nə üçün vüsul olmaz?*

*Dedilər:*

*– Qalıqlar babətindəndir, vüsulu mümkün deyil.*

*Dedim:*

*– Bu qədər vəqflər qalıqsız olarmı?*

*Dedilər:*

*– Dərbarın məxaricindən artıq qalsa da, bizdən artıq qalarmı?*

*Dedim:*

*– Ovqaf malını artıq mənimsəmək vəbaldır.*

*Dedilər:*

*– Pulumuzla satın almışıq, bizə halaldır.*

*Dedim:*

*– Haqq-hesab istəsələr, bu əməllərin üstü açılar.*

*Dedilər:*

*– Bu haqq-hesaba qiyamətdə baxılar.*

*Dedim:*

*– Bu dünyada da haqq-hesab istənilə bilər ...*

*Dedilər:*



*– Ondan da qorxumuz yoxdur. Çünki katibləri razı salmışıq.*

*Gördüm ki, sualıma quru cavabdan başqa bir şey vermirlər... Əlacsızlıqdan mübahisədən əl çəkdim, məyus və məhrum tək-tənhalıq küncünə çəkildim ..."*

***

Füzulinin qəzəllərində şəxsi və dünyəvi, ictimai-bəşəri kədər vəhdət təşkil edir. Xalq onun haqqında çox gözəl demişdir:

*Füzuli dərd əlindən dağa çıxdı,*
*Dedilər, bəxtəvər yaylağa çıxdı.*



## SARI AŞIQ
### XVII əsr

Sarı Aşığın Güləbürd kənd qəbristanındakı tərsinə olan qəbri xalq arasında müqəddəs hesab olunur. Qəbrin üstündə saz şəkli vardır və bütün başqa qəbirlərdən seçilir. Onun üzü qibləyə yox, aşiqin sevgilisi Yaxşının qəbrinə tərəfdir. Qəbri Sarı Aşığın vəsiyyəti hesab olunan aşağıdakı bayatısı əsasında düzəltmişlər:

*Aşiqi tərsinə qoy!*
*Tər sinə, tərsinə qoy!*
*Yaxşının qibləsinə,*
*Aşiqi tərsinə qoy!*





## ZÜLALİ
### XVII-XVIII əsrlər

Uzun müddət qürbətdə yaşadıqdan sonra Zülali doğma şəhəri Şamaxıya qayıdır. 1705-ci ildə Nadir şah Şamaxını yandırıb, əhalisini də zorla Ağsu çayının sahillərinə köçürtdürür. Zülali də Ağsuya gələnlərin içində olur. Dilxor olmuş şair yan-yana söyləyir:

*Qürbətdə deyərdin ki, Zülali, vətənim var,*
*Ensin gözünə qarə su, Ağsu vətən oldu!*



## MOLLA VƏLİ VİDADİ
**1709-1809**

Vidadi qoca vaxtlarında üç münasibətlə üzləşmişdir. Şairin dostu Hüseyn xan Müştaq öldürülmüş və bu münasibətlə məşhur "Müsibətnamə" yazılmışdır. Can sirdaşı olan Vaqifin oğlu ilə qətlə yetirilməsi onun belini sındırmışdır. Nəhayət ailəsindəki aşağıdakı hadisə onu tamamilə yaşadığı dünyadan küsdürmüşdür: Şairin bir oğlu yeniyetmə qardaşını evə göndərib deyir ki, get evdən tüfəngi gətir. Tüfəng, demə dolu imiş və yeniyetmə oğlan da onunla rəftar qaydasını bilmirmiş. O, evə gedib, tüfəngin lülə tərəfindən



tutub çəkəndə tüfəng açılır və gəncin ürəyindən dəyir. Cavan oğlan o saat da ölür...

***

Vidadinin qəbri Gəmiqaya adlanan yerdədir və qəbir daşı üzərində belə bir beyt yazılmışdır:

*Kim Vidadi xəstənin qəbrin görüb etsə dua,*
*Edə Həqq rəhmət, şəfi ola Məhəmməd Mustafa.*



## MOLLA PƏNAH VAQİF
### 1717-1797

Bir gün Qarabağ hakimi İbrahim xan öz dəstəsi ilə ovdan qayıdarkən yolda çobanlara rast gəlir. Çobanların yanındakı zorba bir itin boynundakı dəri bükmə və göz muncuğu xanın nəzərini cəlb edir və atı saxlayır:

– A bala, o itin boynundakı nədir?

Çoban cəld cavab verir:

– Xan sağ olsun, duadır, göz dəyməsin deyə yazdırmışam.

İbrahim xan təəccüblənir, əhvalı dəyişir. Xanı başa düşməyən çoban, iti təriflәyir ...

– Bəs duanı harada yazdırmısan?

– Şişə qalasında.



Bərk əsəbiləşən xan xilafi-şər iş görən, dini ələ salan mollanı cəzalandırmaq məqsədi ilə çobanı iti ilə birlikdə Şişəyə apartdırır. Axtarıb dua yazan mollanı tapırlar və xanın hüzuruna gətirirlər. İbrahim xan, dizi üstə qarşısında əyilmiş mollaya qəzəblənir:

– Quran sənə qənim olsun, nə cürətlə dinimizi ələ salıb, itə dua yazırsan?

– Xan sağ olsun, əgər siz buyuranlar doğru isə, boynum vurulsun. İtin boynundakı dua deyil, bir məzahdır, çobanla zarafat etmişəm.

– Necə yəni məzahdır?

Molla ürəklənir:

–Xan, qalaların təbiətinə bələdsiniz. Kimsə çobanı öyrədir ki, belə pəncəli köpəyə dua yazdırmasan göz dəyər, tez ölər. Çoban da sürüsündən iki qoyun götürüb şəhərə gəlir, dua yazan axtarır... Onu müxtəlif yerlərə göndərirlər. Qəssab əttara, əttar baqqala, baqqal çaqqala, çaqqal da mənim üstümə. Mən də camaatın kələyini duyub, dua əvəzinə bir məzah yazdım.

Xan itin boynundakı bükməni açdırır və saralmış kağızda yazılanları oxutdurur:

*Gözüm düşdü ətinə,*
*Dua yazdım itinə.*
*Həmin sirri kim açsa,*
*Bu çobanın ...*

Xan gülümsəyir. Mollanın özünü sərbəst aparması, hazırcavablığı xoşuna gəlir, özünə mirzə götürür, saraya gətirir. Həmin molla, məşhur şair Vaqif imiş.

***

Başqa bir rəvayətdə Vaqifin Qarabağ xanlığına gəlməsi belə nəql edilir:

Molla Pənah Daş Salahlıda, məşhur Şəfi əfəndidən elm təhsil edirmiş. Daş Salahlıda Pənahdan bir xəta baş verir, orada artıq qala bilməyib, yaylağa gedir.

Şəfi əfəndi onun dağa getməsindən xəbərdar olub təəssüf edir ki, Molla Pənah elmini tamamlamadı və öz arvadına deyir ki, sən axırda eşidərsən, Molla Pənah böyük bir şəxs olacaqdır, çünki o çox zirək və cövhərli adamdır.

El dağdan enəndə, Molla Pənah vətəninə qayıtmayıb Gəncəyə gedir və orada Şah Abbas məscidinin hücrələrinin birində təhsil və elmlə məşğul olmağa başlayır. Həmin vaxtlarda Qazax mahalından bir qarının oğlu Cavad xanın əmri ilə Gəncədə dustaq imiş. Qarı oğlunu azad etdirmək üçün ərizə yazdırmağa məscidə gəlir. Molla Pənah qarının ərizəsini yazıb verir və ona bərk tap-



şırır ki, xan soruşsa, ərizəni kimin yazdığını deməsin.

Qarının ərizəsi Cavad xanın çox xoşuna gəlir və ondan soruşur ki, bunu kim yazıbdır. Qarı əvvəlcə cavab vermir, amma xan təkid edəndən sonra Molla Pənahı nişan verir. Xan Molla Pənahı hüzuruna çağırıb ondan soruşur ki, bu ərizəni sənmi yazıbsan? Molla cavab verir ki, bəli, mən yazmışam. Xan ona tapşırır ki, bundan sonra mənə hər nə ərizə yazılsa, hamısını sən yaz və hər birinə qələm haqqı bir qızıl al.

Bir neçə vaxtdan sonra İbrahim xan Gəncəyə, Cavad xana qonaq gəlibmiş. İbrahim xan Cavad xandan bir qabil mirzə istəyir. Cavad xan Molla Pənahın elm və məharətini ona tərifləyir. İbrahim xan çox hörmətlə onu qəbul edib özü ilə Qarabağa aparır. Orada Molla Pənah az müddətdə öz bacarığını göstərir və İbrahim xanın ən yaxın sirdaşlarından biri olur.

***

Vaqifin İbrahim xanın sarayına gəlməsi haqda üçüncü bir rəvayət belə nəql edilir:

Vaqif Tərtərbasardan Şuşaya gəlir. Şəhərin Saatlı məhəlləsində məktəb açır. Öz savadı və uzaqgörənliyi, şirin şeirləri ilə tez zamanda ətrafdakıların hörmətini qazanır.

Novruz bayramı günü münasibətilə şairin yazdığı məşhur "Bayram oldu" şeiri əl-əl gəzib, axırda İbrahim xana çatır. Xan onun hazırcavab, zirək və tizfəhm görüb saraya dəvət edir.

***

Vaqifin saraya gəlməsi barədə söylənən dördüncü rəvayət də maraqlıdır:

Vaqif Şuşada bir çox adamlarla yaxınlıq edib, ülfət qılırmış. Onlardan biri İbrahim xanın yaxın adamı, sarayda mötəbər şəxs Mirzə Vəli Baharlı imiş. Vaqif Ayın tutulmasını və zəlzələni qabaqcadan xəbər verərkən, onun ağlına heyran qalmış Baharlı bu əhvalatı İbrahim xana danışır. İbrahim xan Vaqiflə şəxsən görüşüb, onun kamalını qiymətləndirir, saraya gətirdir.



***

Vaqif sarayda əvvəl eşik ağası və sonra baş vəzir olur. Otuz ilə yaxın bir müddətdə, yəni ömrünün sonunadək Qarabağ sarayının ən mötəbər və uzaqgörən xadimi kimi şöhrətlənir. Bir sıra elmlərdə, xüsusilə nücum və mühəndislikdə səriştəsi var imiş. Şuşada bəzi binaların, şəhərin ətrafına çəkilmiş hasar və qala divarının naziri və müşaviri Molla Pənah imiş. Onun hər cəhətcə qabil, kamil olduğunu görən İbrahim xan da şairin məsləhət və tədbirinə qulaq asarmış. Bu səbəbdən, Qarabağda bir məsəl yaranır və çox məşhurlaşır: "Hər oxuyan Molla Pənah və hər qatırçı Murad olmaz"

***

Vaqif nücum elmini gözəl bildiyi üçün, İbrahim xan hər cür ciddi addım atarkən, hərbi səfərə çıxarkən onunla məsləhətləşərmiş. Bir dəfə İbrahim xan xoylu Əhmədxanla müharibəyə başlayıb-başlamamaq haqqında vəzirlə məsləhətləşir. Vaqif ulduzların vəziyyətindən belə bir nəticə çıxarır ki, yaxın zamanlarda Xoyda olmalıdır,

deməli səfər müvəffəqiyyətlə nəticələnəcək. Vaqifin münəccimliyi düz çıxır. Lakin şair Xoya qalib sifətilə deyil, əsir sifətilə varid olur. Tezliklə hər şey sülh yoluna gəlir və Vaqif azad olunarkən aşağıdakı beyti deyir:

*Vaqifəm, sağü-salamət bu səfərdən qayıdam,*
*Mən olam, bir də çıxam ruzi qiyamət Qaladan.*

***

İbrahim xan Quba xanı Fətəli xanın, Şuşaya hücum edəcəyini ehtimal edərək, qoşunu ilə Əsgəranda qərargah salmış, çadırlar qurdurtmuşdur. Vaqif də xanın hüzurunda olmaq məcburiyyətində idi. Lakin onun ruhu şəhərdə, Mədinəsinin yanında idi. O, dözə bilməyib gecələrin birində bir qoşma yazır. Qoşmanı şair belə qurtarır:

*Ləblərin bağrımı pürxun eyləmiş,*
*Axıtmış göz yaşım, ceyhun eyləmiş,*
*Həsrətin Vaqifi Məcnun eyləmiş,*
*Onun üçün gəzər, çöllər dolanır.*

Sonra şair nökəri çağırıb deyir:
– Atı min, bu kağızı bu saat apar Qalaya, Mədinə xanıma ver, tez qayıt!



Çapar tez gedib, tez də Mədinədən cavab gətirir. Məktubda yalnız bircə bayatı yazılmışdı:

*Ahular mələr gələr,*
*Dağları dələr gələr.*
*Yar yarını istəsə*
*Gecəni yarar gələr.*

Vaqif elə o saat at yəhərlədib Qalaya, gözəl Mədinəsinin görüşünə gedir.

***

Vaqifin iki arvadı olmuşdur. Birincinin adı Mədinə, ikincisinin adı Qızxanım imiş. Mədinə öldükdən sonra şair ikinci ilə evlənmişdir. Mədinənin ölümü Vaqifi çox mütəəssir etmişdir. Hətta Mədinənin ölümünə Qazax şairlərindən İsrafil Sail mərsiyə də yazmışdır:

*Biçarə Vaqifin, Molla Pənahın*
*Hayıf oldu Mədinəsi yıxıldı.*

***

Şahsevənli Fərəcullah xan, İbrahim xanın qızı Kiçik Bəyimə evlənmişdi. Bir gün o qayınatası İbrahim xanı qonaq çağırır. Lakin xan başqa işlə məşğul olduğundan, vəziri Molla Pənahı qonaqlığa göndərir. Uzaqdan atlıların gəlməsini görən Fərəcullah xan onların qabağına çıxır, dəstənin başında İbrahim xanı görmədikdə, tutulur:

– Məgər xanın bir adamı yoxmudur, mənim yanıma göndərsin?!

Vaqif dərhal cavab verir:

– Xeyr, xanın adamı çox idi, adamı adam yanına, bizi də sənin yanına göndərdi.

Fərəcullah xan Vaqifi tanıyıb pərt olur, ondan üzr istəyir.

***

İbrahim xan səfərlərinin birində öz qoşunu ilə Kür qırağında qərargah salıb uzun müddət qalmalı olur. Saray əhli və qoşun başçıları təngə gələrək, Şuşaya qayıtmaq üçün Vaqifdən tədbir görməsini xahiş edirlər. Vaqif "Siyah tel görmədim Kür qırağında" qoşmasını yazıb oxumaq üçün saray xanəndəsinə verir. Lakin saray



adamlarının gözlədikləri nəticə hasil olmur. Onlar yenə Vaqifə müraciət edirlər. Bu dəfə xanəndələr Vaqifin yazdığı "Kür qırağının əcəb seyrəngahı var" adlı ikinci qoşmasını xanın hüzurunda oxuyurlar. Vaqifin bu şeiri İbrahim xana o qədər təsir edir ki, o, həmin saat çadırları sökdürür və Şuşaya qayıtmaq əmrini verir.

***

Ağa Məhəmməd şah Qacar Şuşanı mühasirəyə aldığı günlərin birində, İbrahim xanı qorxutmaq məqsədi ilə saray şairi Seyid Məhəmməd Şirazinin yazdığı aşağıdakı bəndi məktub vasitəsi ilə xana göndərdir:

*Zi məncənige-fələk sənge-fitnə mibarəd,*
*To əbləhanə girifti miyane-şişə qərar.*
*(Fələyin mancanağından fitnə daşları yağır,*
*Sən əbləhcəsinə şişə içərisində dayanmısan)*

Bu kağız xana yetişən kimi Vaqifə verir. Vaqif şeirə baxıb, cəld həmin məktubun arxasında aşağıdakı bəndi yazıb, İbrahim xana verir:

*Gər nigahdareye-mən an əst ke, mən midanəm,*
*Şişera dər beğəlbe-səng nigəh midarəd.*
*(Məni qoruyan mənim tanıdığımdırsa,*
*Şişəni daş qoynunda salamat saxlayar)*

Şeir xanın xoşuna gəlir və məktubu geriyə göndərir. Ağa Məhəmməd şah cavabı oxuyarkən, qəzəbi daha da alovlanır.

***

Ağa Məhəmməd şah Qacar Şuşanın mühasirəsi vaxtı İbrahim xana məktub yazaraq, ona bir at göndərməsini tələb edir. Lakin bu at nə kəhər, nə kürən nə səmənd, nə qara, nə ağ, yəni, heç bir rəngdə olmamalı idi.

İbrahim xan, Vaqifə müraciət edir. Vaqif, Ağa Məhəmməd şaha belə bir cavab yazır: "İstədiyiniz at xan tövləsində hazırdır. Adam göndərin, aparsın. Lakin həmin adam həftənin şənbə, bazar ertəsi, çərşənbə axşamı, çərşənbə, cümə axşamı, cümədən başqa hansı günündə istəyir gəlsin".



***

1797-ci ildə Ağa Məhəmməd şah Qacarın qoşunları, aclıqdan taqətdən düşmüş Şuşaya daxil olurlar. İbrahim xanın yaxın adamları tutulur. Vaqif də həmçinin. Şair yolda dustaq yoldaşı Sofi bəyə deyir:

– Mən nə şahın üzünü görəcəyəm, nə də qətl ediləcəyəm. Səni bilmirəm.

O gün cümə axşamı imiş. Qacar qatı dindar olduğu üçün cümə axşamı qan tökməyi günah sayır və deyir:

– Sabah elə bir siyasət eləyim ki, tarixlərdə deyilsin. Bir minarə qurduracağam, şair Molla Pənahın da başı lap yuxarılarda asılsın. Gedin dəmirçilərə deyin minarə üçün çoxlu mıx qayırsınlar! ...

Vaqif saraya gətiriləndə qüruba bir və ya iki saat qalıbmış. Sərkeşbaşı Məhəmmədhüseyn xan Vaqifi qapıda əli bağlı görüb soruşur:

– Bu kimdir?

Cavabında deyirlər:

–Bu, həmin Molla Pənahdır ki, eşidibsiniz.

Həmin dəm sərkeşbaşı Vaqifə nalayiq söyüşlər yağdırır:

– Ay pədər süxtə! Qoca köpək!

Vaqif öz ləyaqətinin tapdanmasına yol verməyərək, qürurla sakitcə cavab verir:

– Ey xan, siz şəxsi-dövlətsiniz, dəstgir və giriftarlara yaman gəlmələr, hədyan sözlər buyurmaq sizin rütbə və məratibinizə şayistə deyil...

Lakin Məhəmmədhüseyn xana bu sözlər zərrəcə təsir göstərmir. O, Vaqifi yenə təhqir edir. Lakin Vaqif soyuqqanlılıqla onun cavabını verir:

– Ey xani-nanəcib! Mən əgər dustağəm, dustaği-şahəm, sən nəçisən ki, mənə bir zərrəcə acib yetirə biləsən. Həmin bu cür rəftar məhz sənin nanəcib və naqabilliyinə nişanədir! Bəlkə şah sabah məni azad edəcəkdir və ya fələyi-kəcrəftar və təqdiri-pərvərdigar bəlkə qeyri bir yol gedəcəkdir. Gecə hamilədir, kim bilir sabah nə doğacaq.

Məhəmmədhüseyn xanın göstərişi ilə Vaqifi zindana salırlar.

Molla Pənah gecə yarısı zindanbandan:

– Şəhərdə təzə bir əhvalat və şuriş yoxdur?

O cavab verir ki, bir şey bilmir. Şairin gözünə yuxu getməyib, sübh tezdən yenə zindanbandan soruşur:

– Şəhərdə nə xəbər var?



Zindan böyüyü bu səfər də Molla Pənahın ürəyini sakit edə bilməyib cavab verir ki, o, bir xəbər eşitməyibdir.

Amma çox keçmir ki, Ağa Məhəmməd şahın qətlə yetişmək xəbəri şəhərə yayılır. Dəmirçilərə xəbər gəlir ki, mıx lazım deyil, şahın cənazəsi üçün bir neçə mismar lazımdır. Baş dəmirçi:

– Ey mıxı mismara döndərən Allah! – deyə üzünü göyə çevirir. Dustaqlıqdan azad olan Vaqif də öz əziz dostu şair Vidadiyə məşhur "Ey Vidadi gərdişi-dövrani kəcrəftara bax" rədifli qəzəlini yazır:

*Əhli-zülmü necə bərbad eylədi bir ləhzədə,*
*Hökmü-adil padşahi-qadirü qəhharə bax!*
*Sübh söndü şəb ki, xəlqə qiblə idi bir çirağ,*
*Keçərki iqbalı gör, gündüzdəki idbarə bax!*

***

1797-ci ildə Ağa Məhəmməd şah Qacar Şuşada öldürüldükdən sonra hakimiyyət İbrahim xanın qardaşı oğlu Məhəmməd bəy Cavanşirin əlinə keçir. Məhəmməd bəy İbrahim xanın ən yaxın adamlarını, o sıradan Vaqifi və oğlunu həbsə aldırır.

...Molla Pənahı oğlu Qasım ağa ilə qətlgaha apartdırmışdır. Qətlgah isə Cıdır düzünün qurtaracağındakı Xəzinə qayası idi. Bura dəhşətli və sıldırım bir qayadır ki, oradan müqəssirləri xanın hökmü ilə aşağı atarlarmış. Yolda Molla Pənah qətlgaha aparıldıqlarını anlayır. O, duyduğunun həqiqət olub-olmamasına inanmaq üçün təngnəfəs halda oğlundan soruşur:

– Qasım ağa, bizi hara aparırlar?

Oğlu sərzənişli sözlərlə cavab verir:

–Ağa, bir çoxlarını sən bu yolla göndərmisən, indi də bizi həmin yolla ora aparırlar!

Vaqif Cıdır düzünə çıxan bir yamacda yerə oturur. Onda ürəyilə getməyə taqət qalmır. Cəllad bir-iki dəfə qolundan dartırsa da, yerindən qaldıra bilmir. Vaqif zəif, lakin qürurlu səslə deyir:

– Nə eləyəcəksinizsə, elə burada eləyin, heç yerə getməyəcəm!

Cəlladlardan biri qəməsini çıxardıb Qasım ağaya yaxınlaşdıqda, Vaqif yalvarır:

– Amandır! Əvvəl məni! Mənə oğul dağı göstərməyin!

Cəlladlar şairə qulaq asmayıb, əvvəl oğlunu, sonra da özünü öldürürlər.





## QASIM BƏY ZAKİR
**1784-1857**

Zakirin başına gələn müsibətlər, ona məxsus Xındırıstan kəndinin dağıdılması, təqib və təhdidlər, özünün Şuşadan Bakıya sürgün edilməsi, oğlu və qardaşı oğlunun Sibirə göndərilməsi, o biri qardaşı oğlu, çar çinovliklərinin qənimi Behbudun tutulub vəhşicəsinə öldürülməsi, ailəsinin müsibətlərlə üzləşməsi şairin yenilməz vüqarını sarsıda bilmir. Əksinə, onda mübarizəni alovlandırmaq, şiddətləndirmək niyyətini daha da qüvvətləndirir:

*Rahi-müsibətdə keçmişəm candan,*
*Müxənnəsdir qorxan bir qaşıq qandan,*
*Ehtiyatım yoxdur paşadan, xandan,*
*Analar doğubdur şiri-nər məni!*

***

Qasım bəy xasiyyətcə həlim, mürvətli və rəhmli bir şəxs imiş. İnsafdan, vicdandan kənar sözlər və işlər şairin qəzəbinə və hiddətinə səbəb olarmış. Ədaləti ilə başqa bəylərdən seçilər, əməkçi kəndlilərə xüsusi hörmət edərmiş. Belə nəql edirlər ki, bir gün bədxasiyyət bəylərdən biri kəhrizi bağlayır və kəndlilərə su buraxmır. Kəndlilər şairin yanına gəlib şikayətlənirlər ki, bəyin adamları kəhrizin başında durub, suyu bağlayıblar: bizə kömək edin, yoxsa əkinimiz məhv olub gedir. Zakir onlara söz verir ki, qorxmayın, hücum çəkib bəyin adamlarını qovun. Kəndlilər də şair deyən kimi edirlər. Bəy adamları ilə kəndlilər arasında savaş, dava düşür. Həmin toqquşmada əməkçi kəndlilər istəklərinə çatırlar. Rəvayətə görə, bu əhvalat şairi ruhlandırır və o, fəqir və zəiflərin birlik əzmini ifadə edən "Tısbağa, qarğa, kəsəyən, ahu" təmsilini yazır.



***

Zakirin qızı Nənəş xanım da atası kimi qoçaq, dilli-dilavər imiş. O, Şuşa həbsxanasında öldürülmüş əmisi oğlu, cəngavər Behbudun qala divarı yanında basdırılmış meyitini qohumlarının köməyi ilə gizlicə oğurlatmış və hara isə apartdırmışdır. Bu əhvalat yerli çar hakimlərini xüsusi qorxuya salmış, onları yuxarılara raport yazdırmağa məcbur etmişdir.



## AĞABƏYİM AĞA
### XVIII-XIX əsrlər

Qarabağ xanı İbrahim xanın qızı Ağabəyim ağa da şairə imiş. Rəvayətə görə, hələ gənc yaşlarında öz əmisi oğlu, gözəl qamətli, mərdliyi və şücaətli ilə ad qazanmış Məhəmməd bəyə vurulur. O zaman Məhəmməd bəy vuruşmalarda qoşuna başçılıq edirmiş. Yenə bir gecə vacib bir məsələdən ötrü Şuşaya – İbrahim xanın yanına gələn Məhəmməd bəy, elə o gecə də geriyə - vuruşan qoşunun yanına qayıdır. Ağabəyim ağa bu münasibətlə deyir:

*Əfsus ki, yarım gecə gəldi, gecə getdi,*
*Heç bilmədim ömrüm necə gəldi, necə getdi ...*



***

İran şahı Ağa Məhəmməd şah Qacarın başı Şuşada kəsildikdən sonra, İranla Qarabağ xanlığı arasındakı münasibətlər düzəlsin deyə, İbrahim xan öz sevimli qızı Ağabəyim ağanı Tehrana, Fətəli şaha girov göndərir. Rəvayətə görə, Fətəli şahın bir xasiyyəti var imiş. O da beləymiş ki, onun hərəmxanasına daxil olan xatunlar ilk dəfə bəzəkli paltarlarla dolu böyük otağa girməli, orada istədiyi paltarı geyinməli, sonra şahın hüzuruna getməli, imiş. Ağabəyim ağa müxtəlif yollarla öyrənir ki, şahın anasının da paltarı oradadır. Onu otağa gətirdikdə, qız birbaşa şahın anasının paltarı asıldığı güşəyə gedir və həmin libası geyir. Ağabəyim ağanı şah öz anasının libasında görəndə əhvalı dəyişir, ona heç vaxt əl vurmur.

***

Ağabəyim ağa öz ağlı, zəkası ilə Fətəli şahın o qədər xoşuna gəlmişdi ki, ona baş hərəm vəzifəsi vermiş və özünə də başdan-ayağa inci ilə işlənmiş bir don bağışlamışdı. Lakin Ağabəyim ağa həmişə öz vətənini arzulayar və yazdığı bir bayatını tez-tez oxuyarmış:

*Mən aşiqəm, Qarabağ,*
*Şəki, Şirvan, Qarabağ.*
*Tehran cənnətə dönsə,*
*Yaddan çıxmaz Qarabağ!*

Həmin bayatını Fətəli şaha çatdırırlar və həm də deyirlər ki, Qarabağlı qızı Tehranda oturub, Tehranı bəyənmir. Şah incimiş halda Ağa-bəyim ağanı yanına çağırır. Şairə isə onun fikrini ustalıqla yayındırır:

– Mən elə yazmamışam, sizə pis çatdırıblar. Mən belə yazmışam:

*Mən aşiqəm, Qarabağ,*
*Şəki, Şirvan, Qarabağ*
*Tehran cənnətə döndü,*
*Yaddan çıxdı Qarabağ!*





## HEYRAN XANIM

**(1790 - 1848)**

Naxçıvan xanlarının nəslindən olan Heyran xanımın birinci əri əvvəlcə onu dərin bir məhəbbətlə sevmiş, ürəyini ovlamış, sonra isə vəfasız çıxmışdır. Şairə onun vəfasızlığını dilinə gətirmiş və kağıza köçürmüşdür:

*Vurdun ol qədər sən vəfadan dəm,*
*Xatirimdə nə şübhə qaldı, nə qəm.*
*Gülüşün qönçə, göz yaşın şəbnəm,*
*Məni aldatdı, bilmədim nə edəm.*
*Məni – biçarəni zəbun etdin,*
*Zar qəlbimi qərqi-xun etdin.*

***

Şairənin ikinci əri isə daima onunla pis rəftar etmiş, göz verib işıq verməmişdir. Heyran xanım ikinci ərini də qələmə almışdır:

*Məni zəncirdə saxladın, bu yetər,*
*Doğrusu, sən mənə deyilsən ər.*
*Daima ac, susuz və qəlyansız,*
*Oturum bu xərabədə nə qədər?*
*Birlmirəm ruzigarə neyləmişəm,*
*Ki, salıbdır kəməndinə bu təhər.*

Azərbaycanın ruslar tərəfindən işğalı zamanı ailəsi ilə Təbrizə köçən Heyran xanımın həyatı kədərli keçmişdir. O, həmişə zəmanədən, adamların vəfasızlığından, özünün qürbətdə təktənha qalmasından gileylənmiş, yaşadığı Təbriz şəhərini "guşeyi-zindan" adlandırmışdır. Ömrü iztirablar içində keçən şairənin gənclik təravəti və gözəlliyi tez solmuş, zahirən tamam qocalmışdır. Şeirlərinin birində, Heyran xanım öz vəziyyətini təsvir edərək yazır:

*Belim büküldü,qara saçlarım ağardı mənim,*
*Qocalmışam bu cəfakar çərx əlindən, aman.*



"Təbrizdə zəlzələ haqqında" şeirində Heyran xanım yaşadığı şəhərdə baş verən təbii fəlakət nəticəsində əmələ gəlmiş faciəli hadisələrdən, "sinəsi dağlı, gözləri giryan" qalmış anaların kədərindən, onların göylərə qalxan əfqanından bəhs edir. Həcmcə kiçik olmasına baxmayaraq, bu şeir kədərli bir lövhə kimi yadda qalır:

*Oldu, ya rəbb, həlak insanlar,*
*Suvarıb torpağı qızıl qanlar.*
*Oldu çöllər cavanlara mədfən,*
*Çoxlarına nə qüls var, nə kəfən.*
*Sinəsinə dağlı, gözləri giryan,*
*Minlər ilə ana edər əfqan.*
*Bala dərdilə cümləsi ağlar,*
*Nə bir ehsan, nə bir xətmi-Quran var.*
*Baxasan, hər tərəf cəsədlə dolu,*
*Bağlanıb xalq üçün nicat yolu.*



MİRZƏ ŞƏFİ VAZEH
1794-1852

Gəncədə Mirzə Şəfi Vazehdən dini dərslər alan M.F. Axundzadə ilə müəllimi arasında bir gün belə bir söhbət olur. Mirzə Şəfi gənc Axundovzadədən soruşur:

– Mirzə Fətəli, elmləri təhsil etməkdən məqsədin nədir?

Mirzə Fətəli cavab verir ki, ruhani olmaq istəyirəm.

– Sən də riyakar və şarlatanmı olmaq istəyirsən?



Mirzə Fətəli müəlliminin sözündən təəccüblənir və heyrət edir. Mirzə Şəfi onun halına baxaraq deyir:

– Mirzə Fətəli, öz ömrünü bu qaragüruhun içərisində zay etmə, başqa bir iş qəbul et!

Bu hadisədən sonra, Mirzə Fətəli ruhaniliyə nifrət edir və fikrini dəyişdirir.

***

Deyilənlərə görə, Mirzə Şəfi yüksək rütbəli ruhanilərdən biri ilə məscid haqda söhbət edərkən, çox əsəbiləşmiş və belə söyləmişdir:

*Min ev yıxıb, tikirsiniz bir boş minarə,*
*Ərşə çıxıb, yetmək üçün pərvərdigarə.*



## ABBASQULU AĞA BAKIXANOV
## 1794-1847

Rəvayətə görə, Abbasqulu ağa Peter-burqda olduğu vaxt I Nikolayın qonaqlıq məclisinə dəvət olunur. Nikolaya və arvadına çatdırırlar ki, Qafqazdan gələn qonağın ömründə dilinə içki dəyməyib. Nikolayın arvadı çox qürrəli halda söyləyir ki, mən Abbasqulu ağaya ilk dəfə şərab içdirərəm. O, bir bokal şərabı qızıl podnosa qoyur və özü gətirib Bakıxanova təqdim edir. Padşahın arvadının şərab təqdim etməsi qonaq üçün ən yüksək hörmət sayılarmış. Abbasqulu ağa ayağa qalxaraq, podnosdan bokalı götürür və üzünü çara, I Nikolaya tutaraq deyir:



– Ey mənim həşəmətli hökmdarım, siz deyirsiniz bu şərabı içim, Allahım deyir içmə. Hansınızın sözünə baxım?

Çox dindar olan çar I Nikolay bir anın içində:

– Əlbəttə Allahın, - söyləyir.

Abbasqulu ağa əlindəki şərab bokalını təzədən qaytarıb padşah arvadının əlindəki podnosa qoyur. Padşah arvadı peşman halda qayıdıb yerində oturur.

***

Deyilənlərə görə, Abbasqulu ağa Məkkəyə gedərkən, məhərrəm ayı imiş. Məkkəyə böyük təntənə, dəbdəbə ilə gedənlərdən biri də İran vəliəhdi imiş. Aşura gününü onlar Məkkənin bir günlük məsafəsində qarşılayırlar. Vəliəhd öz çadırının önündə iri hərflərlə aşağldakı beyti yazdırıb vurdurubmuş:

*Bu sərbazu əsas şəhzadə,*
*Olaydı kaş o dəmdə Kərbəladə!*

Abbasqulu ağa çadırın yanından keçərkən gözü yazıya sataşır, oxuyur və onun altında yazır:

*Busati-cəng saət qaçardı,*
*Qoyardı sərvəri-dini aradə!*

Vəliəhdə xəbər verirlər ki, bəs bir nəfər belə etmişdir. Abbasqulu ağanı tutub vəliəhdin çadırına aparırlar. Qəzəblənmiş vəliəhd Abbasqulu ağanın qətlinə fərman verir. Abbasqulu ağa namaz qılmaq arzusu ilə vəliəhddən xahiş edir ki, bir neçə dəqiqəliyə öz çadırına getməyə ona icazə versin. Namaz sözünü eşidən vəliəhd ona icazə verir. Abbasqulu ağa öz çadırına gəlib, general libasını geyir və vəliəhdin çadırına yollanır. Bakıxanovu çar generalı libasında görən vəliəhd özünü itirir, Abbasqulu ağanın ayaqlarına döşənir:

– Qurban olum ağa, günahımdan keç! – ona yalvarmağa başlayır. Bakıxanov onu ayağa qaldırır:

– Mən sənin günahından keçirəm. Amma ağılla iş görməyi unutmayın, hər şeydən tez qəzəbnak olmayın. Bəlkə mən general yox, adi adamam? Uşaqlarımı yetim, gözüyaşlı qoymağı özünüzə necə rəva bilirdiniz?!

***

Belə rəvayət olunur ki, Abbasqulu ağa Qüdsi Məkkəyə Həcc ziyarətinə getdikdə, məşhur Quba qazisi Hacı Molla Abdulla axundu da özü ilə bərabər aparmışdı. Qüdsi ziyarətini başa çatdırdıqda, üzünü "dərgahi-həqqə" tutub deyir:



– Pərvərdigarə! Hər padşahdan mənə nişan verilibdir. Səndən də bir nişan təmənna eyləyirəm ki, axır nişanım olsun.

Hacı Molla Abdulla axund o nişandan muradının nə olduğunu soruşur. Abbasqulu ağa deyir:

– O nişan, bu müqəddəs məkanda ölməkdir.

Bu əhvalatdan üç gün sonra, 1847-ci ilin fevralında Abbasqulu ağa Bakıxanov Məkkə və Mədinə arasında "Vadiyi-Fatimə" deyilən yerdə təsadüfən vəba xəstəliyindən ölmüş və orada dəfn edilmişdir.



## MİRZƏ İSMAYIL QASİR
**1805-1900**

1840-cı ildə Qasir Təbrizdən Qaradonlu sərhəd idarəsinə tərcüməçi vəzifəsinə çağırılır. Şair Muğan səhrasını piyada getməli olur. O, sərhəddə İran qoşununa rast gəlir. Demə, həmin yerdə İran ilə Rusiya arasında mübahisəli sərhəd məsələsi üzrə danışıqlar aparılırmış.

Qasir, İran qoşunları düşərgəsindən, vəzirin çadırı yanından keçərkən münşinin çadıra



şahmat qutusu apardığını görür, ondan xahiş edir ki, qoy xanaların birinə bir beyt yazım və həmin beyti vəzirə çatdır. Münşi razılıq verir. Qasir yazır:

*Payi-piyadə peyi-yek əsb bedin filsəvar*
*Rəxi-hacət be vəzire dəri-şah amədeəm*

(Bir atdan ötrü filə minərək, piyada halda ehtiyac topu ilə şahın vəzirinin qapısına gəlmişəm).

Münşi əhvalatı vəzirə çatdırır. Vəzirin də təbi varmış. O, Qaşirə şeirlə belə cavab yazır:

*Gər koni matəmu əsbi dəhəmət filinəjad,*
*Vər ne-bapaje piyadə be vətən baş şetab.*

(Əgər məni mat eyləsən, sənə fil nəslindən bir at bağışlaram, əks halda vətənə piyadə getməlisən.)

Qasir şərtə razı olur və vəzirlə şahmat oynamağa başlayır. Şair oyunun başlanğıcında vəzirə deyir:

– Sizi hansı xanədə mat saxlasam, inciməzsiniz?

Vəzir tutulur və dodaqaltı söyləyir:

– Necə də üzlü adamdır.

Qasir şahmatı daha yaxşı oynadığı üçün, vəziri bir neçə dəfə mat edir. Vəzir şərtə əməl edir və şairə gözəl bir at bağışlayır.





## SEYİD ƏBÜLQASIM NƏBATİ
## 1812-1873

Rəvayətə görə, Nəbati Muğanda bir xana çobanlıq edirmiş. Xan ona bir yabı bağışlayır. Nəbati həmin yabını minib yol gedərkən, həmkəndlilərinə rast gəlir. Həmişə piyada gəzən xan çobanı – Nəbatini arıq yabı belində görən kəndlilər çox təəccüblənirlər. Onların simasında oxuduğu suala şair gülə-gülə belə cavab verir:

Dingidir, dingildədir yabu məni,
Ya mən öldürrəm bunu, ya bu məni.

***

Şair, Nəbat adlı bir qıza vurulur. Lakin qızı ona vermirlər və o da bundan sonra, əvvəlcə Məcnun, sonra isə Nəbati təxəllüsünü qəbul edir və nakam eşqi haqqında çoxlu şeirlər yazır. Onlardan birində deyilir:

*Əgər görmək dilərsən surəti-Məcnuni-şeydanı*
*Uzaq gəzmə, tamaşa qıl, budur ol aşiqi rusva.*
*Şikəstə-xatirü məhzun, sözü aşüftə, digərqun,*
*Tutub nəqşi-rəhi-Məcnun, gəzər vəhşi kimi səhra.*
*Nəbati, həmd qıl-Allaha, min şükrü sənə eylə*
*Ki, Məcnunun məqamini sənə ruzi edib mövla.*





MİRZƏ FƏTƏLİ AXUNDZADƏ
1812-1878

Mirzə Fətəlinin andı: "Sizi and verirəm qəlbimdə sizə bəslədiyim məhəbbətə!"

Mirzə Fətəlinin məqsədi: "Mənim məqsədim İslam xalqlarını sarsıdan cəhaləti ortadan qaldırmaq, elmləri, sənətləri inkişaf etdirmək, xalqımızın azadlığı, rifahı və sərvətinin artması üçün, vətənin abadlaşdırılması üçün... ədalətə rəvac verməkdir ".

Mirzə Fətəlinin etiqadı: "... Xalqın tərbiyəsi, onun səadəti, vətənin abadlaşdırılması və ölkənin vəziyyətinin yaxşılaşması uğrunda bir iş

görülərsə, bu elə bir xeyirli işdir ki, insanlar onu bəyənər! ..."

Mirzə Fətəlinin şüarı: "Fikir azadlığı olmadan tərəqqi mümkün ola bilməz!"

Mirzə Fətəlinin tapşırığı: "... Gəlin bir qədər şəxsi mənfəət güdmədən vətənimizin abadlığı, xalqımızın tərəqqi və səadəti yolunda yaxşı işlərə iqdam edək".

***

Mirzə Fətəli bir gün Qoçur yaylağındakı dərələrdən keçərkən, yerdə nazikcə axan bir suya rast gəlir. Həmin saat oranı qazdırıb bir bulaq halına gətirir. Həmişə dostları ilə bu bulağın başına gəzməyə gələrmişlər. Dostları bu bulağa "Mirzə Fətəli bulağı" adını vermişdilər. Bir il sonra, günlərin bir günü Mirzə Fətəli ilə yoldaşları o bulağa gedərkən görürlər ki, Qoçur gürcülərindən birisi bulağın qaşına Məryəm ananın şəklini həkk etdirmişdi. Mirzə Fətəli bunu görür və dostlarına deyir:

– Bax, bu bulağa ad qoydular, bunun adı Allah bulağıdır.

O zamandan bulağın adı "Allah bulağı" qalmışdır.



***

Mirzə Fətəli məhkəməyə və başqa yerlərə hər zaman at üstündə gedirmiş. Bir gün yoldaşları ilə bərabər gəzməyə çıxdığı zaman, Mirzə Fətəli mindiyi atı dar bir arxın içərisi ilə sürür. Bir az getdikdən sonra ayaqları arxın o tərəf, bu tərəfinə ilişir, at onun altından çıxıb gedir. Mərzə Fətəli üzünü ata tutaraq deyir:

– Ay heyvan, dayan! Sən də Mirzə Hüseyn xan kimi mənə bivəfalıq etmə, haraya gedirsən məni də apar.

Yoldaşları xeyli gülürlər.

***

Mirzə Fətəli divanxanadan evinə müəyyən bir vaxtda qayıtmaz imiş. Gah tez gələrmiş, gah da yubanarmış. Bir gün arvadı ondan qəti söz alır ki, vaxtında gəlib nahar etsin. O söz verir və həmişə də dediyinə əməl etdiyi kimi, saat dörddə evə gəlir. Lakin bir gün Mirzə Fətəli verdiyi sözə əməl etmir, evə gec gəlir. Arvadının məzəmmətini eşitməmək üçün onu qabaqlayır:

–Bu dəfə məni bağışla, pəncşənbənin nöqtələrini qoyurdum, ona görə yubandım.

***

Avam dindarlar M.F. Axundzadəni kafir və dinsiz kimi tanıyırdılar. O, avam xalqın ona belə nəzərlə baxdığını gözəl bilirdi. Mərzə Fətəli yoldaşlarına deyirdi:

– Dəftərxanaya getdiyim vaxt, üstüörtülü dalanın ağzında oturan dükançı Məşədi Qasım məni görən kimi dodaqlarının altından mırtıldamağa başlayır... Sözlərini qana bilmirəm... Amma bilirsinizmi nə deyir? O deyir ki, "Ey fələk, göydəki daşlarını onun başına nə səbəbə yağdırmırsan? Ey yer, yarılıb bu məlunu nə üçün udmursan?"

***

M.F. Axundzadənin fikrincə kamil adam olmaq üçün yeddi əsas insanlıq vəzifəsini yerinə yetirmək vacibdir:

Birinci vəzifə: insan pis əməldən qaçmalıdır.

İkinci vəzifə: insan yaxşılıq etməyə çalışmalıdır.



Üçüncü vəzifə: insan zülmü dəf etməyə çalışmalıdır.

Dördüncü vəzifə: insan öz həmnövləri ilə cəmiyyətdə müttəfiq yaşamalıdır.

Beşinci vəzifə: insan elm ardınca getməlidir.

Altıncı vəzifə: insan hər yerdə elmi yaymağa çalışmalıdır.

Yeddinci vəzifə: insan öz qüvvəsi və imkanları daxilində özünə müttəfiq olan cəmiyyət, öz həmvətənləri və həməqidələri içərisində qayda və qanunları mühafizə etmək uğrunda mübarizə aparmalıdır.



## LEYLA
### XIX əsr

XIX əsrin ikinci yarısında yazıb-yaratmış şairə Bilqeys öz şeirlərində Leyla təxəllüsü işlətmişdir. Ərdəbil mahalında yaşayan Leyla Miyana şəhərinin sakini şair Mustafa Əhqər ilə uzun müddət məktublaşmışdır. Onun taleyindan şikayətlənən qəzəllərindən birinin möhür bəndi xalq arasında məşhurdur:

*Leyla adımdır, Leylidən artıq bəlalıyam,*
*Hər kimsə seyrə çıxsa, onun mən maralıyam.*





## AŞIQ ƏLƏSGƏR
### 1826-1926

Aşıq Ələsgər başında çox iri bir papaqla məclisə gəlir. Aşığın bəy dostlarından biri onun papağına sataşmaq məqsədilə deyir:

– Aşıq, qardaşın varmı?

Aşıq Ələsgər arif olduğu üçün mətləbi o saat başa düşür:

– Var, amma heyf, onun papağı mənimkindən də iridir.

***

Rəvayətə görə, Aşıq Ələsgərin arvadı Anaxanım əri ilə tez-tez dalaşarmış. Yenə soyuq qış günlərinin birində aşıq arvadını danlamış, o da küsüb evdən çıxıb getmişdir. Aşıq oğlu ilə səhərə qədər arvadını axtarmış, lakin onu tapa bilməmişlər. Səhər arvadının sağ-salamat olduğunu bilincə aşıq sevinmiş və məzahla dolu "Salamatdı" qoşmasını demişdir:

*Çox obadan, ağır eldən keçibdi,*
*Pələng, əjdahalı koldan keçibdi,*
*Coşğun dərya, daşqın seldən keçibdi,*
*Öldürməyib boran, qar, salmatdı.*

***

Aşıq Ələsgərin arvadı Anaxanım bir gün ərinə deyir:

– Bütün qız-gəlinləri tərifləyirsən, bir tərif də mənə de.

Aşıq Ələsgər: - Baş üstə, - deyib sazı əlinə alır, məşhur "Xəbərin varmı?" gəraylısını söyləyir:



*O vədə ki, gəlin oldun,*
*Qabırğası qalın oldun,*
*Qaynanana zalım oldun,*
*Dilindən xəbərin varmı?*

Bu həcvdən sonra Anaxanım aşıqdan küsmüş, o da "Niyə döndü" gəraylısını demiş, barışmışlar.



## KƏRBƏLAYİ QƏHRƏMAN BƏY ARİF
### XVIII-XIX əsr
### (1780 - ?)

Hazırcavab, bədahətən şeirlər söyləyən, rəvan təbli bir şair kimi tanınan Kərbəlayı Qəhrəman Bəy Heydər oğlu (Qəhrəman bəy Arif) eşidəndə ki, İbrahim xanın ağıllı, tədbirli qızı Gövhər ağa elm və mərifətdən bixəbər bir adama – Xankişiyə ərə gedib, dilxor olur və deyir:

*Xərmöhrəyə layiq olmayan xər,*
*Səd heyf, cahanda tapdı Gövhər!*
*Təqdiri-qəzayə qıl təmaşə,*
*Axır səni verdi cəhrə başə!*





## XURŞİDBANU NATƏVAN
### 1830-1897

İki bacı varmış: Nabat və Gövhər. Natəvan xanımın qohumlarından imiş. Böyük bacı Nabatı ərə verərəkən, cehizə baxmağa Natəvan xanımı da çağırırlar. Kiçik bacı Gövhər cehizin çox olduğunu görüb şikayətlənir:

–Ay Ana! Cehizin hamısını Nabata verdiniz. Mənə heç nə qalmadı.

Balaca qızın sözləri Xurşid xanımın çox xoşuna gəlir, o, xeyli gülür və deyir:

–Qızım, qorxma, sənə elə cehiz verəcəyəm ki, ondan da yaxşı olsun.

Elə də olur. Gövhər ərə gedəndə, onun cehizini Xurşid xanım özü verir...

***

Qəza torpaq idarəsi rəisi Şuşada oturarmış. O, çox təkəbbürlü imiş. Bir gün o, yanından laqeydcəsinə keçən Məşədi Nəsir adlı bir nəfərin hərəkətindən qəzəblənir, əlindəki ağacla onu vurur. Kişi qorxusundan Xurşid xanımın imarəti olan tərəfə doğru qaçır, yıxılır. Çar çinovniki onu təpikləməyə başlayır... Demə bu mənzərəni Xurşid xanım görürmüş. O, cəld küçəyə çıxıb çar çinovnikinin üstünə cumur, ona bir-iki bərk sillə ilişdirir, sonra da əl atıb zərli paqonunu qoparır. Çinovnik Natəvana heç bir söz deməyə cürət etmir, şəhər hakiminə şikayətə gedir. Xurşid xanımın cəsarəti qarşısında özünü itirən şəhər hakimi deyir:

–Xurşid xanım, çinovniki vurmağa etiraz etmirəm, lakin paqonları qırmaq, dövlətə hörmətsizlik kimi qiymətləndirilə bilər.

–Nə cür qiymətləndirirsiniz, qiymətləndirin! - deyə şairə cavab verir.



***

Xurşid xanım Şərq təbabətini gözəl bilir, bir çox xəstəlikləri özü türkəçarə üsulu ilə müalicə edirmiş. Qudurmuş it tutanlara belə bir müalicəsi varmış: Parabizən adlı cücünü (bu ən çox xımmı otu üzərində gəzən, qırmızı və qara xallı kiçik cücüdür) kağıza və ya taxtaya sancıb qurudar, sonra həvəngdəstədə narın döydürərmiş. Xəstəyə dərmanın qədərini də özü təyin edərmiş. On gün xəstə onun yanında qalarmış. Sonuncu gün Xurşid xanım xəstə ilə üzbəüz oturar və qəfildən ona sillə vurarmış. Xəstə diksinərsə, deməli, o, sağalıbdır, yox, diksinməzsə, müalicəni davam etdirərmiş.

***

Xurşid xanım evində xüsusi həkim saxlamazmış. Lakin bir nəfər şəhərin görkəmli həkimi daima onların evinə gedib-gələrmiş. Bir dəfə Xurşid xanım xəstələnəndə həkim deyir:

– Xan qızı, qanınız azalıb, gərək çaxır içəsiniz.

Xan qızı Nəcəfül-Əşrəfə, müctəhidin yanına xüsusi adam göndərir ki, onun məsləhətini öyrənsin. Müctəhid də məsləhət görür ki, əgər şə-

rabı kef üçün yox, müalicə üçün içirsə, bu, şəriətə zidd deyil, belə halda şərab dava-dərman hesab edilməlidir.

Bundan sonra o, şərab içir. Stəkanı dodaqlarına özü aparmaz, ev xidmətçilərindən biri çaxırı ona içirdərmiş. Sonra da ağzı təmiz olsun deyə, suya çəkərmiş və tez də namaza oturarmış ki, "işlədiyi günah" paka çıxsın.

***

1880-ci ilin bahar fəslində, Natəvan xanım pəncərə önündə əyləşib, şiddətlə yağan yağışa və gurultu ilə axan sellərə tamaşa edirmiş. Köçərilər mal-qara ilə arandan yaylağa köçürmüşlər. Na-təvan xanım öküzün belinə alaçıq keçəsi və çubuqlarla bərabər iki körpə uşağın da örkənlə sarındığını görür. Onlar bərk islanmış, ağlayırlarmış. Şairənin ürəyi tab gətirə bilmir. Tez adam göndərib uşaqları və valideynlərini gətirtdirir. Onlara olmazın yaxşılıq etdikdən sonra, uşağın birini onun yanında qoyub getmələrini xahiş edir:

–Uşağa öz balam kimi baxaca-ğam... İstədiyiniz vaxt gəlib uşağı görə bilərsiniz...

Razılaşırlar, uşaq xan qızının evində xoşbəxt, qayğısız böyüyür. İllər keçir. Seyid Həsən



adlı bu oğlanı çoxları Natəvanın oğlulluğu yox, doğma oğlu hesab edirmişlər.

***

Deyirlər qızıl gülün lap təzəcə çıxdığı vaxt bir nəfər fəqir Natəvana bir dəstə qızılgül gətirir. Xan qızı ona təşəkkür etdikdən sonra yüz manat da bağışlayır. Kişi xanıma dua edir, xudahafiz-ləşib getdikdən sonra, ev darğası Natəvana deyir:

– Xanım, icazə versəniz, sizə bir söz demək istəyirəm.

– Eşidirəm.

– Xanım, o kişi sizə bir dəstə qızılgül gətirdi, onu qiymətə vursaq, lap yuxarısı iki şahıdır. Bir dəstə gülə yüz manat verməniz, məni həqiqətdə çox təəccübləndirdi. Səxavətin də bir sərhəddi var.

– Bizim yerlərdə gülü pulla ölçməzlər, bunu yaxşı bilirsən. O kişi ehtiyac içində boğulur. Gülü əldə bəhanə edərək mənim yanıma gəlmişdir. Onu heç cürə əliboş yola salmaq olmazdı. Hər kasıbı sevindirəndə aldığım həzzin dərəcəsi ölçüyə gəlməz. Bunu yadında saxla.

***

1883-cü ildə Natəvan oğlu ilə faytonda, yanın-da da atlılar, Bərdədən Ağdama gəlirlərmiş. Yol-da, Narlı dərə deyilən yerdə, bir qarı onların qa-bağını kəsir və açdığı süfrəyə dəvət edir. Şairə qa-rının xahişini məmnuniyyətlə qəbul edir, bir-iki stəkan çay içib, təzə yuxa ilə pendir yedikdən sonra, təşəkkür bildirib yola düşürlər. Atlılardan biri qarıya deyir:

– Qarı, xan qızı oturan döşəyin altına bax, Allah qismətini yetirdi.

Demə Xurşid xanım kasıb, kimsəsiz qarıya yüz manat bəxşeyiş veribmiş.





## MİR MÖHSÜN NƏVVAB
## 1831-1918

Nəvvab gənc yaşlarında ciyər xəstəliyinə tutulmuş, lakin öz müalicəsi sayəsində yüz yaşa yaxın bir ömür sürmüşdür. Müalicəsi isə çox sadə imiş, özünə möhkəm rejim yaratmış və il boyu üzüm yemişdir. Nəvvab ilin bütün fəsillərində otağın döşəməsində üzümü təzə halda saxlamağı bacarırmış.

***

Rəvayətə görə, Nəvvab oğurluğu tap-maqda mahir imiş. Bir gün onu sınamaq üçün bir torba qızılı gətirib olduğu evin damında giz-

lədirlər. Əhvalatı Nəvvaba bildirirlər. O, özü düzəltdiyi üstürlabı qoyub baxır. Oğurlanan şeyin onun başı üstündə olduğunu görür. Nəvvab öz gözlərinə inanmır, ikinci dəfə baxır, təəccüblənir, üçüncü dəfə baxır, dəhşətə gəlir. Nəvvab şəhərin ən hörmətli şəxslərindən birini çağırıb deyir:

– Dələduzlar qızılı gətirib taxtapuşda gizlədiblər. İndi mənə sataşırlar?!

– Narahat olmayın ağa, sizə sataşmaq yox, sizi sınamaq istəyiblər, - deyə hörmətli şəxs söyləyir.

***

Nəvvab musiqiyə qulaq asmağı, muğamatı dinləməyi lap çox sevərmiş. Hətta xanəndənin təsirli səsindən gözləri yaşararmış. Dövrünün bütün məşhur xanəndələri ilə dost imiş. Deyərmiş:

– İnsanın musiqidən aldığı həzzi başqa heç bir şeylə əvəz etmək olmaz. Gör, nə günə qalmışıq ki, bu avam mollalar bizi dünyanın ən gözəl hissindən məhrum etməyə çalışırlar. Musiqidən nəinki insanlar, hətta heyvanlar və quşlar da təsirat alırlar. Lazım olduqda, musiqi ilə müalicə də edirlər. Mənim xəstə könlümü ilhamlandıran, məni yaşadan, deyərdim ki, musiqidir.





## SEYİD ƏZİM ŞİRVANİ

**1835-1888**

Seyid Əzim müəllim idi. Uşaqları çox sevirdi. Bir gün uşaqlar məktəbə gəldikdə, əziz müəllimlərini görmürlər. Saat ona qədər gözləyirlər. Dözə bilməyib iki nəfəri şairin evinə göndərirlər. Onlar evə daxil olduqda, müəllimlərinin otaqda tək oturub, dirsəyini dizinə söykədiyini, əliylə başını tutub fikrə getdiyini görürlər. Salam verirlər. Şair başını yuxarı qaldırdıqda, uşaqlar onun ağladığını görüb təlaşa düşürlər.

– Gediniz, mən indi gəlirəm, - deyə Seyid onları yola salır. Sonra məktəbə gedir. Şagirdlər müəllimin ağlamasının səbəbini bilmək istəyirlər.

O, demək istəmir. Hamı təkid etdikdən sonra şair deyir:

– Oğlanlarım, budur, bir neçə ildir çalışıram, şeirlər, əsərlər yazıram. Təbii, bunları camaatımızın istifadəsi üçün yazmışam. İndi baxıb görürəm, bunları heç cürə təb və nəşr etməyə iqtidarım yoxdur. Vəfatımdan sonra da onların necə olacağını bilmirəm. Bəli, məni ağladan da budur. Hərçənd, indi mənim bu sözlərimi başa düşməzsiniz, lakin sonradan nə dediyimi bilərsiniz.

***

Seyid Əzimin qonşusu bir dəfə qonaqlıq verir, hamını-əsasən, varlıları çağırır, qapıbir qonşusu şairi yaddan çıxarır. Bu, ona pis təsir edir. Seyid Əzim bir neçə gündən sonra təsadüfən qonşusu ilə qarşılaşır və həmin qonaqlığa işarə edərək bədahətən deyir:

*Eşşək küçədən Mirzə Qədir yadına düşdü,*
*Mən şah küçədən düşmədim, eşşək köpəkoğlu!*

Seyid Əzim mövhumata, köhnə zeh-niyyətə qarşı qələm çalarkən, öz yeni fikirlərini həyata keçirərkən, kinayəli sözlər də eşidirdi. Özünün söylədiyi kimi, bəzən onun görərkən deyirlərmiş:

*Budur gəldi səfahətin kani,*
*Hacı Seyid Əzim Şirvani.*

Seyid Əzimin məzar daşında yazılan sözləri şairin gələcəyə olan inamını, əbədiliyini ifadə etməkdədir:

*Mövti-cismani ilə sanma mənim ölməyimi,*
*Seyyida, ölmərəm, aləmdə səsim var mənim.*



## HƏSƏN BƏY MƏLİKOV ZƏRDABİ
**1837-1907**

Çar jandarm idarəsi Zərdabi üzərində nəzarət təyin edir. Bir gün klubda, jandarm rəisi Həsən bəylə görüşür və bütün gecəni onunla bilyard oynayır. Ertəsi gün Həsən bəyi jandarm idarəsinə çağırırlar. Jandarm rəisi ondan sual edir:

–Dünən siz klubda kimlərlə görüşmüş, nə barədə danışıq aparmısınız? Bizə xəbər veriblər, heç nəyi gizlətməyin.

Həsən bəy təəccüblə:

–Cənab rəis,- deyir, - dünən kluba gələndən çıxıb gedənədək mən ancaq sizinlə bilyard oynamışam. Siz ki, bunu yaxşı bilirsiniz.



Rəis yuxudan ayılmış kimi Həsən bəyə diqqətlə baxır:

–Bəli, bəli, yadıma düşdü, siz mənim oyun yoldaşımsınız, cənab Məlikov. Amma gərək bağışlayasınız, vəzifəmdir, qanun belə tələb edir. Azadsınız, gedə bilərsiniz.

***

H.M.Zərdabi hər dəfə Bakı dumasına üzv seçilirmiş. Bakı dövlətlilərindən biri - Hacı Aslan növbəti seçkilərin birində küllü miqdarda pul xərcləyib çoxlu səs alır. Zərdabinin yerinə duma üzvlüyünə seçilir. Kəblə Mirzə adlı birisi də Hacı Aslanın toruna düşür. Onun Həsən bəylə də tanışlığı var imiş. Bir gün Həsən bəy Kəblə Mirzəni küçədə görüb onu dayandırır:

–Kəblə Mirzə, Hacı Aslan çox bilir, yoxsa mən?

–Əlbəttə, sən.

–Xalqımıza o çox xeyir verir, yoxsa mən?

–Sən.

–Bunlar bir yana, o təmiz insandır, yoxsa mən?

–Sən.

–O halda məni qaralayıb onu nə üçün seçdiniz?

Kəblə Mirzə səsini çıxartmadıqda, Həsən bəy gülə-gülə əlavə edir:

–Siz məni seçsəniz də birdir, seçməsəniz də. Mən bundan bir şey itirmirəm, amma xalq itirir. Mənim ürəyimi ağrıdan ancaq budur.

***

Jandarm idarəsinə Zərdabi haqqında yazılan böhtançı kağızlar gündən-günə artırdı. Jandarm idarəsi onun evinə xüsusi xəfiyyə təyin etmişdi. Güdükçü gənc və təcrübəsiz idi. Hənifə xanım eyni adamın bir neçə gündən bəri onların pəncərəsinə göz zillədiyini ərinə xəbər verdikdə, Həsən bəy xanmını sakit etmək üçün zarafata keçir:

–Mətləb aydındır, nədən qorxursan, xəyalpərəst cavanlardandır. Bir neçə gün pəncərənin qabağında gəzib, səni görməyəndən sonra rədd olub gedəcəkdir.

Hənifə xanım gülümsəmiş və:

–Xeyir əzizim, - demiş, -mənə elə gəlir ki, o, mənim yox, sənin intizarını çəkir.



***

Həsən bəy dumada daima yoxsulları müdafiə edirdi. O, fəhlə və kəndlilərin ağır vergilərdən xilasına çalışırdı. Zərdabi dumadakı çıxışlarının birində mədən sahiblərinə vergi qoymağın vacib olduğunu dəllillərlə sübut edir. Onun cəsarəti neft sahiblərinin bərk narazılığına səbəb olur. Onlardan biri təhqirə əl atır:

–Lütün biri lüt, öz cibində bir qəpiyi yoxdur, bizim cibimizə girmək istəyir. Yaxşılıq edib bunu qlasnı seçmişik, indi biziın əleyhimizə danışır!

Sərmayədar Səfərəliyev isə üzünü Həsən bəyə tutub qəzəblə bağırır:

–Sənin dilini kəsib, başını saxlamaq lazımdır!

***

Deyilənlərə görə, Həsən bəy mənasız, mətləbsiz mahnıları oxuyanları ələ salmaq üçün özü də aşağıdakı sözləri avazla oxuyarmış:

*Ağacda oturub sərçə,*
*Niyə uzunsan, ey küçə.*
*Sən hardasan ey beçə,*
*Ey yar, ey yar, ey qara göz.*

***

Zərdabini Peterburqa, "Zemledelçeskaya qazeta"da işləməyə dəvət etdikdə, o, vətənindən ayrılmaq istəməyib demişdir:

–Məqalələrim yaxşıdır, çünki bunları azad adam yazır. Dövlət qulluğuna getsəm, dilim bağlanar.

***

Zərdabi kənddə yaşadığı vaxt "Tərcüman" qəzetini müntəzəm alırdı. O, bu qəzeti sevir, "Əkinçi"nin yetişdirməsi hesab edirdi. Həsən bəy bir dəfə "Tərcüman" qəzetini mollaya vermiş və söyləmişdi:

–Al, bu qəzeti, minbbərdə oxu, burada yazılanlar sənin nağıllarından daha faydalıdır.



***

Həsən bəy yaxşı vəkil olduğundan, kəndlilər çox vaxt yardım üçün ona müraciət edirmişlər. Kəndlilər, yazdığı ərizə üçün zəhmət haqqı olaraq Həsən bəyə üç-dörd manat vermək istədikdə, o, pulu almaz və öz həmvətənlərinə deyərmiş:

- Bax, "Tərcüman" qəzeti üç manat tutur, sən pulu qəzetə ver, ya özün oxu, ya da ver mollanız məsciddə oxusun.

Kəndlilər Həsən bəyin məsləhətinə qulaq asıb "Tərcüman"a abunə yazılarlarmış.

***

Həsən bəy Məlikov "Kaspi" qəzeti redaksiyasında işləyəndə, Üzeyir Hacıbəylinin musiqiyə olan böyük həvəsini görüb demişdir:

–Oğlum, sən elə bir teatr yaz ki, iştirak edənlər oxusunlar.

Birinci Azərbaycan operasına qulaq asmağı çox bərk arzulayan Zərdabi, əfsus ki, onu görmədi. Onun ölümündən azca sonra "Leyli və Məcnun" operası tamaşaya qoyuldu.



## NƏCƏF BƏY VƏZİROV
**1856-1926**

Cahangir Zeynalov yaradıcı aktyor idi. O, "Yağışdan çıxdıq, yağmura düşdük" komediyasında Hacı Qənbər surətini yaratmaq üçün, o tipli tacirləri xüsusi öyrənmişdi. O, bəzən səhnədə tipin səviyyəsinə münasib sözlər tapıb işlədirdi. Bir dəfə C.Zeynalov Hacı Qənbər rolunda oynayarkən, arvadı ilə sözləşdiyi səhnədə gözlənilmədən dedi:

– Ay arvad, məndən nə istəyirsən? İyirmi yaşayıram, yaşayırsan, otuz yaşayıram, yaşayırsan, qırx yaşayıram, yaşayırsan. Mənimlə qəbrə



getmək fikrindəsən? Mən səninlə qəbrə getmək istəmirəm. Heç olmasa, qoy orda asudə yaşayım.

Təsadüfən teatrda olan N.Vəzirov fasilə zamanı səhnə arxasına gəlib C.Zeynalova təşəkkür edir:

– O sözləri çox yerində dedin. Əsəri yazarkən, o sözlər mənim ağlıma gəlsəydi, mütləq yazardım.

***

N.Vəzirov keçən əsrin axırlarında Bakıya ikinci dəfə gələndə, bir müddət neft çıxan yerləri alıb-satan və əlində geniş imtiyazlar olan mühəndis Fərrux bəy Vəzirovun yanında çalışmış, onun aldadıcı və hiyləgər üsullarının şahidi olduqdan sonra "ağası" ilə arası bərk dəymiş, işdən çıxarılmışdır. Fərrux bəylə Nəcəf bəy arasında belə bir söhbət də olmuşdu:

– Sən, camaatı aldatmaqda bizi təqsirləndirməklə nə qazanırsan? Kasıb adamsan, biz deyənə bax, var-dövlət sahibi ol, xeyir götür!

Nəcəf bəy ona belə cavab vermişdi ki, - mən xeyrimi götürmüşəm, qazandığım çox şey olub, elə sizin özünüz mənim qazancımsınız!

Dramaturq düz deyirdi, onun "qazancı" böyük idi. "Pəhlivani-zəmanə" pyesinin baş qəh-

rəmanı Aslan bəyin prototipi Fərrux bəyin özüydü.

***

Nəcəf bəy ömrü boyu öz ədəbi-bədii əsərlərinə bir qəpik də qonorar almamış, daima onu xeyriyyə cəmiyyətlərinə bağışlamışdı. 1913-cü ildə "Kaspi" qəzetinin müxbiri ondan sual etdikdə ki, siz nə üçün ədəbi muzddan imtina edirsiniz, Vəzirov belə cavab vermişdi:

– Bu, mənim prinsipimdir. Mən hələ vicdanımı itirməmişəm ki, xalqımın maariflənməsinə kömək edən yazılarımdan qazanc götürəm.

***

Nəcəf bəy Vəzirov, yeri düşdükdə, istedadlı bir aktyor kimi səhnədə də çıxış edirdi. Onun sevdiyi rollardan biri də "Müsibəti-Fəxrəddin" faciəsindəki Hürü nənə idi. 1916-cı ildə pyes tamaşaya qoyulanda Hürü nənəni oynayacaq aktrisa çatışmır. Məşqi dayandırmaq istədikdə, Vəzirov razı olmur. Truppa rəhbəri Mirzağa Əliyev Vəzirova yaxınlaşıb utana-utana deyir:

– Nəcəf əmi, Azərbaycan səhnəsində aktrisa olmadığını bildiyiniz halda bəs nə səbəbə əsərlərinizdə bu qədər qadın rolu var?



– Oğlum, sözlərin tamamilə doğrudur, aktrisamız yoxdur. Ancaq biz Azərbaycan dramaturqları indiki vaxtı və zamanı nəzərdə tutub yazmırıq. Bir vaxt olacaq ki, doğma səhnəmizdə oğlandan çox qızlarımız olacaqdır.

– Yaxşı, bəs indi biz nə edək? Hürü nənə rolunda artistimiz çatmır axı?

Nəcəf bəy gülə-gülə:

–Tapılar. Siz işinizdə olun. Hürü nənə rolunu oynayanım var, təvəqqe edərəm, gəlib oynayar. Hələlik salamat qalın! – deyib gedir.

Tamaşa axşamı, pərdənin açılmasına yarım saat qalmış Vəzirov gəlir. M.Əliyev tez ona yanaşır:

- Nəcəf əmi, bəs Hürü nənəni oynayan nə oldu? Niyə gəlmədi?

Nəcəf bəy tez də cavab verir:

– Bu saat hamısı düzələr. Tez paltarları bura verin.

Nəcəf bəy soyunur, Hürü nənənin paltarlarını geyinib, saqqalı və bığı görünməsin deyə burnunun üstündən yaşmaq bağlayır. Vaxti-müəyyəndə səhnəyə daxil olub, tamaşanın axırına qədər öz rolunu gözəl oynayır. Tamaşa qurtardıqdan sonra aktyorlarla vidalaşıb gedəndə, Vəzirov gülə-gülə deyir:

– Adətdir, qız qarıyıb qocalanda, güc dayısına düşər, - deyərlər.

***

1923-cü ildə Azərbaycan milli teatrının yaranmasının əlli illik yubiley gecəsində, onun yaradıcılarından biri kimi Vəzirov parlaq nitq söyləmiş, nitqinin sonunda gözləri yaşara-yaşara demişdi:

– Azərbaycan teatrının başlanğıcı mənə səhrada əkilmiş tənha bir ağacı xatırladır. Bu ağacı əkmiş olan adam, qoca yaşlarında bir daha buraya qayıdır və qarşısında gözəl və qəşəng bir bağ görür. Bu bağda bir çox gözəl bağbanlar öz ağaclarına səylə qulluq edirlər. Yaşasın sevgili vətənim Azərbaycan!..

***

Vəzirovun kefi kök olanda oxuduğu mahnılardan biri "Ev tərbiyəsinin bir şəkli" pyesində nökər Əsgərin dilində səslənən mahnı idi:

*Mirzə tərəqqa budur ha gəlir,*
*Əldə fələqqa budur ha gəlir.*
*Döyməyə sizi, ya incitməyə*
*Haqqında-haqqında budur ha gəlir.*



İkincisi isə, "Vay şələküm məəlləküm" məzhəkəsində Kefcil Almasın oxuduğu:

*Fayton gəlir qoşa-qoşa.*
*Biri Saşa, biri Maşa.*

– mahnısı imiş ki, o vaxt xalq arasında da geniş yayılmışdır.



## MİRZƏ ƏLƏKBƏR SABİR
**1862-1911**

Sabir uşaq ikən, güclə ona oruc tutdururdular. O, yemək istəyəndə anası onu qorxudurdu:

– Bax, orucunu pozsan, günah olar. Atan, anan ölər. Sən bizim ölməyimizi istəyirsən?

Kiçik Ələkbər isə anasının sualına sualla cavab verirdi:

– Ana, olmazmı, uşaqlar orucu günortaya qədər tutsunlar?

– Olmaz oğlum, olmaz!



Bərk acmış uşaq ocaq üstdəki qazana baxa-baxa anasına şeir deyir:

*Tutdum orucu irəmazanda,*
*Qaldı iki gözlərim qazanda,*
*Mollam da döyür yazı yazanda.*

***

Bir gün Hacı Seyid Əzimin yaxın dostlarından biri səfərdən gəlmişdi. Seyid Əzim onun görüşünə gedəndə yolda Sabirə rast gəlir, onu da özü ilə aparır. Ev sahibi onları hörmətlə qəbul edib, öz çamadanından üç lumu çıxarır. İkisini Seyid Əzimə, birini də Sabirə bağışlayır və deyir:

– Sənin də şair olmağın barədə eşitməmişəm. İndi səndən bu məclisimizə mü-nasib bir şeir istəyirəm.

Seyid Əzim kimi ustadın hüzurunda şeir söyləmək köhnə adətə görə ədəbsizlik idi. Bunu Seyid Əzim də yaxşı bilirdi. Onun üçün də o, Sabiri cəsarətləndirir:

– Mən sənə icazə verirəm.

Sabir ev sahibinin bağışladığı lumulara işarə ilə bədahətən söyləyir:

*Xumsi-şərabi Seyyidə saqi verib dedi:*
*Sabir fəqirdir, yetər ancaq zəkat ona.*

***

Sabir öz yaradıcılığını qiymətləndirərək, vəzifəsinin nədən ibarət olduğunu çox aydın söyləmişdir:

*Şairəm, çünki vəzifəm budur əşar yazım,*
*Gördüyüm nikü bədi eyləyib izhar yazım.*
*Günü parlaq, gündüzü ağ, gecəni tar yazım,*
*Pisi pis, əyrini əyri, düzü həmvar yazım.*
*Niyə bəs böylə bərəldirsən, a qare gözünü?*
*Yoxsa, bu ayinədə əyri görürsən özünü?*

***

Jurnalist Mehdi Hacınski 1905-ci ildə "Həyat" qəzetində işlədiyi vaxt, bir dəfə Sabir redaksiyayagəlir, "Avara" təxəllüsü ilə yazanı soruşur. "Avara"nın özü olduğunu demək istəməyən Hacınski şairə cavab verir:

– Avara bir saatdan sonra gələcək, əgər tələsirsiniz, nə qulluğunuz var isə, buyurunuz, deyərəm.



Sabir:

– Mən istəyirdim, görüm bu necə adamdır, doğrudan da avaradır və yainki kefinə çatıb özünə təxəllüs qoyubdur.

– Bizim kimi bir adamdır, ancaq avara deyil, əhliruh bir adamdır.

Sabir:

– Bəs onda sən Allah, ona de ki, yazıqdır, adını dəyişdirsin. Bizim Şirvanda biri vardı, özünə "Məhrum" təxəllüsü seçmişdi. Biçarə, sonra övlad tərəfindən sonra da məhrum oldu. İndi qorxuram ki, bizim "Avara"mız qiyamətəcən dünyada avara qala.

M. Hacınıski gülüb, "Avara"nın özü olduğunu nişan verdikdə Sabir də gülümsəyir:

– Demək sözü üzə demişəm, dalda danışmamışam.

***

Bir dəfə Bakının mömin müsəlmanları məşhur fırıldaqçı müctəhid Mirzə Ələkbəri moizə oxumaq üçün Ərdəbildən Hacı Qasım bəy məscidinə dəvət edirlər. Müctəhid gəmidən düşüb körpüyə gəlir, ona faytonda oturmağı xahiş edənlərə qəzəblənir:

– Fayton əməli-şeytandır, mənə çullu bir uzunqulaq gətirin. Mən məscidə uzunqulağa minib gedəcəyəm.

Bu əhvalatı Sabirə danışdıqda, o gülümsəyir və sakitcə söyləyir:

– Niyə təəccüb edirsiniz? Uzunqulaq uzunqulağı sevər.

***

Sabir xəstə ikən pəhriz saxlayırdı. Necə olmuşsa, bir gün pəhrizi pozub qarpız yemiş, qarnının ağrısı şiddətlənmişdi. Şairi məzəmmət edən müəllim yoldaşlarına o, sakitcə demişdir:

*Yemişü yelpənəyü düz yemərəm,*
*Tövbə olsun, daha qarpız yemərəm.*

Müəllim yoldaşları güldükdə, o, təzədən iki misra da söyləmişdir:

*Qırxıq başın şəbahəti var çünki qarpıza,*
*Oldur ki, həp içi dolu fisqu-fəsaddır.*

***

Sabir Tiflisdə xəstə yatarkən həkimlər ona qarnını araqla sürtməyi tapşırmışdılar. Bir dəfə şəfqət bacısı onun qarnına araq sürtərkən, şair özünəməxsus zarafatyana bir tərzdə demişdir:



– Xalq arağı qarnının içinə töküb keyf çəkir, mən bədbəxt isə qarnımın üstünə sürtüb əziyyət çəkirəm.

***

Sabir, sağlığında öz əsərlərini divan şəklində, görməyi necə də arzulayırdı. O, öz müəllimi Seyid Əzimi misal gətirirdi:

– Mən bir dəfə Hacı Seyid Əzimin görüşünə getdikdə gördüm ki, bütün yazdığı şeirlərini qarşısına töküb onlarla məşğul idi. Hər zaman zarafat edib əylənən ağa, o gün çox bikef və kədərli idi. Səbəbini soruşdum. "Bir şair üçün", - dedi, - "bundan böyük bədbəxtlik olmaz ki, gözünü həyata yumarkən bütün ömrünün məhsulu olan əsərlərinin müqəddəratını bilməsin. Məni kim xatircəm edər ki, sabah öldükdən sonra bu əsərlərim təb və nəşr edilib adımı tarixdə yaşadacaqdır. Mən bunların künc-bucaqlarda itib tələf olmayacağından arxayın deyiləm".

Sabir müəlliminin sözlərini xatırladıqdan sonra, özünə gəlib dedi:

– Mən də indi eyni kədərlə kədərlənirəm. Tale məni müəllimimlə birləşdirib. Görünür, mən

də Hacı Seyid Əzim kimi kitabımı görmədən, həsrət ilə öləcəyəm.

Şair də müəllimi kimi öz kitabını görmədən, həsrətlə gözlərini əbədi yummuşdur.

***

Cümə günləri bazar-dükan bağlı olarmış. Bəzi dükançılar xəlvəti, qapının arasından alver edərlərmiş. Sabir bir cümə günü həmin hadisənin şahidi olur, sonra aşağıdakı taziyanəni yazır:

*Cümələrdə dükan açmaz bakılı,*
*İstəsən gəz Bakının hər yerini.*
*Ancaq, ancaq ... arasından qapının*
*Şey satıb razı edər müştərini.*

***

"Molla Nəsrəddin" redaksiyasındakı samovar həm kiçik, həm də axdığından, suyu tez qurtarır və onu təzədən qaynatmaq lazım gəlirmiş. Sabir isə çay içməyi çox xoşlayırdı. Hər dəfə bir stəkandan sonra ikincisini xeyli gözləməli olurdu. Sabir məzə ilə öz narazılığını belə bildiribdir:

*Molla, samavarından dərda, həzar dərda,*
*Bir istəkanı indi, bir istəkanı fərda.*



***

"Məlumat" qəzetinin naşiri Hacı İbrahim Qasımov Sabirin Bakıya, müalicəyə gəldiyini və "İslamiyyə" mehmanxanasına düşdüyünü bilib, onun görüşünə gedir. Xeyli söhbətdən sonra naşir şairə müraciətlə sözə başlayır:

– Mirzə, müsaidənizlə sizə bir təklifim var.

– Söylə.

– Sizin şübhəsiz maddi vəziyyətiniz ağırdır. Əgər icazə versəydiniz, nəşr etməkdə olduğum "Məlumat" qəzetində sizin nəfinizə bir ianə siyahisi açardım.

Sabir naşirin sözlərinə gülümsəyir. Bu, olduqca dərin və ağır gülüş idi. Şair dərin bir qüssə içində söyləyir:

– Hacı, siyahi açmağa qətiyyən müsaidə etmərəm. Onsuz da mən son günlərimi keçirirəm. Yalnız qəzetdə yazarsan: Sabir deyirdi ki, mən vücudumda olan ətimi xalqımın yolunda çürütdüm. Əgər ömür vəfa etsəydi, sümüklərimi də xalqımın yolunda qoyardım...

***

Şairin müəllim dostarı onun şeirlərini kitab halında çap etməyi qərara alırlar. Onlar hər ay öz əmək haqqlarının bir faizini bu xeyirli işə ayırmağı boyunlarına götürürlər. Sabir, öz müəllim yoldaşlarının xeyirxah əməllərini eşitdikdə mütəəssir olur və Sədinin bir beytini çox səlis şəkildə bədahətən Azərbaycan türkcəsində söyləyir:

*Kərimlərdə kərəm vardır, dirəm yox,*
*Ləimlərdə dirəm vardır, kərəm yox!*

***

Sabir Tiflisdə özünü həkimlərə göstərərkən, onlar şairin qara ciyər xəstəliyini dürüst təyin etməkdən ötrü bu qərara gəlirlər ki, cərrahiyyə əməliyyatı aparsınlar. Sabir həkimlərə etiraz edib, zarafatyana onlara deyir:

– Mənim qarnım sandıq deyil ki, açıb içinə baxıb, sonra örtəsiniz.



***

Sabir Tiflisdə "Molla Nəsrəddin" redaksiyasında Məmmədəli Sidqi ilə bir otaqda oturarmuş. Onlar bir yerdə yeyib-içirmişlər. Gecələrin birində Sidqi gec gəlmiş, Sabir isə yorğun olduğu üçün tez yatmaq istəmişdi. O, yatağa girməzdən əvvəl Sidqinin xörəyini hazırlayıb mizin üstünə qoymuş, üstəlik də böyük bir vərəqdə iri hərflərlə yazmışdır:

*Bu kabab, bu lavaş,*
*Ye yavaş, yat yavaş.*

***

Tiflisdə Cəlil Məmmədquluzadənin himayəsi ilə həkimlərin konsiliumu olur. Onlar Sabirdə qara ciyər vərəmi olduğunu bildirirlər. Sabir öz dərdini, Şamaxıda nigaran qalmış dostu Abbas Səhhətə yazdığı məktubda bu cür bildirir:

*Arizi qəmlər əlindən ürəyim şişmiş idi,*
*Zənn edərdim edəcəkdir ona çarə ciyərim.*
*Bəxti-mənhüsimə bax, mən bu təmənnada ikən,*
*Başladı şişməyə indi üzü qarə ciyərim.*

***

Sabir Şamaxıdan Tiflisə gələrkən, Kürdəmirdə vaqona əyləşir. Sərnişinlərdən iricüssəli bir kişi nə üçünsə ağlayırmış. Kişinin ağlamağı şairə çox qəribə görünür və o, məşhur:

*Ağladıqca kişi biqeyrət olur,*
*Necə ki, ağladı İran oldu,* –
şeirini yazır.

***

1911-ci ilin yanvarında Sabir Bakıda idi. Günü-gündən bədənində artan ağrılar ona yaman əziyyət verirdi. Şair tez-tez həkimlərə müraciət edirdi. Həkimlər də öz acizliklərini biruzə vermir, gündə bir bəhanə ilə onu aldadırdılar. Sabir həkimlərin əlindən lap cana gəlmişdi və onlara inanmırdı. Ona elə gəlirdi ki, həkimlərin elmləri bisəmər və faydasızdır. Bir gün o, köhnə dostu Ə.Haqverdiyevə yeni yazdığı bir şeiri təqdim etdi və zarafatla dedi:

– Əbdürrəhim bəy, xəbərin varmı, Əzrail təbiblərin əlindən istefaya çıxıbdır.

Haqverdiyev dostunun şeirini oxudu və bəyəndi:

– Çox doğru söyləmisiniz, Mirzə, molla əmiyə göndərək.



Sabirin "Əzrailin istefası" adlanan həmin şeiri azca sonra "Molla Nəsrəddin" məcmuəsində (7 fevral 1911, № 6) çap olunmuşdur.

***

Şair Şamaxıda ağır xəstə yatarkən, köhnə kitabfüruşlardan biri eşidir ki, Sabirin vəziyyəti ağırdır, yaxşı kitablarını satmaq istəyir. O, özünü tez Sabirgilə yetirir, kitablarını almaq məqsədilə onlara baxır, vaxtilə Seyid Əzimin şairə bağışladığı Nizaminin "Xəmsə"sini almaq istədiyini bildirir. Xəstə şair "Xəmsə"ni kitabfüruşdan ehmalca alıb, yastığının altına qoyur:

– Sabir çörəksiz yaşayar, Nizamisiz yaşaya bilməz, – deyir.

***

Müasirlərinin yazdığına və söylədiyinə görə, Sabir ömrünün son aylarında aşağıdakı şeir parçasını tez-tez söyləyərmiş:

*Bir səfa bulmadıq bu aləmdə,*
*Başqa bir aləmə varıb gedəlim.*
*Bir ovuc xaki xakə tərk edəlim,*
*Mədfəni-şumi-ali-adəmdə.*

Demokratik ruhlu qəzetçi H.İ. Qasımov eşidir ki, Sabir müalicə üçün ikinci dəfə Bakıya gəlmişdir. Tez onun yanına gedir, zəifləyib əldən düşmüş şairi əvvəl tanımır. Sabir öz həmsöhbətini son dərəcə mütəəssir gördükdə, yavaş səslə S.Ə. Şirvanidən bir beyt oxuyur:

*Dünyaya gələn getmək üçündür, bu nə qəmdir?*
*Bir fikr elə, bu xilqəti-adəm nə üçündür?*

Sonra şair əlavə edir:

- Əfəndim, pərişan olmayınız, əcəlimiz yetişmiş isə, ömrümüz bitmiş isə ifadəsi namümkün, bitməmiş isə, hər xəstə olan ölməz. Bunun üçün də, qəm etməli deyiləm. Ətim ilə qanım getmiş isə də, bəhəmdülillah, ruhum ilə sümüklərim qalıb, buraya gəlmişəm:

*Raziyəm ölməyə mən, leyk qaçır məndən əcəl,*
*Gör nə bədbəxtəm, əcəldən də gərək naz çəkəm.*

***

Sabir əbədi yaşayacağına inanırdı:

*Nə qəm, uğratsa da bir gün məni ifnayə zaman,*
*Mən gedərsəmsə, məramım yenə dünyadə durar.*





## CƏLİL MƏMMƏDQULUZADƏ
**1866-1932**

Mirzə Cəlil çoxdan idi ki, bir satirik jurnal çıxarmaq istəyirdi. Jurnalın adının nə olacağı haqqında çox fikirləşirmiş. 1905-ci ilin avqust ayında Tiflisdə, küçə ilə gedərkən birdən-birə yavaşcadan sevinclə səslənir:

- Tapdım... Tapdım...Yadıma nə mənalı ad düşüb: "Molla Nəsrəddin". Jurnal üçün bundan yaxşı ad olmaz.

Beləliklə sonrakı ildən məşhur satirik jurnal "Molla Nəsrəddin" adı ilə çıxır.

***

"Qurbanəli bəy" 1907-ci ildə kitabça şəklində çap olunduqdan sonra, Qarabağ vilayətində hekayəni oxuyan cavan ziyalılardan bir dəstə Qurbanəli bəy tipli, tanış bir bəylə əylənmək, zarafat etmək fikrinə düşürlər. Bəyin yanına gəlib kitabçanı göstərir və deyirlər ki, Molla Nəsrəddin sənin haqqında hekayə yazıb, amma sənin adını dəyişib. Bəy hekayəni oxuya-oxuya möhkəmcə gülür. Özü də təsdiq edir ki, doğrunda da hekayə onun haqqında yazılıb, özü də yaxşı yazılıb. Amma hekayənin sonuna çatanda bəy bərk dilxor olur:

–Bura kimi yazdıqlarına varam. Balaca uydurmalar da edib, eybi yoxdur. Amma axırda başımı yerə soxub, buna yoxam.

Cavanlar gülüşürlər. Bəy pərt halda onlara deyir:

–Siz Allah, özünüz deyin, heç insafdandır ki, mən boyda kişi bir qonaqlıqdan ötrü qaçıb at axurunda gizlənim? Bax, bu yekə qondarmadır. Əzizlərim, siz yaxşı bilirsiniz, mən orada yazılan qonaqlığı da vermişəm, pristavdı, nə zəhrimardı, ona at da bağışlamışam. Heyvan balası heyvan, verdiyim atı indi də minir. İndi burada yazılıb ki, mən qonaqlıq verməmişəm, qaçıb at axurunda gizlənmişəm. At axuruna girmək kişilikdən deyil, elə olsaydı, gərək onda ləçək bağlayaydıq, adam içinə çıxmayaydıq.



Cavanlardan biri dillənir:

–Bəy, olan olub, keçən keçib. Yolun Tiflisə düşsə, kişinin öz yanına get, cürətin çatsa, burada danışdıqlarını onun özünə de.

Bəy özündən çıxır:

–Necə bəyəm? Cürətin çatsa nədir? Ədə, qırışmal, sən kiminlə danışırsan! Lap günü sabah gedərəm.

Deyirlər, səhəri gün həmin bəy Tiflisə yola düşür. Orada Cəlil Məmmədquluzadəni tapıb, əhvalatı danışır, axırda deyir:

–Molla dayı, vAllah-billah, nəyə inanırsan and içim, mən axura girməmişəm. Sizə yalan deyiblər. Kişi də bir atdan ötrü axura girərmi? Onda adımızı bəy yox, gədə qoymalıyıq.

Cəlil Məmmədquluzadə cavan ziyalıların bəylə zarafat etdiklərini başa düşür, gülümsəyir, bəyi razı salır:

–Eybi yoxdur, bəydadaş, gələn dəfə yazanda, axura girmək əhvalatını pozaram. Onda məndən inciməzsən ki?

–Yox VAllah. Bir yaxşı at da sənə bəxşeyiş gətirərəm,- deyə bəy cavab verir.

***

1907-ci ildə Həmidə xanım Cəlilə təklif edir ki, onlara qonaq olsun və istirahət üçün Kəhrizli kəndinə gəlsin. Cəlil razı olur. Onlar hələ rəsmi şəkildə evlənmədikləri üçün, Həmidə xanım məhz yazıçının öz xahişi ilə, onun kim və nəçi olduğunu kimsəyə demirmiş.

–Qızımın Azərbaycan dili müəllimidir. Adı Məmməd Həsənovdur, - söyləyirmiş.

Bir gün Ağdamdan şair Mustafa bəy Behbudov Həmidə xanımgilə qonaq gəlir. O, xoşsifət, söhbətçil imiş. Onun Cəlil ilə də söhbəti tutur, birbirlərinə xoş gəlirlər. Mustafa bəy Cəlilə belə bir sual verir:

–Mirzə Məmməd, siz "Molla Nəsrəddin" məcmuəsinin redaktoru ilə tanışsınız?

Cəlil cavab verir:

–Bəli, tanışam.

Mustafa bəy:



–O məcmuədə iştirakınız varmı, ona yazırsınızmı?

–Bəli, hərdən bir yazıram.

Mustafa bəy:

–Bilirsiniz, zalım oğlu Molla Nəsrəddin nə gözəl yazır... Ancaq son zamanlar bir az sarsaqlayıbdır, dinə toxunur.

Cəlil Məmmədquluzadə bu sözləri eşidib özünü gülməkdən zorla saxlayır.

***

Cəlil Məmmədquluzadəni "Molla Nəsrəddin"in işləri üstündə çox incidirdilər. O, dilxor olur, fikir edir, hətta gecələr yuxuda da sayıqlayırdı. Bir gecə Cəlil yuxuda ikən Həmidə xanım onun dərindən sızıltısına ayılır. Ona elə gəlir ki, Cəlil boğulur. Kişini tez yuxudan ayıldır:

–Sənə nə olub?

Cəlil özünə gəlib pis yuxu gördüyünü söyləyir:

–Yuxuda gördüm ki, məni mühakimə edirlər. Məni ittiham edib diri-diri zirzəmiyə saldılar, qapı-pəncərələri kərpiclə hördülər. Balaca bir baca qalmışdı, onu da hörməyə başladılar. Bunu gördükdə haray çəkdim, heç olmazsa bircə bacanı hörməmələrini, məni havadan məhrum etməmələrini xahiş etməyə, yalvarmağa baş-

ladım... Çox sağ ol ki, bu yerdə məni yuxudan ayıltdın, yoxsa məhv olacaqdım...

***

Bir gün özünü yazıçı hesab edən, əli təzəcə qələm tutan cavanlardan biri Cəlil Məmmədquluzadəyə yan alır:

–Molla əmi, mən istəyirəm uşaqlar üçün bir kitab çap edəm, - deyə təşəxxüslə bildirir. Cavanın lovğa-lovğa danışması Cəlilin xoşuna gəlmir:

–Bala, mən başa düşə bilmirəm, bəyəm uşaqlara kitabı uşaqlar yazır?!.

Cəlilin cavabındakı incə kinayəni gənc sezə bilmədikdə, yazıçı dediklərini bir də təkrar edir.

***

Cavan ailə sahiblərindən biri Mirzə Cəlilə şikayət edir:

–Bağışlayın, molla əmi, sizə məsləhətə gəlmişəm, arvadı heç cür ipə-sapa gətirə bilmirəm. Qorxuram, düzəlməsin.

Cəlil onun sözünü yarımçıq kəsir:



–Qorxma, düzələcək. Çətini qocalana qədərdir. O da olmasa, çətini ölənə qədərdir.

***

Cəlil Məmmədquluzadə bir gün Tiflisdə yolla gedərkən, bir nəfər cavan oğlan fürsət tapıb onun cibinə girir və əlyazmalarını çıxarır. Bu hadisəni, demə, polis nəfəri görürmüş. O, gənci yaxalayır. Cəlilin cavana yazığı gəlir, yaxınlaşıb, polisin yanında ərklə ona deyir:

–Mən sənə deməmişəm tələsmə, jurnalda çıxar, sonra oxuyarsan! –deyə, kağızları cavan oğlandan alır. Polis gəncin "Molla Nəsrəddin"in redaktorunu tanıdığını yəqin edib onu buraxır və yazıçıdan da üzr istəyir.

***

"Molla Nəsrəddin" idarəsində qəribəliklər də yox deyildi. Məsələn, qapının zəngi tez-tez xarab olardı, samovar axardı, bəzən odun çatışmazdı və s.

C. Məmmədquluzadəyə deyəndə ki, filan şeyin təmirə ehtiyacı var, sözü bu olardı:

–Belə də ötüşərik. Molla Nəsrəddin kimi olmaq lazımdır. Əgər bizim hər şeyimiz yerli-yerində olsa, onda Molla Nəsrəddinə bənzəmərik.

***

Həmidə xanımın Kəhrizlidə iri təsərrüfatı vardı. Buraya hər il Arazın o tayından 25-30 fəhlə gəlib, müqavilə ilə işləyirdilər. Fəhlələr adətlərinə görə, hörmət əlaməti olaraq, eyni adama gündə bir neçə dəfə salam verirdilər. Mirzə Cəlil isə daima fikirli gəzib-dolandığı üçün fəhlələrin dəfələrlə salam verməsi, bəzən onu düşündüyü məsələdən ayırır, dilxor edirdi.

Bir dəfə yenə fəhlələr gəlib, görəcəkləri iş barəsində Həmidə xanımla müqavilə bağlayırlar. Müqaviləni Mirzə Cəlil oxuyur və fəhlələrə müraciətlə deyir:

–Xub, yaxşı yazılıb. Amma bir maddə çatışmır. O da budur: fəhlələr söz verirlər ki, gündə bir dəfə salam verəcəklər.

***

Həmidə xanım aldığı təhsilin, dostluq etdiyi yoldaşlarının təsiri ilə övladlarının adını əzizləyərək təhrif edir. Müzəffərə-Muzya, Midhətə - Edya, Münəvvərə-Varya, Ənvərə-Enya deyirdi. Mirzə Cəlil "Molla Nəsrəddin"də üstüörtülü şəkildə Həmidə xanımı tənqid etmişdi. Həmidə xanım da çox həssas idi. O, Mirzə Cəlildən



bərk incimişdi. Mirzə Cəlil onun ürəyini ələ almış və demişdi:

- Əzizim, inciməyinə dəyməz. Yazıçı gərək əvvəl öz evindəki eyibləri yazıb tənqid eləsin. Atalar yaxşı deyiblər: əvvəl evin içi, sonra bayırı.

***

Molla əmi həmişə əziz dostu, şair Qəmküsarı təriflərmiş. Qəmküsar isə daima özündən narazı imiş, hər yerdə özünü pisləyərmiş. Bir gün molla əmiyə deyirlər:

- Molla əmi, siz həmişə Qəmküsarı tərifləyirsiniz. O isə özü haqda yaxşı fikirdə deyil.

Molla əmi gülümsəyir:

- Görünür ikimiz də yanılırıq, - cavabını verir.

***

Özünü istedadlı şair hesab edənlərdən biri Cəlil Məmmədquluzadənin yanına gəlir və yeni yazdığı poema haqqında onun fikrini bilmək istəyir. Və başlayır poemanı oxumağa. Poemanı axıra qədər dinləyən yazıçı dilxor olsa da, sonra şairə belə bir sual verir:

- Bu poemanı nə qədər vaxta yazmısan?
- Üç günə!

Cəlil başını silkələyir:

- Gec yazmısan. Üç günə yeddi belə poema yazmaq olar ...

***

Bir gün dəbdə olan şairlərdən biri haqqında Cəlil Məmmədquluzadənin rəyini bilmək istəyirlər.

- Niyə, bəd yazmır, - deyir, - amma bir balaca qüsuru da var.

- Qüsuru nədir, molla əmi?

- Biri odur ki, dostum nədən yazdığını özü üçün ayırd etməyib. İkinci odur ki, şeirin atasını yandırıb.

- Molla əmi, bu lap ağ oldu ki ...

- Ağ niyə? Ağ üstə qara oldu desək, bəd olmaz, - deyə Cəlil cavab verir.

Bir gün ədibin qohumlarından biri vəfat edir. Mirzə Cəlil əsasına söykənib dərin fikrə getmişdi. Gələnlərdən biri evin ortasındakı tabuta işarə edib soruşur:

- A Mirzə, bu yazığa nə olub?

Mirzə Cəlil cavabında:

- VAllah, o dünyada başına nə iş gələcəyindən məlumat verə bilmərəm, ancaq hal-hazırda ömrünü bağışlayıb sizə.



***

Cəlil Məmmədquluzadənin evinə şirin dilli bir satıcı dadanır. O, hər gün təzə yağ, süd və yumurta gətirirmiş.

Bir gün Cəlil dəhlizin ağ divarında inəyə oxşayan bir heyvan, onun yanında əyri-üyrü xətt, sonra da yumru-yumru dairəciklər çəkildiyini görür. O, dilxor olur. Uşaqları çağırıb, divarı göstərir, ədəbsizlik üstə onları danlayır. Lakin bu əhvalat bir neçə dəfə təkrar olunur. Uşaqlardan da heç kəs divarı cızmağı boynuna almır.

Bir gün Mirzə Cəlil evə gələrkən, satıcının dəhlizdə dayanıb divarı yazdığını görür. Xeyli vaxt ona tamaşa edir. Satıcı Mirzə Cəlili görən kimi özünü itirmir:

- Molla əmi, bunlar yaddaşdı, yazıram ki, hesablar dolaşmasın.

- Balam, sən də uşaqmışsan, ancaq bircə təfavütünüz var, sən saqqallı uşaqsan, - deyə Cəlil cavab verir. Hər ikisi gülür.

Həmin əhvalatdan azca sonra "Saqqallı uşaq" hekayəsi yazılır.

***

1920-ci ildə C.Məmmədquluzadə Təbrizə gedir. Yoldaşı Həmidə xanımla faytonda Təbrizə daxil olanda, polis nəfəri qabaqlarını kəsir və Mirzə Cəlilə müraciətlə deyir:

– Ağayi mən, kişinin övrətlə faytona minməsi qadağandır.

– Yanımdakı öz külfətimdir, cənab ajan, - deyə Mirzə Cəlil bildirir.

– Qanun qanundur, fərqi yoxdur ağayi mən, olmaz.

– Bəs faytondan düşüb, bu qədər yolu piyada necə gedim?

– Piyada niyə ağayi mən. Mənim atıma minin.

– Bəs onda sən?

– Məndə faytonçunun yanında oturaram.

– Xub. Elə isə faytonçunun yanında özüm oturaram, - Mirzə Cəlil faytonçunun yanında əyləşir və yollarına davam edirlər. Faytonun dalınca baxan polis nəfəri öz-özünə deyir:

– Ağıllı kişidir, ha!



***

Azərbaycanın Ovxar adlı kəndinin xanı Əmir Ərşəd, Təbrizə gedən Cəlil Məmmədquluzadəni öz köçü ilə qonaq çağırır.

Ortaya xörək gəlir. Amma heç kəs əlini plova uzatmır. Xan pərt olur və Cəlildən səbəbini soruşur. Cəlil cavab verir:

– Siz hamınız, söhbətinizdən aydın oldu ki, xörək yemisiniz. Mən isə adam baxanda çörək yeyə bilmirəm.

Xan və onun adamları otaqdan çıxırlar. Mirzə Cəlil üzünü onunla gələnlərə tutur:

– Uşaqlar, indi sakit-sakit xörəyinizi yeyə bilərsiniz.

***

Cəlil Məmmədquluzadənin qohumlarından biri bərk xəstə imiş, ölüm ayağında yatırmış. Xəstənin yaxın adamları başlarını itirmiş halda Cəlilin yanına məsləhətə gəlirlər ki, bəs nə edək?

Ədib fikirli imiş, özü də bilmədən deyir:

–Təşvişə düşməyin, ölsün, görək sonrası nə olur

***

Günlərin bir günü, professor Həmid bəy Şaxtaxtinski köhnə dostu Cəlil Məmmədquluzadənin yanına söhbətə gəlir. Onlar əhvallaşandan sonra, üzbəüz oturaraq bir-birinin üzünə sakitcə baxırlar. Xeyli sükutdan sonra, Həmid bəy divardan asılmış kamançanı göstərib Cəlilə sual verir:

– Mirzə, birdən bu divardan asılmış kamança öz-özünə başlaya çalınmağa, necə olar?

Cəlil cavab verir:

– Həmid bəy, dayan bir fikirləşim.

Bir qədər sükutdan sonra yazıçı üzünü dostuna tutur:

– Niyə, Həmid bəy, bəd olmaz.

Söhbət yenə kəsilir. Xeyli keçəndən sonra bu dəfə Mirzə Cəlil Həmid bəyə sual verir:

– Həmid bəy, bax, biz oturmuşuq bu otaqda, hava da istidir. Birdən qapı öz-özünə açıla, sərin bir külək gələ, bizi də sərinlədə, necə olar?

Həmid bəy cavab verir:

– Mirzə, dayan, bir balaca fikirləşim.

Aradan bir dəqiqə keçir, Həmid bəy Cəlilə deyir:

– Mirzə, niyə, bəd olmaz.



Söhbətləri bununla da qurtarır. Nəhayət, Həmid bəy darıxıb ayağa qalxır. Mirzə Cəlil qapının ağzında onunla vidalaşanda deyir:

– Həmid bəy, tez-tez gəl, belə şirin söhbətlərdən eləyək.

***

İnqilabın ilk illərində "Molla Nəsrəddin" məcmuəsində əməkdaşlıq edən sevimli aktyorumuz Mirzəağa Əliyev bir dəfə yöndəmsiz, eybəcər kişi və qadın ləqəblərini yığıb böyük bir siyahı tərtib edir. Məcmuənin bir nömrəsində kişi, bir nömrəsində qadın ləqəbləri çap olunur. Bu işə narazılığını bildirənlərdən bir nəfər redaksiyaya gəlir, hədələmək yolu ilə Mirzə Cəlilə deyir:

– Bu yaxşı olmaz!

Cəlil sakit-sakit ona baxıb cavab verir:

– Bəs necə olar? Axı yaxşı olsaydı, biz də yazmazdıq.

***

Gənc şairlərdən, özlərini proletar şairi hesab edib, mətləbsiz şeirlər ilə qəzet sütunlarını dolduranlardan bir neçəsi molla əmini təngə gətirir.

Yerli-yersiz ondan soruşurlar:

–Molla əmi, dünyagörmüş kişisən, biz gənc proletar şairləri haqqında nə fikirləşirsən?

Molla əmi onlara baxıb öz-özünə danışırmış kimi, asta-asta söyləyir:

–Vallah, necə deyim, biz molla məktəbində oxuyanda bir müəllimimiz vardı, hamı onu tərifləyirdi. Biz uşaqlar isə onun dediklərindən heç nə başa düşmürdük, çox qəliz danışırdı. İndi də deyirsiniz ki, filan gənc çox istedadlıdır, yazdıqları da çox gözəldir. Amma mən belə qanıram ki, onu və onun kimiləri nə fəhlə-kəndlilər, nə də mən molla əminiz başa düşürük. Allah Sabirə min rəhmət eləsin ...

***

1923-cü ildə yazıçı sevimli "Molla Nəsrəddin" məcmuəsinin yubileyini keçirmək təşəbbüsündə olmuşsa da, ona fikir verən olmamışdı. 1931-ci ildə məcmuənin 25 illik yubileyini keçirmək istəyirlər. Cəlil kinayə ilə yubiley keçirmək istəyənlərə deyir:

– Tələsməyin, hələ tezdir, Allah qoysa 75 illiyini bayram edərsiniz.



***

Cəlil Məmmədquluzadə "Dəli yığıncağı" pyesi üzərində işləyərkən dəlilərin həyatına aid çoxlu kitablar oxuyurmuş. Bir dəfə yazıçı gülümsəyərək Həmidə xanıma demişdir:

– Dəlilər haqqında o qədər kitab oxuyuram ki, qorxuram axırda başıma hava gələ.

***

1928-ci ildə "Anamın kitabı" pyesi tamaşaya qoyulur. İkinci pərdədən ədib əsəbiləşməyə başlayır. Artistlər əsəri təhrif edir. Tamaşa qurtardıqdan sonra gənc yazıçılardan biri Mirzə Cəlilə yaxınlaşır:

– Artistlərin oyununu bəyəndinizmi?

Ədib gülümsəyir:

– Əgər sizə düzünü desəm, artistlər məndən inciyərlər.

***

1928-ci ildə "Türk işçi teatrı"nda "Anamın kitabı" pyesi oynanılırmış. Gənc şairlərdən S.Rüstəm də yazıçı ilə qabaq lojada oturub, tamaşaya

baxırlarmış. Tamaşanın ortasında, Rüstəm bəyin rolunu ifa edən aktyor, anasına əsərdə olmayan sözlər deyir: "Mama, mən çerez yarım saat sonra gələrəm..."

C. Məmmədquluzadə ciddi bir vəziyyətdə üzünü Süleyman Rüstəmə tutub soruşur:

- Oğlum, bu əsəri kim yazıbdır?

Heyrətdən donuxan gənc şair, o saat cavab verir:

- Mirzə, əlbəttə siz!

C. Məmmədquluzadə başını yırğalayır:

- Hər kim yazıbsa, yaxşı yazıb ...

***

1929-cu ildə Tiflisə qonaq gedən yazıçılar heyətinin sədri Ə. Haqverdiyev, katibi isə gənc proletar şairi Süleyman Rüstəm imiş. Camaat vağzala yığışanda, S.Rüstəmi bilet almağa göndərirlər. O, dərin fikrə getmiş Cəlil Məmmədquluzadəyə müraciət edir:

- Molla əmi, siz Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinə namizədsiniz, vəsiqənizi verin, sizə yumşaq vaqonda, pulsuz yer ala bilərəm.

C. Məmmədquluzadə qoltuq cibindən vəsiqəsini çıxarıb S.Rüstəmə verir və deyir:



- Xeyr, oğlum, mənə də öz vaqonunuzda bilet al, - sonra o, əlavə edir:

- Xub, deyirsiniz ki, mənim bu namizədlik vəsiqəmlə pulsuz, özü də yumşaq vaqonda bilet almaq olar?

- Bəli!

- Bəs onda niyə belə?

Gənc şair, C. Məmmədquluzadənin nə demək istədiyini sonradan başa düşür.

***

1929-cu ildə Gürcüstan yazıçıları Azərbaycana qonaq gəlirlər. Sonra isə C.Məmmədquluzadə, Ə. Haqverdiyev, S.S. Axundov, A. Şaiq, C. Cabbarlı, S.Rüstəm və başqa Azərbaycan yazıçıları Gürcüstana getməli olurlar. Heyətə Haqverdiyev rəhbərlik edirmiş. Gecəni vaqonda bolluca söhbət etdiklərindən, gec yatırlar. Haqverdiyev səhər tezdən, hamıdan ertə durur, əl-üzünü yuyur, yatanlara müraciət edir:

- Uşaqlar, Tiflisə az qalır, tez durub əl-üzünüzü yuyun.

Gecəni gec yatdıqları üçün heç kəs qalxmaq istəmir. Haqverdiyev dilxor halda sözünü bir də təkrar edir. Bu dəfə onun köməyinə Cəlil

Məmmədquluzadə gəlir. O, yarım kinayə ilə Haqverdiyevə deyir:

– Əbdürrəhim bəy, uşaqlara niyə əziyyət verirsən. Qoy Tiflis camaatı görsün ki, müsəlmanıq, mazutlu Bakıdan gəlirik!

***

1930-cu il iyulun axırında Cəlil Məmmədquluzadə Şuşaya gəlir. Onun Həmidəyə ilk sualı bu olur:

– Midhətdən məktub gəlibmi?

Həmidə xanımdan "yox" cavabını eşidərkən gözləri yaşarır və ağlamağa başlayır.

– Cəlil, nə üçün ağlayırsan?

– Çoxdandır ondan məktub almamışam. Qorxuram ölümü haqqında teleqram gələ!

Həmidə xanım onu sakit edir, çox sevdiyi Cıdır düzünə gəzməyə aparır.

***

1930-cu ilin dekabrında Cəlil Kislovodskidən qayıtdığı zaman onu müalicə edən həkimdən, Bakıda yazıçını müalicə edəcək həkimə ağzıbağlı bir zərf də gətirir. Zərf ədibi narahat edir, səbri çatmayıb paketi açır. "Xəstənin işi bitmişdir. İki aydan artıq yaşamaz".



Həmin sözlər Cəlilə çox pis təsir edir. O, ölümdən yaman qorxurmuş. 1931-ci ilin dekabrında ədib Həmidə xanıma demişdir:

– Həkimlər səhv ediblərmiş, onların verdiyi hökmdən sonra mən daha on ay yaşamışam.

***

C. Məmmədquluzadə Şuşanı çox sevirdi və yay aylarının çoxunu orada keçirirdi. Bir dəfə ailəsi ilə şəhərin qərb səmtinə gəzməyə çıxan ədib nəzərlərini şəhərin cənub tərəfinə, Cıdır düzünə çevirir, dərindən ah çəkir:

– Əzizlərim, vəsiyyət yüngüllükdür, mən öləndə məni Cıdır düzündə basdırın.

***

Ölümündən bir gün əvvəl, 1932-ci ilin yanvarn 3-də Cəlil Məmmədquluzadə hara isə gedir, iki saatdan sonra evə qayıdıb Həmidə xanıma deyir:

– Küçədə çoxlu dəfn mərasiminə rast gəldim ... Ölən nə çoxdur? ..

Axşam halı xarablaşır, gecəni pis yatır və tez-tez deyir:

– Boğazımda nə isə bir şey məni boğur ...

***

Cəlil Məmmədquluzadənin ağzından çıxan axırıncı sözü "Midhət gəldimi?" – sualı olmuşdur.





## ƏBDÜRRƏHİM BƏY HAQVERDİYEV
## 1810-1933

"Dağılan tifaq" faciəsinin ilk tamaşası 1896-cı ildə Şuşada, Haqverdiyevin öz rəhbərliyi ilə qoyulmuşdur. Nəcəf bəy rolunda Yusif bəy, Sonaxanım rolunda Zülfüqar Hacıbəyli, bəylərdən birinin rolunda Süleyman Sani Axundov, Nazlı xanım rolunda tələbə Rza Mirzəyev çıxış etmişlər. Əsərdəki məktəblilər nəğməsini Üzeyir Hacıbəyli və başqa tələbələr oxumuşlar. Tamaşa müvəffəqiyyətlə keçmişdir. Səhəri gün müəllimlər və Haqverdiyev bir yerə yığılıb dünənki tamaşa haqqında söhbət etdikləri vaxt, Nazlı xanım rolunu oynayan Rza Mirzəyevin anası hay-küylə gəlir:

– Hanı o şəbihgərdan? Mənim uşağıma arvad paltarı geydirib xalqın qabağına çıxaran! Hanı o Əbdürrəhim bəy, başına bir oyun açım ki... – deyə qışqırır.

Qadın üzdən Haqverdiyevi tanımırmış. Müəllimlər onu sakit edib yola salır. Haqverdiyev gülə-gülə:

– Bəli, mübarək olsun, ləqəb də qazandıq, şəbihgərdan!

***

Haqverdiyev Peterburqda təhsil aldığı illərdə, çox vaxt yay aylarını Şuşaya gələrdi. O, öz dostları ilə Səkili bulağa, İsa bulağına, Turşsuya və baqşa səfalı yerlərə gəzməyə gedərmiş. Bir gün yenə dostlar sözləşirlər ki, filan gün səhər tezdən Bazarbaşı deyilən yerdə toplansınlar və Səkili bulağa gəzməyə getsinlər. Cavanlar toplaşırkən, hamının zəhləsi gedən bir nəfər də bunlara qəmiş olur. Dostlar həmin dilxorçudan canlarını qurtarmaq üçün, sözləşib başqa yerə yığılır və səyahətə gedirlər. Axşamüstü gəzməkdən qayıdarkən, həmin şəxslə yenə Bazarbaşında rastlaşırlar. O, tez dillənir:

– Hə, mənim başımı əkib, özünüz keyfə getmisiniz?



Bu yerdə Haqverdiyev yarıciddi halda ona cavab verir:

– Nə danışırsan əə... sənin əkənin lap atasına lənət!

***

1899-cu ildə Ə.Haqverdiyev Peterburqdan Şuşaya qayıdırdı. Yevlaxda o, faytona oturub vətənə doğru gedirdi. Nəzərlərini yol boyu uzanan taxıl, pambıq sahələrindən çəkməyən ədib xəyala dalmışdı. Faytonçu zarafatcıl bir kişi idi. Sərnişinin fikirli olduğunu gördükdə gülümsədi:

– Ağa, nə fikir edirsiniz, şükür olsun Allaha, bizə qismət olmayan nemətə sahib olub, gözəl vətənə qayıdırsınız.

Haqverdiyev də gülümsədi:

– Lələ qardaş, əvvəla, mən ağa deyiləm. İkincisi də, düz buyurursunuz, budur, oxuyub gəlmişəm. Uzanan zəmilərə baxdıqca, dərd ürəyimi yeyir ...

– Bu nə sözdür, ağa?

– Yenə dedin "ağa". Ay lələ qardaş, mənə nə "ağa" de, nə də "əfəndi". Sadəcə olaraq Əbdürrəhim.

– Baş üstə, ağa.

Əbdürrəhim bəy bu dəfə qəhqəhə çəkərək güldü:

– Tərki adət bə məcibi mərəzəst.

Şuşaya çatana qədər faytonçu Haqverdiyevə "ağa" – deyə, Haqverdiyev də faytonçuya "lələ qardaş" deyə müraciət etdi.

***

"Bəxtsiz cavan" pyesi 1900-cü ildə Şuşada tamaşaya qoyulur və ilk tamaşadan böyük müvəffəqiyyət qazanır. Tamaşanın rejissoru Haqverdiyev özü imiş. Faciənin müvəffəqiyyəti yerli bəyləri narahat edir, Fərhadın üsyankar çıxışları onların xoşuna gəlmir. Hətta bir neçə bəy tamaşanı yarımçıq qoyub gedir. Bu bəylərdən qılıncının dalı da, qabağı da kəsən bir nəfər Haqverdiyevi yanına çağırır:

–A bəy, gedib hansı cəhənnəmin dərəsində dərs alıb gəlmisən, özün bilərsən, amma dinc otur, yoxsa belə hərzə-mərzə şeyləri camaata göstərmək sənə baha oturar. Bir məsəli də yaddan çıxarma: "Yetim qızsan, qıvrıl yat"

Bunun cavabında Haqverdiyev ancaq:

–Yox, ağa, heç cürə yata bilməyəcəm! – demiş, artıq danışmağı lüzumsuz saymış və qapını çırparaq çölə çıxmışdır.



***

Haqverdiyevin arvadı Tükəzban saysız-hesabsız nağıllar bilirdi, onun gözəl hafizəsi vardı. Hətta ədib "Pəri-cadu" pyesinin məzmununu da Tükəzbanın söylədiyi "Qızıl don" nağılından götürmüşdü. Tükəzban, hələ lap uşaq vaxtında nənəsindən, babasından eşitdiyi nağılları olduğu kimi danışardı. Əbdürrəhim bəy onun nitqinə, hafizəsinə heyran qalmışdı və fikirləşirdi ki, bu qadının savadı olsaydı, nələr etməzdi.

Bir gün Haqverdiyev zarfatla ona demişdi:

– Tükəzban, bir belə ki, yaxşı yaddaşın var, özü də gözəl danışırsan, səndən yaxşı aktrisa olar. Arvad rollarında çıxmağa adam tapmırıq ...

Tükəzban onun sözünü yarımçıq qoymuşdu:

– Əbdürrəhim, sən lap dəli olmusan, camaat elə doğru deyir ki, şəbihgərdan! Elə bir o qalmışdı səhnəyə çıxam, atılam, düşəm, ağlın gəzdiyin yerlərə gedib ...

– Düz deyirsən Tükəzban, bu xəmir hələ çox su aparacaq, - deyə Haqverdiyev arvadına cavab vermişdi.

***

1907-ci ildə Haqverdiyev Gəncədə yaşayırdı. Gəncə ziyalıları onu yaxşı tanıyırdı. Ziyalılardan yazmaqla məşğul olan da vardı. Əli Nəzmi də bunlardan idi. Onlar öz yazdıqlarını Haqverdiyevə oxuyar, ondan məsləhətlər alardı. Bir nəfər ədibi lap təngə gətirmişdi. Bu "ziyalı" gecələri yatmır, ağlına gələn hərzələri yazıb adını da faciə qoyur və səhəri Haqverdiyevə oxuyurdu. Haqverdiyev də xasiyyətcə mülayim olduğu üçün, özünə əziyyət verib qulaq asırdı. Bir gün yenə Haqverdiyev bağda oturmuşdu. Bir də gördü ki, həmin "dostu" əlində də "Molla Nəsrəddin" məcmuəsinin son nüsxəsi gəldi və salam verib onun yanında əyləşdi. O, həmişəkindən fərqli olaraq çox qürurlu görünürdü.

–Əbdürrəhim bəy -deyə "Cəhənnəm məktubları"nı mütaliə edirsinizmi? - deyə əlindəki "Molla Nəsrəddin" nüsxəsinin "Cəhənnəm məktubları" çap olunan səhifəni Haqverdiyevə göstərdi.

– Bəli, oxuyuram, - ədib cavab verdi.

– Necədir, xoşunuza gəlirmi?

–Niyə, pis deyil, yaxşıdır.

–Mən ölüm, Əbdürrəhim bəy, düz deyirsiniz?



–Necə bəyəm? Sizlə zarafatım var?

– Elə isə mən çox xoşbəxtəm.

Haqverdiyevi maraq qarışıq bir təəccüb bürüdü.

–Təəccüblənməyin, Əbdürrəhim bəy, öz aramızda qalsın. Heç kimə deməyin. "Cəhənnəm məktubları"nı mən yazıram. "Xortdan" da mənim gizli imzamdır.

– Çox gözəl, amma qardaşoğlu, hər bir yazdığın pyesi mənə oxuduğun halda, bəs bunu niyə oxumursan, gətir hekayənin mabədini oxuyaq, çox maraqlıdır ...

– Yox, mirzə, bu onlardan deyil, bunu oxumaram ...

– Oxumazsan?

– Yox.

– Niyə?

– Ürəyinizə pis gəlməsin, qorxuram ...

– Nədən qorxursan, qardaşoğlu?

– Belə deyirlər ki, qələm sahibləri çırpışdıran olur.

– Elə isə qulaq as, mən oxuyum, sən başa düş, - Haqverdiyev əlini cibinə salıb bir dəftər çıxarır və "Cəhənnəm məktubları"nın mabədini əlyazmasından oxumağa başlayır. "Cəhənnəm məktubları"nın "müəllifi" yalançı "Xortdan" özü-

nü itirir, "mirzə, işim var" – deyə əkilir və bir daha Haqverdiyevin gözünə görünmür.

***

1908-ci il yanvar ayının 25-də, Bakıda "Leyli və Məcnun" operasının ilk tamaşası göstərilir.

"Şəbi-hicran yanar canım" sədaları altında pərdə qalxarkən tamaşanın gedişini, xoru, orkestri idarə edən enlikürəkli, uzunboylu, uzunsaçlı bir nəfər daha çox diqqəti cəlb edir. O, Azərbaycanın ilk dirijoru Haqverdiyev idi. Operanın müəllifi Üzeyir Hacıbəyli isə orkestrdə skripka çalırdı. Tamaşa qurtardıqdan sonra camaatın alqışları altında səhnəyə çıxarılan gənc Üzeyiri Haqverdiyev qucaqlayaraq bağrına basır, gözləri yaşara-yaşara deyir:

–Sağ ol oğlum, sağ ol, xalqımızın başını uca etdin. Arzularımdan birinə də yetdim. İncəsənətimizdə opera yarandı... Sənin daha böyük nailiyyətlərə çatacağına şübhə etmirəm.



***

1908-ci ilin əvvəllərində "Molla Nəsrəddin" əməkdaşlarından Cəlil Məmmədquluzadə, Əbdürrəhim bəy Haqverdiyev, Faiq Nemanzadə, Qurbanəli Şərifov, Salman Mümtaz və başqaları "İbrahim bəyin siyahətnaməsi" əsərindən söhbət edirlərmiş.

Haqverdiyev deyir:

– Nə olardı, bu kitaba nəzirə bir "Səyahətnameyi Molla Nəsrəddin" də olaydı. Aya, görəsən Molla Nəsrəddin səyahət etsə, başına nə müsibətlər gələ bilər?

Cəlil Məmmədquluzadə üzünü yoldaşlarına tutub aram-aram söyləyir:

– Gəlin biz bir "Mozalan" gəzdirək. Ancaq bunun səyahətnaməsini öz aramızda bölüşdürək. Hər kəs onu özü görüb bildiyi yerə aparıb səyahət etdirsin. Oxuyanlar güman etsinlər ki, həqiqətən bir nəfər gəlib buraları görüb, bu felyetonları yazıb.

Hamı onun fikrinə şərik olur. Birinci felyetonu Haqverdiyev başlayıb, Mozalanı Gəncə tərəflərdə gəzdirir və Bakıya gətirir. Bakıdan Mozalanı Məşhədə Salman Mümtaz aparır. İrəvan və Naxçıvan tərəflərdə Mozalanı Qurbanəli Şərifov

gəzdirir. Beləliklə "Mozalan bəyin səyahətnaməsi" əsəri meydana çıxır.

***

Bir gün Haqverdiyev küçə ilə gedərkən, səkinin kənarında bir uşağın ağladığını görür. Yaxın gəlib səbəbini xəbər alırsa da uşaq cavab vermir. Axırda naəlac qalan ədib uşağa sual verir:

– Adın nədir, a bala?

Uşaq bu dəfə tez cavab verir:

– Əliqulu.

– Bir adamın ki, adı Əliqulu olsa, ağlamasın neyləsin?!

Haqverdiyev gülümsəyib uşağı sakitləşdirir.

***

Ə.Haqverdiyev böyük facia aktyoru Hüseyn Ərəblinski ilə dost idi. Hətta o, "Ağa Məhəmməd şah Qacar" faciəsini Ərəblinskinin istedadlı sənətkarlığını nəzərə alaraq yazmışdı. Faciə yazılıb qurtaranda onlar görüşürlər. Ərəblinskinin ilk sözü bu olur:

– Mirzə, sən Allah, əvvəl bir de görüm, mənim xahişimi yerinə yetirdinmi? Arvad rolu yoxdur ki? Bu aktrisa məsələsi gözümün qabağında bir dağ kimi durmuşdur.



Əbdürrəhim bəy ona cavab verir:

– Hüseyncan, mən bu "Ağa Məhəmməd şah Qacar" əsərini sənin üçün yazmışam və sənin xətrin üçün bir nəfər də olsun arvad rolu salmamışam.

Bu sözlər Ərəblinskini çox həyəcanlandırır. O, Haqverdiyevi qucaqlayıb öpür və qadın rolu oynayan bığlı kişiləri nəzərdə tutaraq deyir:

– Can mirzə, heç olmasa bu əsərdə mənim canımı bu bığlıların əlindən xilas etdin.

***

1910-cu ildə "Ağa Məhəmməd şah Qacar" faciəsinin tamaşasından sonra bir dəstə tamaşaçı "şah" rolunu xüsusi məharətlə oynayan Hüseyn Ərəblinskini və onun artist dostlarını qonaq aparırlar. Qonaqlıq otağında Hüseyndən soruşurlar:

– Harada əyləşəcəksiniz?

– Mən Əbdürrəhim bəyin yanında əyləşəcəyəm.

Qonaqlıq sahibləri o zaman Tiflisdə olan Haqverdiyevin məclisə çağırılmadığını və Hüseynin buna işarə etdiyini başa düşür. Təcili olaraq Əbdürrəhim bəyi tapıb məclisə gətirirlər və Ərəblinskini də onun yanında əyləşdirirlər.

***

Tiflisdə, qonaqlıq məclislərinin birində Haqverdiyevin sağlığına badə qaldırırlar. Artistlər növbə ilə gəlib onu öpür. Artist Murad Muradov Haqverdiyevi öpərkən, Ərəblinski de-yir:

-Yoldaşlar, Muradın niyə psevdonimi yoxdur, bu gün mən ona psevdonim qoyuram: Haqverdovski. Bu çox gözəl psevdonimdir. Haqverdiyev bizim atamız, müəllimimiz olub. Qoy bu ad Murada yadigar qalsın.

Bu əhvalatdan sonra Ərəblinski öz şəkillərindən birinin dalına: "İstedadlı sənətkar Haqverdovskiyə Ərəblinskidən yadigar" sözlərini yazıb Murad Muradova bağışlayır.

***

Haqverdiyev artistlərə, o cümlədən Ərəblinski və Əbülfət Vəliyə əlindən gələn köməyi əsirgəmirdi. Bir gün Ərəblinski zarafatla Haqverdiyevdən yüz min manat pul istəyir:

- Hörmətli müəllim, siz heç şübhəsiz ki, birinci Azərbaycan mütəxəssis artistinin sözünü yerə salmayacaqsınız.

Haqverdiyev də zarafatla ona cavab verir:

- Sənin özünü ilk mütəxəssis artist hesab etməyin heç də düz deyil. Birinci mütəxəssis



artist Sidqi Ruhulladır. Çünki sən ayda kirayənişinlərdən iyirmi manat kirə alırsan. Amma Sidqi səhnədən gələn gəlirlə yaşayır.

- Ay müəllim, axı iyirmi manat nə gəlirdir, ki!.. Mən hamıya, o cümlədən sizə boğazacan borcluyam. Elə isə mən evi satacağam, - deyə Ərəblinski cavab verir və bir neçə gündən sonra evi satır.

Ərəblinskinin evi satması xəbərini eşidən Haqverdiyev əvvəl pərt olur. Sonra o, Hüseynin könlünü almaq üçün onun yanına gedir:

- Hüseyn, mən səni bu qədər dəliqanlı bilməzdim, evi niyə satmısan? Eybi yoxdur, satmısan, yaxşı eləmisən. Amma yadında saxla ki, sən kapitalist də olsan, belə mühitdə işlər sən deyən kimi getməyəcək, çünki arzu böyük, imkan isə yoxdur. Lakin vaxt olacaq ki, sənin arzuların çiçək kimi açacaq. Mən buna əminəm.

***

Şuşada verilən konsertlərdə həvəskar artistlərdən birinin cındır paltarda, ney-balabanın müşayiəti ilə oxuduğu mahnı Haqverdiyevin çox xoşuna gələrdi. Çünki mahnının sözlərini və havasını ədib özü düzəltmişdi:

*Gəlin gedək Daşaltına gəzməyə,*
*Ördək kimi o göllərdə üzməyə,*
*Qorodovoy gəlir bizi əzməyə.*
*Ölürəm, kimə yalvarım.*

*Çox sözüm var ürəyimdə deməyə,*
*Yoxdur bir kəs çağırmağa köməyə,*
*İştaham yox, qapaz-kötək yeməyə.*
*Ölürəm kimə yalvarım,*
*Yanıram kimə yalvarım*

və s.

***

Bir dəfə Haqverdiyev evdə oturduğu zaman, jandarm idarəsi rəisi təklifsiz otağa daxil olur:

– Mirzə, eşitmişəm kitablarının içində siyasi ədəbiyyat da vardır. Düzdür, mən buna inanmıram, ancaq gərək məni bağışlayasınız, qulluq adamıyam, vəzifəmdir, özüm sizin kitabları yoxlayacağam, - deyə otaqdakı kitabları diqqətlə gözdən keçirir. Ostrovskinin pyesləri məcmuəsini əlinə götürür, birinci səhifədəki şəklə diqqətlə nəzər salır:

– Yox, mənim gözüm bu kişidən su içmir, heç düz adama oxşamır, cənab Əbdürrəhim bəy, belə kitabları oxumaq sizə yaraşmaz!



Haverdiyev ona heç bir söz demir və gülümsəyir. Jandarm rəisi Ostrovskinin kitabını özü ilə aparır.

***

"Dağılan tifaq" faciəsinin tamaşası gedirmiş. Dördüncü pərdədə, Əbdül ilə İsmayılın daş üstündə oturub, Nəcəf bəyin tarmar olmuş evinə baxaraq danışdıqları səhnədə Əbdül İsmayıla deyir ki, "Xudabəndi-aləm hətta öz Qurani-Şərifində qumarı şeytan əməli buyurubdur". Əbdül rolunda oynayan artist sözləri dəyişdirib demişdir:

– Xudabəndi-aləm hətta öz qumari-şərifində Quranı şeytan əməli buyurubdur.

Bu söz dəyişmənin üstündə Haqverdiyevi məsuliyyətə çəkirlər ki, bilə-bilə belə yazmısan. Lakin mətn yoxlandıqdan sonra ədibdən üzr istəməli olurlar.

***

Haqverdiyev artistlərlə, o cümlədən Sidqi Ruhulla ilə bərk dost idi. O, Sidqiyə bağışladığı "Pəri-cadu" pyesinin əlyazması üzərində yazmışdı:

"Artist Ruhulla bəradərimə. Bəradərim, dünyada insaniyyətə, millətə və mədəniyyətə ən böyük xidmətlərdən biri artistlikdir. Artist üzünü unluyub acı həqiqətləri sənətin şəkəri ilə şirinləyib camaata yedirdir. Bu cəhətdən, artistliyin yolları nə qədər ağır, tikanlı olsa da, qiymətlidir. Çünki nəticəsi parlaqdır. Bu sözləri həmişə xəyalında saxla".

İkinci bir hədiyyənin üzərində isə belə yazmışdı:

"Artist Sidqi Ruhullaya vəsiyyətim: Artistliyin yolları ağır və tikan ilə doludur. Ayağa batan tikanların ağrılarına qəyuranə davam edib mərdanə getməyin, axırda işıqlı bir mənzilə yetirməyi şübhəsizdir. Həmişə xəyalın bu yerdə olsun ki, bu gün dünəndən yaxşı oynayasan. Çünki artist nə qədər yaxşı oynasa gərək bilsin ki, daha yaxşı oynamaq mümkündür".



***

1928-ci ildə Mirzə Fətəli Axundzadənin vəfatının 50 illik yubileyi komitəsinə Haqverdiyev başçılıq edirmiş. Komitə üzvləri Bakıdakı mərkəzi küçələrindən birinə M.F. Axundzadənin adını qoymağı təklif edəndə Haqverdiyev deyir:

– O küçəni yox, o küçə lazım olacaq ...

İndiyə qədər Bakıda M.F.Axundzadə adına küçə yoxdur.

***

Haqverdiyev Azərbaycan Dövlət Darülfununda (indiki Bakı Dövlət Universiteti – red.) dərs dediyi zaman mövzular tələbələr arasında bölünər, kimə nə düşdüsə, hazırlaşar, gəlib danışarmış. Mövzuları da qrup rəhbəri seçilən tələbə paylayarmış. Bir tələbəyə də "Yeyərsən qaz ətini, görərsən ləzzətini" pyesi düşür. Haqverdiyev, adətən, proqram əsasında onun yaradıcılığına ayrılan saatlarda auditoriyada oturmaz: utanarmış. Ədib koridor boyu gəzərkən, qulağına "Yeyərsən qaz ətini, görərsən ləzzətini" pyesindən danışan tələbənin səsi gəlir:

– Pyesdə, hörmətli ədibimiz qaz ətindən, qaz ətinin ləzzətindən danışır. O yazır ki, qaz əti-

ni yeməyənlər onun ləzzətini bilməzlər. Haqverdiyev nəsihət edir ki, qaz əti yeyin, ləzzət alın. Yəni yeyərsən qaz ətini, görərsən ləzzətini.

Haqverdiyev gülümsəyə-gülümsəyə auditoriyaya daxil olub, həmin tələbənin üzünə diqqətlə baxır:

- Əhsən bala, çox yaxşı danışdın. Əsəri yaxşı başa düşmüsən. Qaz əti, doğrudan da, ləzzətli olur.

Haqverdiyevin sözlərindəki incə kinayəyə tələbələr gülüşür. Ədib özü də onlara qoşulur.

***

1929-cu ildə Azərbaycan yazıçıları Gürcüstana qonaq gedirlər. Heyətin sədri Haqverdiyev, katibi isə S.Rüstəm imiş. Azərbaycan və gürcü yazıçıları qədim gürcü şəhəri Msxetə getməli olur. Haqverdiyev, C.Məmmədquluzadə və Qalaktion Tabidze bir maşında, A. Şaiq, C. Cabbarlı və S. Rüstəm də digər maşında gedirlərmiş. Başqa maşınlarda da digər yazıçılar gəlirlərmiş. Haqverdiyevgilin mindiyi maşın hər yerdə olduğu kimi, burada da birinci gedirmiş. Cəfər Cabbarlı sürücünün qulağına nə isə pıçıldayır, maşın sürətini artırır və Msxetə o biri maşınlardan tez çatır. O biri maşınlar gəlib yetişdikdə Haqverdiyevi çox pərt görürlər. C.Məmmədquluzadə dodaqaltı gülərək, şəhadət barmağı ilə S.Rüstəmi hədələyir. Haqverdiyev heyətin katibi S. Rüstəmi yanına çağırır:



- Bu dəfəlik günahından keçirəm. Bundan sonra belə işlər görmə. Adam sədrin maşınını keçməz! – deyir.

***



## MƏMMƏD SƏİD ORDUBADİ
**1872-1950**

1907-ci ildə Ordubadi "Dağılmış inqilab" adlı əsərinin çapına icazə almaq üçün onu Mirzə Şərif adlı çar senzoruna təqdim edir. Senzor əsərin başına oyun açır, ən yaxşı yerlərini qaralayır.

İllər keçir. 1920-ci ildə M.S. Ordubadi "Əxbar" qəzetində çalışdığı vaxt, Mirzə Şərif "Hindistan müsəlmanları" adlı əsərini çap etmək üçün ona müraciət edir. Ordubadi qəzet parçasını bürmələyib mürəkkəbə batırır və əsərin səhifələrini qaralamağa başlayır. Mirzə Şərif əsəbiləşir:

– Ay yoldaş, nə edirsən?



M.S. Ordubadi yavaşca dillənir:

– Cənab senzor, öz qaydanızla əsərinizi təshih edirəm.

***

M. S. Ordubadi inqilabın ilk illərində "Kommunist" qəzetində işləyirdi. Bir dəfə belə olur ki, eyni vaxtda onun yanına Nəcəf bəy Vəzirov, Ə. Haqverdiyev və A. Şaiq gəlir. M.S. Ordubadi onlarla görüşdükdən sonra gülümsəyərək zəngi basır və katibə içəri daxil olanda, ona deyir:

– Get, arxivin açarını bura gətir!

– Hansı arxivin açarını?

Ordubadi cavab verməmiş, Vəzirov əli ilə özünü və oturanları göstərib gülə-gülə söyləyir:

– Ay qız, gördüyün adamların hamısı arxiv malıdır. Məmməd Səid bizi arxivə qoymaq istəyir.

***

Ordubadi deyərdi:

–Kitabı müzakirəyə vermək, yol qırağında ev tikmək kimi bir şeydir, hər ötən bir söz deyir.

***

Ordubadi dram teatrına oynanılmaq üçün bir pyes verir. Çox gözləyir, əsər tamaşaya qoyulmur. Vəziyyəti öyrənmək üçün hərdənbir teatrın direktoruna zəng edib soruşur ki, bu gün teatrda nə gedir? O da hər dəfə cavab verir ki, "Xoşbəxtlər". Axırda zinhara gələn Ordubadi deyir:

– Qardaş, bəs bizim "Bədbəxtlər" nə vaxt gedəcək?

***

Ordubadinin 70 illik yubileyində dramaturq S. Rəhman səmimi çıxış edir, onu təbrikdən sonra deyir:

– Mirzə, gün o gün olsun ki, yüz əlli illik yubileyinizi də bu zalda böyük təntənə ilə keçirək.

M. S. Ordubadi yerdən söz atır:

– Gədə, sən o vaxta qalmazsan!





## MİRZƏ ƏLİ MÖCÜZ
**1873-1934**

Satirik şair M.Ə. Möcüz öz dostlarından birinin evinə qonaq gedir. Süfrəyə ləziz yeməklərlə bərabər, şərab da qoyulur. Bir neçə qədəhdən sonra, sağlıq demək üçün sözü Möcüzə verirlər. O, qədəhi əlinə alıb söyləyir:

*İçki can sağlığının düşmənidir,*
*Gəl içək canımızın sağlığına.*



## ABBAS SƏHHƏT
## 1874-1918

Abbas Səhhət ömrünün səmərəsiz keçmədiyini, həyatı ilə məsləki arasında möhkəm bağlılıq olduğunu nəzərdə tutaraq qürur hissi ilə demişdir:

– Məsləkim tərcümeyi-halımdır!

***

Səhhətin atası Molla Əliabbas da şair idi. "Əfşan" təxəllüsü ilə şeirlər yazırdı. Bir dəfə, yaxın dostlarından birinin arvadı nehrədə yağ çalxalaya bilməməsindən şikayətlənib, dua yazmağı xahiş etdikdə Əliabbas ona dua əvəzinə aşağıdakı şeiri yazıb vermişdir:



*Anam-bacım, xanım ağa,*
*Dua yazmaq neylər yağa?*
*Sən özünü bərk bas yerə,*
*Otur nehrə çalxalamağa.*

***

*Ay dədə, dur get mənə çox şeylər al,*
*Bir dənə çanta, bir-iki dəftər al, –*

Səhhətin həmin beyt ilə başlanan şeirinə "Molla Nəsrəddin" məcmuəsi nəzirə yazmışdı:

*Ay dədə dur get mənə qolbağ, zər al,*
*Bir dənə çarşaf, iki top məxmər al.*

***

Əziz dostu, məsləkdaşı Sabir ölərkən Səhhət yazmışdı: "... Sabirə bir qədər ağlamaq istəyirəm. Ey qare, sözümü mövqesiz görüb də mənə sərzəniş etmə ... deyirəm: Sabir! Alimlər, ədiblər, şairlər öləndə, sən onlar üçün mərsiyə yazardın, nitqlər söyləyərdin. İndi sənin üçün mərsiyə oxuyan yoxmu, əcaba? Xeyr, nə qədər ölməmişəm, səni yaddan çıxartmaram. Sən yaddan çıxmazsan, sən ölməmişsən, sən aləmi-mənada

dirisən. Bir milləti diriltməyə çalışan özü ölərmi? Yox, ölməz!"

***

Sabir Bakı məktəblərinin birində mü-əllimlik etmək arzulayırdı. Onun yaxın dostu Səhhət şairə kömək məqsədi ilə, o zamankı maarif inspektoruna müraciət edir. Çinovnik təbiətli inspektor açıqlı halda bildirir:

– Xahiş edirəm, mənim üçün millət-filan söhbətini açmayasınız. Mən Nikolayın borşu ilə kotletinə qulluq edirəm...

Səhhət də əsəbiləşir:

– Cənab, biz sizin nələr yediyinizi yaxşı bilirik ... – deyə cavab verir.

***

1911-ci ildə Şamaxıda maddi vəsait olmadığı üçün yeddinci sinifdə oxuyacaq uşaqlar məktəbə getmirdi. Dövlət də yardım etməyi öhdəsindən atırdı. Abbas Səhhət məktəb müdirindən həmin söhbəti eşitdikdə, dərhal bir neçə nəfərlə birlikdə, pul toplamaq məqsədi ilə ətraf kəndlərə çıxır. Bir xeyli pul toplayıb geri dönəndə, Şərədidin meşəliyində dörd nəfər əli tü-



fəngli onların yolunu kəsir və faytondan düşürürlər.

Səhhət deyir:

– Bu saat biz sizin ixtiyarınızdayıq. Siz nə cür istəsəniz, elə də bizimlə rəftar edə bilərsiniz. Ancaq bir neçə kəlmə sözüm var, icazə verin, onu sizə deyim.

Səhhət kim olduqlarını, nə məqsədlə kəndləri dolaşdıqlarını söyləyir və deyir:

– O iş üçün ki, biz çıxmışıq, onda şəxsən nə mənim xeyrim var, nə də yoldaşlarımın. Mən həkiməm, yoldaşlarım daha hörmətli adamlardır. Bizim çalışmağımız ancaq körpə balalardan, sənin, onun uşağından ötrüdür. Biz istəyirik ki, onlar oxuyub elmli olsunlar, elin-obanın dərdinə qalsınlar, onlara kömək edə bilsinlər... İndi baxın, fikirləşin, bizimlə nə cür rəftar etmək istəyirsiniz, ixtiyar sizindir.

Səhhətin sözündən sonra əli tüfənglilərin başçısı utanırmış kimi söyləyir:

– Həkim, bu sözləriniz bizə kifayətdir. Üzr istəyirik, yolunuza davam edin.

O, Səhhət və yoldaşlarını təzədən faytona əyləşdirib Şamaxıya yola salır.



## SÜLEYMAN SANİ AXUNDOV
**1875-1939**

Yazıçı özü yazır: Atam Rzaqulu deyərmiş ki, mənim üç oğlum, bir qızım olacaq. Onlara bu adları qoyacağam: Qəhrəman, Rüstəm, Süleyman, Mahtaban. Atamın bu arzusu həyata keçir.

***

Yazıçı uşaqlıq vaxtlarını yad edərək deyir:

– Bir dəfə anam ilə bağımızda idim. Cırcırama aramsız cırıldayırdı.

– Ana, o cırcırama nə deyir? – sual etdim.

– Oğlum o cırcırama deyir ki:



*Qarışqacıq – quruşqacıq*
*Mənə dedi, qarışqacıq*
*Dedi, dedi, dedi, dedi.*

Mən anamın bu cavabına xeyli güldüm. Sonra, o sözləri əzbərlədim. Cırcırama oxuyanda, mən də ona qoşulub deyərdim:

*Qarışqacıq – quruşqacıq,*
*Mənə dedi, qarışqacıq*
*Dedi, dedi, dedi, dedi.*

Səslərin ahəngi cırcıramanın oxumasına elə bənzəyirdi ki, sanki doğrudan da cırcırama o sözləri deyirdi.

***

Doğruluğu, təmiz vicdanlı olmağı üstün tutan Süleyman Sani, bir dəfə Qori seminariyasında oxuduğu vaxt növbətçi olur. Onu çörək almaq üçün bazara göndərirlər. Növbətçi müəllimə verilən məlumata əsasən ,belə bəlli olur ki, Süleyman bazarda çörəyi ucuz qiymətə almış, gəlib baha qiymətə aldığını demiş, pulun qalanını özü mənimsəmişdir. Bu hadisə gənc seminaristə çox pis təsir edir. O, bir neçə dəfə növbətçi müəllimin evinə gedib, bu işin yalan olduğunu demək

istəyir, lakin hər dəfə rədd edilir. Üzərinə atılan böhtanı yumaq üçün Süleyman intihar etmək qərarına gəlir və özünü tapança ilə vurur... Bundan sonra məsələ aydınlaşır, Süleymanın tamamilə günahsız olduğu aşkara çıxır.

***

Süleyman Sani bacısı uşaqlarını çox sevirmiş. Onları maraqlandıran suallara həvəslə cavab verərmiş. Bir gün bacısı uşaqlarından biri deyir:

– Dayı, əlindəki çəliyi elə həmişə qoluna taxıb gəzdirirsən, bəs ağırlıq eləmir?

Süleyman Sani gülür:

– Düz deyirsən, amma lazım olur.

– Axı nəyə lazım olur? – uşaq yenə xəbər alır.

Təsadüfən, həmin söhbətdən iki gün sonra Süleymanın bacısı uşaqları dənizdə çimirmiş. O da kənarda durub tamaşa edirmiş. Birdən yazıçının sevdiyi, ona sual verən bacısı oğlu Nadir bir az dərinə gedir və qışqırır. Süleyman tez suya cumur, həmişə gəzdirdiyi çəliyi ona tərəf uzadır:

– Hə, Nadir, tez çəlikdən yapış.

Nadir də cəld çəlikdən yapışır. Kənara çıxdıqda yazıçı deyir:

– Hə, gördünmü, çəlik lazım olur ...



***

Bir dəfə Cəlil Məmmədquluzadəni evinə qonaq çağıran Süleyman Sani, ocağın üstünə qoyduğu yağın əriməsinə, dağ olub-olmamasına baxmaq üçün mətbəxə girir. Görür ki, yağ qabı boşdur, olub-qalan da buxarlanıb havaya qalxır. Tez o biri otağa keçir və deyir:

– Molla, möcüzə baş verib, yağ uçur?

Cəlil əvvəl elə bilir ki, Süleyman zarafat edir, sonra özü mətbəxə keçəndə həqiqətən qabda heç nə qalmadığının şahidi olur. Üzündən təbəssüm əksik olmayaraq dedi:

– Əsl "Molla Nəsrəddin" malıdır, yaz ver çap edək, görək bu marqarin yağı nəmənədir ki, uçur...



## MƏHƏMMƏD HADİ
**1879-1920**

Bir dəfə şair M. Hadi yarı keflənmiş vəziyyətdə qəbiristanlıqdan keçirmiş. Uçuq qəbirlərdən birində dişləri ağaran kəlləni görmüş, onun dirilərə güldüyünü zənn edib, dərin fikrə qərq olmuş, həzin-həzin söyləmişdir:

*Bu matəmgahi-dünyaya gülürdü sanki ölmüşlər,*
*Yer üstündə bəşər ağlar, gülər xakə gömülmüşlər.*



***

M. Hadinin yaxın dostlarından biri də A.Şaiq idi. O, dostu Hadinin içkiyə aludə olduğunu söyləyib, dostcasına tənqid etdikdə, şair mütəəssir bir halda:

– Eh, Şaiq, həyatı başdan-başa facıələrlə keçmiş bir bədbəxtdən nə gözləyirsən! – söyləmiş və acı-acı ağlamışdır.

***

Şeirlərində qadın azadlığını ehtirasla müdafiə edən Hadi, ömrü boyu evlənməyə laqeyd münasibət bəsləmişdir. Şair qohumlarından birinin qızına vurulmuş, qız isə başqasına ərə getmişdi. İlk eşqi Hadinin qəlbində sağalmaz iz buraxmışdır. Evlənmək haqqında söhbət olanda, şair deyərmiş:

– Allah bəlalarını versin, bu qadınlarda bizi anlayacaq baş, hiss edəcək ürəkmi var?!

***

Hadi məğrur şəxsiyyət idi. O, hələ tələbə ikən mollalığa hazırlaşdığı halda, mövhumata qarşı ciddi çıxışlar edirdi. Bir gün mübahisə vaxtı, bəziləri şəhərin, bəziləri isə kəndin şərafətli olduğunu söyləyir. Bir nəfər deyir:

– Kənd şərafətlidir, çünki şeyxlərin hamısı kənddən çıxır.

O zaman şeyxlərin çox vaxt kəndlərdən çıxdığını, təriqətçiliyin əsasən, kəndlərdə yayıldığını bilən Hadi bu hadisələrə işarə edərək, həmin bir nəfərə ikibaşlı cavab vermişdir:

– Bəli, şeyx dediyin kəs kəndlərdən çıxır, onun şəhərlərdə nə işi var?!

***

Bir gün Hadi ilə A.Şaiq küçədə gedərkən, Hadi dayanır, üst-başına diqqətlə nəzər salıb Şaiqdən soruşur:

– Şaiq, üstümdə lüzumsuz nə var?

Söylədiklərindən bir şey başa düşməyən Şaiqin heyrətləndiyini görən Hadi sualını təkrar edir:

– Diqqətlə bax, lüzumsuz heç bir şey görmürsənmi?



– Yox, görmürəm.

Hirslənmiş Hadi dostuna acıqla baxır:

–Siz də həyatın giyudatına o qədər bağlanmısınız ki, gözləriniz lüzumlunu lüzumsuzdan seçə bilmir, - deyə əli ilə jiletini çəkərək: - Bu mənim nəyimə lazımdır? – söyləyir.

Şaiq məsələni anlayır. Pul təklif etsə də, Hadi qəbul etmir. Evə qonaq dəvət etdikdə, getmir.

– Yox, qardaşım, bu gün öz səmalərimdə uçaraq, günəşimin ziyalarını örtən buludları parçalayıb dağıtmaq istəyirəm, xudahafiz, - deyə dostundan ayrılır.

***

Hadi çox vaxt, xüsusən kefli vaxtlarında vərəqələrdə çap olunmuş şeirlərini özü satarmış. Bir gün sərxoş halda Şaiqə rast gəlir, "Hərarətli şeirlərim" adlı mənzuməsini ona uzadır:

– Al, beş manat ver!

Şaiq cibində olan on manatı ona verir. Hadi on manat verəni diqqətlə süzdükdə, Şaiqi tanıyır, pulu geri qaytarıb, onu qucaqlayır, gözləri yaşarır; mütəəssir halda deyir:

– Şaiqciyim, bağışla, tanımadım.

***

Məhəmməd Hadi demişdir:

– Həyatın pək qərib fəlsəfəsi də vardır. Ölülərə kəfən və məzar bulunduğu kimi, vəfat edən şairlərin də əsərlərinə çox-çox naşir, çox-çox müştəri bulunur. Fəqət zavallı şüəranın həyatında əsərlərinə naşir və müştəri qəhətliyi təbiidir. Böylə deyilmi, ey möhtərəm oxucularım?!

*Varlıqda olurlar hədəfi tiri-bəlanın,*
*Öldükdə əyan olmada fəzli şüəranın.*





## ƏLİQULU NƏCƏFZADƏ QƏMKÜSAR
## 1880-1919

Ə. Qəmküsar: "Sabir belə gəldi, belə getdi, belə yazdı, belə dedi" – sözlərini təkrar edənlərə qarşı, onun öz şeirlərini misal gətirir və türk şairi Ziya Paşadan çox sevdiyi misraları söyləyirdi:

*Ayinəsi işdir kişinin, lafə baxılmaz,*
*Şəxsin görünür rütbeyi-əqli əsərində.*

***

Ə.Qəmküsar 1919-cü ildə menşeviklər tərəfindən gizli, arxadan atılan güllə ilə öldürüldükdə, onun qələm dostu Ə. Haqverdiyev demişdi:

– Əliqulu Nəcəfzadəyə dəyən güllə, "Molla Nəsrəddin" məcmuəsinin ürəyinə dəydi!



## ABDULLA ŞAİQ
1881-1939

1909-cu ilin yayında Nəcəf bəy Vəzirovun təklifi ilə Abdulla Şaiq də öz ailəsi ilə Dağıstanın Daşlaqar yaylağına gedir. Bir gün Nəcəf bəy Daşlaqarın mənzərəli bir guşəsində qonaqlıq verir. Dağıstanın göz işlədikcə uzanan yaşıl bağları, qalın və sıx meşələri, uca və qarlı dağları görünən mənzərədən vəcdə gəlir, üzünü A. Şaiqə tutaraq deyir:

– Bala şair, birinci söz sənə verilir, məclisin də bilirəm etirazı olmaz. Bu mənzərəyə yaxşı bax, elə bir şeir de ki, Daşlaqardan bizə bir yadigar qalsın.

Nüfuzedici tərzdə söylənən sözlərdən və ətraf gözəlliklərindən ilhama gələn A. Şaiq əlində



qədəh ayağa qalxır, azca düşündükdən sonra bədahətdən deyir:

*Aşiqəm Daşlaqarın dağlığına,*
*Meşə, ormanlığına, bağlığına,*
*Baxınız bir plovun ağlığına,*
*İçəyin Nəcəf bəyin sağlığına.*

***

Bir gün Abdulla Şaiqin gənc dostlarından biri ondan soruşur:

–Şaiq müəllim, həyatınızda sizə ən çox təsir edən hadisə nə olmuşdur?

Şaiq gülümsəyərək cavab verir:

– Əlbəttə, mütəəssiredici hadisələri çox görmüşəm. Lakin uşaq vaxtı Xorasanda gördüyüm dəhşətli bir hadisə indi də yadıma düşəndə ətim ürpəşir. Xorasanda Payin Xiyaban deyilən yer var. Orada canilərin başını kəsirdilər. Bir dəfə günortaüstü məktəbdən çıxıb, uşaqlarla Payin Xiyabana getdik. Çayın o tərəf, bu tərəfi adamla dolu idi. Biz də maraqlanıb adamların yanına yüyürdük. Çayın sol tərəfində bir kişinin qollarını üç haçalı qalın bir kötüyə bağlamışdılar. O, başını ortadakı haçaya dayayıb iztirab, qorxu ilə dolu gözlərini gah açır, gah da yumurdu. Onun başı üstə qırmızı geyimli, belinə iri bir behbud keçirmiş mirqəzəb durmuşdu. Mirqəzəb camaatdan

pul yığandan sonra, belindəki behbudu qınından çıxardı. Birdən iki barmağını kişinin burun deşiklərinə soxub, başını özünə tərəf qanırdı, dərhal behbudu onun boğazına çəkdi. Bir anda qan fışqırdı... Mən bu dəhşətli mənzərəni görcək gözlərimi yumub qaçdım. O gecəni səhərə qədər qorxudan gözümü yuma bilmədim. Xəstələndim, üç gün yorğan-döşəkdə yatdım. Müəllimim Mirzə Yusif ora getməyimi bilincə, mənə acıqlandı.

- Bir də elə yerlərə getsən, ayaqlarını falaqqaya salacağam, - söylədi. Qorxudan bir də o tərəflərə üz çevirmədim.

- Doğrudan da dəhşətlidir, - deyə gənc dostu Şaiqi təsdiq edir.

***

A. Şaiqi gəncliyində, 1902-ci ildə ilk dəfə bir müəllim kimi sinifə gətirib təqdim edən Ə. Haqverdiyev olmuşdur. O, Haqverdiyevlə uzun müddət bir yerdə çalışmışdır. Çoxlu lətifə bilən Haqverdiyev ara-sıra onlardan danışar və müəllim dostlarını güldürərmiş. A. Şaiq deyərdi ki, Haqverdiyevin lətifələri bəzən məni çətinlikdən qurtarardı. O söyləyir:

- Məsələn, mənim "Ana" pyesimdə istifadə etdiyim aşağıdakı lətifəni ilk dəfə Haqverdiyevdən eşitmişdim: Bir kəndlinin iki arvadı varmış, birinin adı Şövkət, o birininki Şəhrubanu imiş. Kişi birini Şap, o birini Şup çağırarmış. Günülər bir yerdə yola getmədiklərindən, kişi arvadlarının birini kəndin ortasından axan çayın o tayında, birini isə bu tayında saxlayırmış. Bir gecə o, Şupun evindən çıxıb Şapın evinə getmək istərkən, ensiz körpüdən ayağı sürüşür, kişi çaya düşür. Nə qədər çalışır, çaydan çıxa bilmir. Coşqun çay az qalır ki, onu aparsın. Kişi özünü zornan saxlayır, çaydan çıxmaq üçün əl-qol ataraq deyir:

*Şup elə bilir ki, şapdayam,*
*Şap elə bilir ki, Şupdayam.*
*Nə Şapdayam, nə Şupdayam,*
*Burda şarap-şurupdayam.*

***

Abdulla Şaiqin sevimli şagirdlərindən biri də Cəfər Cabbarlı olmuşdur. Bir dəfə sinifdən çıxıb, müəllimlər otağına gedən Şaiqin qarşısına balaca Cəfər çıxır. Üzü Şaiqə tərəf, danışa-danışa, dalı-dalı yeriməyə başlayır. Uşağın bu hərəkəti müəllimə qəribə görünür. Heç gözlənilmədən deyir:

- Cəfər, sən ya çox böyük adam olacaqsan, ya heç bir şey. Ancaq birincidən olmağa çalış.



## HÜSEYN CAVİD
## 1882-1937

Orta məktəb dərsliyində Hüseyn Cavidin tərcümeyi-halını yazmaq məqsədilə A. Şaiq məlumat almaq üçün ona müraciət etdikdə, şair zarafatla deyir:

– Yaz ki, dimdiyinin sarısı getməmiş sərçə balasıdır.

***

Hüseyn Cavid gözəl qadını, qızı göydən enmiş mələk sayırdı. Günlərin birində, müəllim Hüseyn Cavidin yanına gözəllik ilahəsi qədər füsunkar, lakin bilikdən dayaz bir qız imtahana gəlir. Suallara cavab verə bilməyən qızın xarici



gözəlliyi şairin gözlərini qamaşdırır. Qız yalvarırmış kimi dillənir:

– Müəllim, xahiş edirəm, mənə pis qiymət verməyəsəniz.

Şair ilhama, vəcdə gəlir:

– Qızım, Tanrı səni yaradanda "beş" qiyməti verib, mənim nə ixtiyarım var Yaradanın qiy-mətini korlayım, - deyə, qıza "beş" yazır.

***

Hüseyn Cavidin istedadlı gənclərə xüsusi məhəbbəti vardı. O, Mikayıl Müşfiqi, Səməd Vurğunu xüsusi ilə çox sevirdi. Bir dəfə Cavidin yanına çoxlu gənc şair gəlir. Onlardan biri, Cavidə pərəstiş edən bir nəfər, böyük şairə müraciətlə söyləyir:

– Cavid müəllim, sizin yanınıza çox adam gəlir. Onlar sizin işləməyinizə mane olmurmu? Siyahı tərtib edin, kim lazımsa, ancaq onları buraxın.

Cavid gülümsəyir:

– Onda siyahıya iki gəncin adını yazın: Mikayıl Müşfiq, Səməd Vurğun ...

– Bəs niyə Səməd Vurğun?

– Səmədin şeirləri rəvandır, bulaq kimi axır... Onun simasında mən gələcəyin böyük sənətkarını görürəm ...

– Cavid müəllim, axı, o, səliqəsizdir, geyinib-keçinməyinə fikir vermir.

Hüseyn Cavid gülür:

– O da şairin bir məziyyətidir.

***

Hüseyn Cavid səliqəli geyinməyi sevərdi. Onun ayaqqabısı həmişə par-par parıldayardı. Bir gün şair palçığa bulaşmış ayaqqabısını çəkməsilənə sildirəndə sildirəndə görür ki, çəkməsilən onun üzünə baxıb gülümsəyir. Şair xəbər alır:

– Yaxşı oğlan, niyə bic-bic gülürsən?

Çəkməsilən gülümsəyə-gülümsəyə, həm də utana-utana söyləyir:

– Bağışlayın, Cavid Əfəndi, siz mənim müəllimim olmuşsunuz.

Hüseyn Cavid əllərini bir-birinə vurub şaqqıldayıb deyir:

– Düz deyirsən bala, mənim tələbələrim ya çəkməsilən, ya da pivəsatan olur.



***

Hüseyn Cavid yaxşı nərd oynayırdı. İstedadlı gənc şair Mikayıl Müşfiqlə oyundan xüsusi zövq alar, çox zaman onu udar, udan kimi də təkrar edərdi:

– Bu da şeir deyil ha, yaza bilməyək.



## ÜZEYİR HACLBƏYLİ
## 1885-1948

İnqilabdan əvvəl "Aşıq Qərib" operası oynanılarkən, səhnəyə uzunqulaq da çıxarırlarmış. Bir dəfə necə olursa, uzunqulaq olmur və antreppenyor (teatrın sahibi) iki ayağını bir başmağa dirəyib deyir:

– Eşşək gəlməyincə pərdənin qalxmasına icazə vermərəm.

Artistlər onun inad etdiyini, tamaşanın başlanmasına izn vermədiyini Üzeyir Hacıbəyliyə xəbər verirlər. Bəstəkar əsəbiləşir:

– Ona deyin ki, səhnədə bir eşşək varsa kifayətdir, ikinciyə ehtiyac yoxdur.



***

Sənətkar barədə Üzeyir Hacıbəyli fikrini aydın ifadə edərək, demişdir:

– Gərək şəkil elə çəkilsin ki, daha onun altında "bu, atdır" sözünü yazmağa ehtiyac qalmasın.

***

Bəstəkar "Koroğlu" operası üzərində çalışdığı vaxt, bəzən gecələr evə gec gələrmiş. Bir ax-şam Üzeyirin anası Şirinbacı xanım narahat halda üzünü Məleykə xanıma tutur:

– Gəlin, ay gəlin, saat 12-yə işləyir, uşaq axı gəlib çıxmadı.

Məleykə xanım təəccüblə:

– Hansı uşaq? – bir az sözünə ara verib, sonra əlavə edir:

–Üzeyiri deyirsən?

– Hə də, bəs kimi deyirəm?

Hamı gülür. Üzeyir böyük bəstəkar kimi şöhrətlənmişdi, amma anası üçün yenə də uşaq idi.

****

Üzeyir bəy dirijorlar haqqında deyirdi:

– Dirijor var ki, partitura onun başında olur. Dirijor var ki, başı partiturada olur. Dirijor var ki, başına partitura ilə vurmaq lazım gəlir.

***

Üzeyir Hacıbəyli Azərbaycan Dövlət Konservatoriyasının direktoru olanda, rəssam Mikayıl Abdullayev teatr muzeyi üçün bəstəkarın şəklini çəkmək tapşırığını alır. İlk çəkilən portret bəstəkarın xoşuna gəlir və ona hədiyyə olunur. Rəssam ikincisini çəkməyə başlayır. O, Üzeyir bəyi iş kabinetində, masa arxasında çəkməli olur. Bu əməliyyat bir neçə gün davam edir. Bəstəkara soyuq dəyir, işə çıxmır. Rəssam portreti çəkib qurtarır və rənglərin quruması üçün onu elə kabinetdə, masa arxasında kürsünün üstə, divar xalçasına söykəyib gedir. Ertəsi gün Üzeyir evdən konservatoriyaya zəng vurub nə isə soruşur. Bununla əlaqədar olaraq, kabinetin açarını xidmətçi qadına verirlər ki, nəyi isə gedib gətirsin. Xidmətçi qadın qapını açıb içəri girir, tez də geri dönüb direktorun özünün gəldiyini xəbər verir. Təəccüblənirlər. Ona görə ki, Üzeyir bəy xəstədir, həm də bu tezlikdə gələ bilməz. Kimsə tez gedib kabinetin qapısındakı açar deşiyindən baxıb görür ki, Üzeyir bəy doğrudan da öz yerindədir. Bu dəfə tədris hissə müdiri özü gedib kabineti açanda əvvəlcə çaşır, sonra masa arxasında Üzeyir bəyin portreti olduğunu görüb gülməyə başlayır. Bu əhvalat yayılır, bəstəkar eşidən kimi rəssamı çağırıb deyir:

– Oğlum, ikinci portret özü müəllifsiz imtahandan çıxdı, çox sağ ol!

***

Bir gün Üzeyir Hacıbəyli cib saatını yadından çıxarıb, haradasa qoyur. Evdə saatı axtarır, tapmır. Ondan nə axtardığını soruşduqda, sakitcə cavab verir:

– Yaxşı oldu itdi. Qayışı çox köhnəlmişdi.

***

Üzeyir Hacıbəyliyə özündənrazı idarə rəhbərlərindən biri zəng edir:

– Hörmətli Üzeyir bəy, sizin bəstəkarlardan ikisi bizdə işləyir, amma heç cür yola getmirlər. Biri-birinə nalayiq sözlər deyirlər...

– Məsələn, nə deyirlər?

– Bir-birini eşşək adlandırırlar.

Üzeyir tez onun sözünü kəsir:

– Bəs necə idarə rəhbərisən ki, iki eşşəyin arpasını bölə bilmirsən?!

***

"Arşın mal alan" filmi çəkiləndə, operettanın musiqisini orkestrə etmək lazım idi. Musiqi müasir orkestrin müxtəlif alətlərinin dilində əlvan rənglərlə səslənməli idi. Bir dəfə Üzeyir bəyi kinostudiyaya dəvət edir, "Arşın mal alan"-dan orkestrə edilmiş parçaları çalırlar. Mu-siqini dinlədikcə, Üzeyir bəyin qaşları çatılır, əli ilə bığlarını didişdirir. Əsəbiləşmiş bəstəkar dərin bir sükutdan sonra heç kəsə baxmadan deyir:

– Mənim övladım yoxdur. Əsərlərim mənim balalarımdır. Nə üçün onu bu kökə salmısınız?!

Üzeyir bəy haqlı bir qısqanclıqla əsərlərini – balalarını hər cürə təcavüzdən, "yenilikdən", "müasirləşdirməkdən" qoruyurdu.





## SEYİD HÜSEYN
**1887-1937**

Seyid Hüseyn sadə və təvazökar adam idi. Təmiz geyinərdi. Sakit təbiəti vardı, dostları ona "Məzlum ağa" deyərdilər. Gözü eynəkli, əli əsalı, həmişə hara isə tələsik addımlayan ədibin xarici mülayimliyi arxasında sözünü açıq deyən, prinsipli bir tənqidçi dururdu.

Bir dəfə, cavan dramaturqlardan biri Seyid Hüseyni, Çəmənzəminlini, Hacıbaba Nəzərlini və Süleyman Rüstəmi evinə qonaq aparır. O, qonaqlara qutabdan tutmuş plova qədər ləziz xörəklər verir.

Cavan dramaturq yeməkdən əvvəl təzə yazdığı bir əsəri oxuyur. Xörəklər yeyilir, sonra əsərin müzakirəsinə başlayırlar. Həmişə olduğu

kimi, burada da ilk sözü Seyid Hüseyn başlayır. O, üzünü gənc dramaturqa tutub deyir:

– Doğrudur, dadlı qutabınızı, plovunuzu yemişəm. Buna görə sizə, xörəyi bişirənə təşəkkürümü bildirirəm. Amma oxuduğunuz əsər isə çox zəifdir, ortaya çıxmalı deyil.

Sonra o, əsəri təhlil edib müəllifi inandırmağa çalışır. Amma gənc dramaturq yaman pərt olur, özünə gələ bilmir.





## YUSİF VƏZİR ÇƏMƏNZƏMİNLİ
## 1887-1943

Yazıçı xatirələrində yazır: "Anam ço-cuqluğumda məni atıb-tutar, mənə bəslədiyi məhəbbətini yalnız bu sözlərlə təkrar-təkrar ifadə edərdi:

*"Mən anamın ilkiyəm,*
*Ağzı qara tülküyəm"*

***

Uşaq çağlarında Yusif Vəzir atasının kasıblıqdan şikayətini aşağıdakı şəkildə xatırlayır:

– Ədə, pələcək vurma, başmaq yırtıldı!
– Ədə, ağaca dırmanma, şalvar yırtıldı!
– Ədə, az ye, çörək qurtardı!

***

Atası Yusif Vəziri uşaq ikən Molla Səlim adlı bir nəfərə mürid etmək istəyir. Lakin uşaq Molla Səlimin yanına getmir. Səbəbini soruşduqda, uşaq atasına qətiyyətlə deyir:

- Getmirəm, çünki mənim boynuyoğun və insafsız adamla işim yoxdur.

***

Yusif Vəzir gənc ikən Aşqabadda Asiya adlı bir qıza dəlicəsinə vurulur. Qız da onu sevir. Bu əhvalatdan yoldaşları da xəbər tutur.

Bir gün cavan dostlar xəlvəti bir otağa çəkilib Kaxetiya şərabı içirlər. Yusif Vəzirə nə qədər təkid edirlərsə, içmir:

- Fanatik olma, iç.

- Fanatik deyiləm, amma ömrümdə heç içmədiyim üçün, adətimi pozmaq istəmirəm.

Nəhayət, yoldaşlarından biri qədəhi ona uzadıb gülümsəyərək deyir:

- Asiyanın sağlığına.

Yusif Vəzir də gülümsəyərək, qədəhi alır:

- Yaşasın! – söyləyib ilk dəfə şərab içir.

***



Yusif Vəzirin atası namaz qılmazmış. Bir səhər onlarda qonaq qalmış bir Hacı namaza başlar-başlamaz, atası da canamazı çıxarıb namaza durur. Qonaq gedəndən sonra, canamaz da ortadan götürülür. Yusif Vəzir atasına sual verir:

- Ata, bəs niyə həmişə namaz qılmırsan?

Atası isə cavabında deyir:

- Allah mənə patronu onun üçün verməyib ki, atıb korlayım, eşşək görəndə atıram.

***

Yusif Vəzirin atasının dükan qonşuluğunda Hacı Məlik adlı riyakar bir sövdəgər vardı. Axşamlar namaz qılanda səsi karvansaranı bürüyərdi. Gündüzlər isə qonşularının toyuqlarını dükanın dalına salar, yumurtladıb buraxardı. Bir gün Yusif Vəzir atasına sual verir:

- Ata, sən ki sofiməzhəbsən, bəs oruc niyə tutursan?

- Elə bilirsən, Allahdan qorxuram?! Qorxum bu köpək oğlu Hacı Məlikdəndir ... – deyir.

***

Yusif Vəzir Fransada mühacirətdə yaşayarkən vəziyyəti son dərəcə ağırlaşır. Hətta gündəlik çörək pulunu belə qazana bilmir. Günlərin bir günü Parisdən kənarda kiçik bir şəhərin küçələrini dolanarkən, Rusiyada bərabər tələbəlik etdiyi Xristofor adlı birinə rast gəlir. Görüşüb, öpüşürlər:

- On yeddi il əvvəl desəydilər ki, bir zaman Parisin kənarında, kiçik bir şəhərdə görüşəcəyik, – inanmazdıq. Gör həyat nə qəribədir...

Xristoforun da vəziyyəti çox pis imiş. Hər ikisinin cibi boş, qarnı ac.

Dostu Yusif Vəzirdən pul almağa ümid yeri olub-olmadığını soruşduqda, o, cavab verir:

- Var, burada bir rus mühərriri var, qaçqınlardandır. Bir qəzetə "Şərq məktubları" yazır. Məlumatın çoxunu məndən alır, əvəzinə qazandığının 25 faizini mənə verir.

Beləliklə, onlar həftədə bir dəfə görüşüb, bir dəfə doyunca çörək yeyərmişlər ...



***

Bakıda Çarli Çaplinin filmləri təzə gedəndə, uşaqlar küçədə Yusif Vəziri Çaplinə oxşadır, bəzən də arxasınca düşürdülər. Bu hadisə yazıçıya xoş gəlir, onu əyləndirirdi. Bir gün o, işlədiyi "Azərnəşr"ə gələndə, görürlər ki, öz-özünə gülür. Səbəbini soruşanda belə cavab verir:

- İndi küçə ilə gedəndə, gördüm bir uşaq mənə diqqətlə baxır. Yerişimi dəyişib, Çaplin kimi yeriməyə başladım. Uşaq gülmək əvəzinə ağladı. Anası da çalışdı, onu sakit edə bilmədi. Mən yazıq arvada kömək eləməkçün onlara yanaşdım, Çaplinsayağı şlyapamı çıxarıb oğlana salam verdim, bığlarımı da oynatdım. Uşaq bir az da bərkdən ağladı. Anası oğlunu qucaqlayıb dedi:

- Ağlama bala, qorxma, əmi dəli deyil, yəqin bekardır, işi yoxdur, özünü Çarli Çaplinə oxşatmağa çalışır.



HACIBABA NƏZƏRLİ
1895-1937

*(bəzi mənbələrdə 1938-ci ildə xalq düşməni kimi güllələndiyi deyilir)*

Sabir tanınmasın deyə, tez-tez imzalarını dəyişirdi. "Molla Nəsrəddin" məcmuəsində "Hop-hop" təxəllüsü ilə yazan şairin dönüb "Əbunəsr-Şeybani" olmasını şairin tələbələri də duymuşdular. Onlardan biri də H. Nəzərli idi. O, bir kağıza aşağıdakı şeiri yazıb müəllimin masası üzərinə qoyur:

*Qorxdu, dönübən oldu*
*Şeybani bizim Hop-Hop.*
*Axır ki, dağıdacaq*
*Şirvani bizim Hop-Hop.*



Şair şeiri oxuyub gülümsəyir:

– Yaxşı şeir yazırsan. Səndən bir şey çıxacaq.

***

Bir gün Sabir H. Nəzərliyə deyir:

– Bağban ilə turpun hekayəsini nəzmə çək, gətir baxım.

H. Nəzərli sevincək müəlliminin tapşırığını yerinə yetirir:

*Qoca bağban beş-altı turp əkdi,*
*Bəxtü bivəxt zəhmətin çəkdi.*
*Gəldi bir gün çıxarmağa turpu,*
*Gördü turp çıxmayır, olub zırpı.*



## ƏLİAĞA VAHİD
## 1896-1969

Ə. Vahid gənc yaşlarında ilk dəfə mətbəəyə gedir. Mürəttiblər gənc şairə mətbəədəki rütubətdən, zirzəmidəki sudan şikayət etdikdə, o, bədahətən onlara belə cavab verir:

*Mətbəənin altında var zirzəmi,*
*Salsan üzər içində dorsuz gəmi.*

***

Cümhuriyyətin çətin vaxtlarında şairin yaxın dost-larından biri ona rast gəlir və ondan nə üçün şeir yazmamasının səbəbini xəbər alır. Vahid za-rafatyana dostuna söyləyir:

*Tutalım, əsrimizin Həzrəti Musası mənəm,*
*Bu soxa-soxda necə möcüzə icad eləyim.*



***

Şair onun qəlbinə toxunanlardan birinə söyləmişdi:

*Qəlbimin şişəsinə bircə qanad dəysə sınar,*
*Yoxsa ki, put gələni zollaginən qabırğama.*

***

Rəvayətə görə Vahidin sevdiyi gö-zəllərdən biri əvvəl onu bəyənməmiş, sonra isə peşman olub şairlə yaxınlıq etmək istədiyini məktubla bildirdikdə, şair ona:

*Dəyişmişəm, gözəlim, indi sən deyən deyiləm!*
*Get hər kiminlə gəzirsən gəz, inciyən deyiləm! –*

misraları ilə başlayan qəzəlini yazıb, cavab kimi göndərmişdi.



## CƏFƏR CABBARLI
**1899-1934**

Cəfər başqalarının təkidi ilə universitetin tibb fakültəsinə daxil olur, bir il oxuyandan sonra, "sür-sümükdən iyrənirəm"-deyib oranı buraxır.

***

20-ci illər idi. Cəfər "Kommunist" qəzeti redaksiyasında Süleyman Məlikovla bərabər tərcüməçi işləyir və onunla dostluq edirdi. Bir yay gecəsi, Cəfər dostu Süleymangilin Pirşağıdakı bağlarında oturub onunla nərd oynayırdı. Bir də görürlər ki, açıq pəncərədən iri bir böv cəld irəliləyişlə üstlərinə gəlir. Hər ikisi - Cəfər də, Süleyman da çaşıb qalırlar və tez pəncərəyə çıxırlar.



Süleymanın qışqırığına onun böyük qardaşı Tağı qonşu otaqdan gəlir:

- Nə olub?

Cəfər gözlərini qıyaraq böv olan yerə baxır:

–Mirzə Tağı, bizdən kiçik olsa da, orada bir şey var, bizi qatıb qabağına çıxarıb pəncərəyə.

Mirzə Tağı ətrafına baxır, bövü qapının ağzında tapır və nəleyininin bir tayını çıxarıb onu öldürür. Cəfər tez pəncərədən yerə düşüb zarafatla Süleymana deyir:

–Nə qorxaqsan, bizi Tağı qardaşın yanında biabır etdin!

Hər üçü qəhqəhə ilə gülüşür.

***

Cəfər Cabbarlı qohumcanlı idi. Anasını, qardaşlarını çox sevirdi. 1924-cü ildə o, anasının ölümünə məşhur "Ana" şeirini, qardaşının ölümünə isə:

*"Ölmək! O geniş körpünü hər kəs keçəcəkdir,*
*Bir badə ki, ondan bütün aləm içəcəkdir!"-*

beyti ilə başlayan şeirini yazmışdır.

Cəfər "Sevil" əsərini yazmamışdan bir-iki ay əvvəl, işdən gələndə də, oturanda da, yatanda da, işləyəndə də aşağıdakı mahnını ya oxuyar, ya da zümzümə edərmiş:

*Sənə nə olub zalım yar,*
*Qadan-balan alım yar.*
*Sən ki, belə deyildin,*
*Səni bir öyrədən var.*

***

"Sevil" üzərində Cəfər ən çox Altıağacda işləmişdir. O, evdə tapşırır ki, nəbadə yazdıqlarını oxusunlar. Lakin ciddi tapşırıq yoldaşı Sona xanımı və qardaşı qızı Mələyi daha da həvəsləndirir. Onlar Cəfər evdə olmadıqda, biri pusquda durub yazılanları növbə ilə oxuyurlar. Bir gün Cəfər hər ikisini "oğurluq" üstdə tutur:

–Balam, mən sizə deməmişdim ki, mənim dəftərimi oxumayın? Bu dəfə sizi bağışlayıram. Ancaq deyin görüm, necədir? Əsər xoşunuza gəlirmi? Yadınızda bir şey qalıbmı? Yoxsa oxuyub qurtaran kimi yaddan çıxır?

–Qiyamət əsərdir, ay Cəfər əmi, lap əntiqə yazmısan. Daha bundan olmaz!- deyə, Mələk sevincək cavab verir.



Cəfər gülümsəyir:

Daha durub deməyəcəksiniz ki, pisdir. Birinizin əmisiyəm, birinizindəki ki...

***

Cəfər Altıağacda "Sevil" pyesini qurtaran günü Sona xanımla belə bir şərt kəsir:

–Sonası, bilirsən nə var? Bu gün səhərdən axşama kimi nə evə girin, nə də məni çağırın, heç kimi də otağıma buraxmayın!

Saat beşə kimi nə evə girən olur, nə də qapını döyən. Saat alyıya yaxın Bakıdan bir nəfər, Cəfərin qohumlarından Şəmsəddin Abbasov gəlir. Sona ürəyi döyünə-döyünə qapını taqqıldadır:

Ay Cəfər, Şəmsəddin gəlib, qapını aç!

Şəmsəddin Cəfərlə görüşüb təcili başqa kəndə gedir. Cəfər eyvana çıxır:

–Sonası, üş dəqiqə gecikə bilməzdin, fikrimi dağıtdın. Əsəri qurtarırdım. İndi mən üç dəqiqəlik işim üçün bir neçə gün oturmalıyam.

Sonralar "Sevil" tamaşaya qoyulanda, Cəfər həmişə deyərmiş:

–"Sevil"in axırını Şəmsəddin korladı. Sonu heç də belə çıxmazdı...

***

Cəfər Cabbarlının yaxşı bir adəti də vardı. O, yazdığı hər bir səhnə əsərini artistlərə oxuyar, onların fikrini öyrənər, həm də hansı obrazın, hansı artistin nəzərdə tutularaq yazıldığını deyərdi. "Sevil" ilk dəfə oxunduqda, Mərziyə xanım dramaturqdan soruşur:

–Cəfər qardaş, mən hansı rolu oynayacağam?

Həmişə baş rolda oynamağa adət etmiş Mərziyə xanım bu dəfə Cəfərdən belə bir cavab alır:

–Mərziyə xanım, mən Gülüş obrazını yazarkən, sizi nəzərdə tutmuşam. Bu rolu siz yaxşı oynayarsınız.

Belə olduqda, Mərziyə xanım Cəfər bəyə yalvarır:

–Cəfər qardaş, çox xahiş edirəm, əgər mümkünsə, icazə verin Sevili oynayım.

Artistin pərt olduğunu görən Cəfər gülə-gülə ona deyir:

–Yox Mərziyə xanım, siz yaxşı bilirsiniz ki, mən rol bölgüsündə çox qəddaram.



Mərziyə xanım ağlaya-ağlaya yenə inad edir:

–Hazırlaşaram, heç olmasa bir dəfə oynayaram, əgər xoşunuza gəlməsə... –cümlənin davamını gətirə bilmir.

Cəfərin ürəyi kövrəlir, ayağa qalxaraq Mərziyə xanımın əllərini sıxır:

Neyləyim, mən Gülüşü də sevirəm, Sevili də, sizi də, qoy siz deyən olsun, Sevili oynayın.

"Sevil"in ilk tamaşasının birinci pər-dəsindən sonra C. Cabbarlı Mərziyə xanıma yanaşıb dönə-dönə əllərini sıxır:

–Sağ ol Mərziyyə xanım, sən Sevili sevərək yaratdın. Çox sağ ol, yaşa!

***

Cəfər Cabbarlı işlədiyi vaxt çoxlu çay içərdi. Həyat yoldaşı həkimlərin tapşırığı ilə çayın sayını azaltmağı qərara alır, bəhanəsi də bu olur:

–Ay Cəfər, çayı az iç, bağ yeridir, qəndimiz azdır.

Sona xanım ikinci stəkanı gətirəndə, Cəfər ona bir kağız verir. Kağızda yazılanları oxuduqda möhkəmcə gülür:

*Ay Sonası, çay gətir mənimçün,*
*Qələndərəm, pay gətir mənimçün.*
*Bağ yeridir, qəndi çox işlətmərəm,*
*İstəyirsən, say, gətir mənimçün.*

***

"Sevil" tamaşaya qoyulanda, çadra əleyhinə kampaniya aparılırdı. Cəfər bəy xanımı Sonaya deyirdi:

–Ay Sonası, əvvəl-axır çadranı atacaqsan. Sonradan atınca, məhəlləmizdə hamıdan əvvəl atsan yaxşıdır.

Bir gün poçtalyon Sonaya xəbər verir:

–Sona bacı, şəklin qəzetdə çıxıb.

Sona çox təəccüblənir:

–Ola bilməz.

–Ay Sona bacı, məgər mən səni tanımıram, mənə nə düşüb yalan danışam.

Bu yerdə Cəfər söhbətə qarışır:

–Balam, kişi düz deyir də, çadranı at-mısan, özü də bu barədə qəzetdə yazın çıxıb. Hələ özündən başqa, qonşuları da çadralarını atmağa çağırırsan. Daha bu kişi ilə höcət niyə edirsən?

Poçtalyon gedəndən sonra Sona davaya başlayır və ağlayır da:



–Mənim şəklimi niyə qəzetə vermisən? Mən nə vaxt çadramı atmaq barədə məqalə yazmışam?

Cəfər onu sakitləşdirir:

–Sonası, çadranı atmırsan atma, daha niyə ağlayırsan. Sənin özün üçün yaxşı deyil, deyərlər özü məqalə yazıb, hay-küy qaldırıb ki, çadramı atıram, amma yenə də çadrada gəzir. Elə mənim özüm üçün də yaxşı deyil, mən çadra əleyhinə əsər yazım, sən çadrada gəz. Yaramaz axı!

Beləliklə, Sona xanım və Cəfərin qardaşı qızları çadranı atırlar.

***

Bir dəfə Cəfər Sona xanımla mərc edir. Şərtləri də belə olur: əgər Cəfər udsa - arvadı onun üçün bir cüt corab alsın; əgər Sona xanım udsa - əri onun üçün bir cüt sırğa (şübhəsiz ki, qiymətli qaş-daşı olan qızıl sırğa) alsın. Mərc bir neçə gün davam edir, lakin, nə Cəfər uda bilir, nə də Sona xanım. Hər dəfə hansı biri, o birisinə bir şey verdikdə, dərhal deyir ki, "yadımdadır".

Bir gün nahar vaxtı telefon zəng vurur. Sona xanım divardan asılmış telefon dəstəyini qaldırır, kiminsə Cəfərlə danışmaq istədiyi mə-

lum olur. Sona xanım fürsətdən istifadə edərək, tələsik dəstəyi telefonun yanında oturub xörək yeyən Cəfərə uzadır. Cəfər telefon dəstəyini alan kimi, Sona xanım tez qışqırır:

–Apardım!

Cəfər dərhal əlindən buraxdığı və telefondan asılı qalmış dəstəyi göstərib deyir:

–Bu kov deyil, çünki dəstəyin quyruğu divardadır.

***

Cəfərin qızı balaca olanda, səhərlər öz darağı ilə atasının saçını darayırmış. Bir gün necə olursa, ata ilə bala şirin-şirin əyləndiklərindən, daraq yadlarından çıxıb Cəfərin başında qalır. Cəfər teatra işə gəlib palto və kepkasını çıxaranda, onun saçında yarım dairəvi, uzun dişli darağı görən aktyorlar təəcüblə soruşurlar:

–Bu qadın darağı saçında nə gəzir, ay Cəfər?

O da özünü itirmədən cavab verir:

–Qadın deyil, qız darağıdır; saçımı Gülarənin saçı ilə dəyişik salmışam.

***



1928-ci il idi. Günlərin birində, Hüseyn Cavidin "Şeyx Sənan" əsərinin tamaşasına yarım saat qalıbmış. Şeyx Sənan rolunun ifaçılarından Abbas Mirzə xəstə imiş, Ülvi Rəcəbi isə teatr müdiriyyəti tapa bilmirmiş. Tamaşanı təxirə salmaq qorxusunu görən Cəfər bəy rejissor Əlihüseyn Rzayevə deyir:

–Gəlsənə, Sənan rolunu mən oynayım?

–Sözlərini bilirsənmi?

–Bilirəm.

Cəfər kostyumunu çıxarır və qrimlənməyə başlayır:

–Qoymaram yazıçı yoldaşımın əsəri təxirə salınsın!

Tamaşanın başlanmasına lap az qalmış Ülvi Rəcəb gəlib çıxır və yeni Şeyx Sənanla - Cəfərlə üzləşir. Ülvi yerində donub qalır. Cəfər sevincək deyir:

–Adə Ülvi! Gəl geyin! Sən öləsən, sənin xətrin çün rolu özünə qaytarıram. Bir az da gec gəlsəydin, ikinizin də xoruzunu qoltuğunuza verəcəkdim.

Sonra o, gülə-gülə parik və saqqalını çıxarıb Ülviyə verir. Cəfər bəyi Şeyx Sənan rolunda görə bilməyənlər, indi də təəssüflənirlər.

***

1928-ci ildə "Gənc işçi" qəzetində, şairə Nigar Rəfibəyli haqqında yazılan kəskin tənqidi məqaləni oxuyan Cəfər bərk pərt olmuşdu:

–Cavan şairədir, təzəcə qanad çalmağa başlayan bir quş balasına bənzəyir, onu kəskin tənqid etmək yaxşı iş deyil.

***

Qovun təzə çıxan vaxt Cəfər birini alıb evə gətirir və şəst ilə Sona xanıma verib deyir:

–Sonası, kəs gör, necə bir qovun almışam sizinçün!

Sona xanım qovundan bir dilim kəsib ağzına aparan kimi üzünü turşudur. Qovunun dadsız çıxdığını başa düşən Cəfər, heç bir şey olmamış kimi, laqeydcəsinə deyir:

–Bu vaxt qovun elə bu cür çıxar!..

***

Cəfər hər gün işə gedəndə evdəkilərə deyərmiş:

–Durun, məni yola salın!

Bir gün Sona xanım Cəfərin qardaşı qızı Mələyə və onun rəfiqəsi Firəngizə deyir:



–Gəlin bu dəfə Cəfərdən xəlvət onu tar-qaval ilə yola salaq.

Ertəsi gün yenə səhər Cəfər evdən çıxıb işə gedəndə, "durun, məni yola salın",- deyən kimi, Sona xanım dəf, Mələk qarmon, Firəngiz də tar götürüb qapı ağzına gəlir və "Vağzalı" havası çalmağa başlayırlar.

Cəfər əvvəl duruxur, sonra özünü sındırmayaraq deyir:

–Hə... Bu lap qiyamət oldu. Bundan sonra məni elə bu cür yola salın!- deyir və gülə-gülə evdən çıxıb işə yollanır.

***

C. Cabbarlı gecə də, gündüz də teatrın gələcəyi, yüksəlişi üçün düşünürdü. 1930-cu ilin aprelin 10-da olən əhvalat da buna sübutdur. O gün Cəfər söhbət əsnasında dostu İsmayıl Hidayətzadəyə deyir:

–İsmayıl qardaş, mən bir şey yazsam, sən ona qol çəkərsənmi?

Dostu gülüb:

–Necə yəni qol çəkərsən? Başa düşmədim?

Cəfər ayağa qalxır, otaqda bir az var-gəl edəndən sonra Hidayətzadənin lap yaxınına gəlir:

–Bilirsən nə var, mən ölümə gedirəm. Mənimlə gedərsənmi?

–Ay Cəfər, sən Allah, ölümə gedənə imza nə lazım? İndi ki, belədir, nə yazırsan yaz, imza edim.

Cəfər dinmir, mizin üstündəki kiçik cib dəftərçəsini götürüb, nə isə yazır və dostuna verir. Dostu Cəfərin yazdığı əhdnaməni oxuyur: "Biz aşağıda imza edən İsmayıl Hidayətzadə, Cəfər Cabbarlı aprel ayının onunda, ikili belə bir qərara gəldik: Azərbaycan teatrı başqa teatrlardan geri deyilsə də, rəqabət yoxluğundan teatr bir durğunluq keçirir və öz-özünü təkrar edir. Səhnəni bu durğunluqdan çıxarmaq və yeni bir təkanla tərrəqqisini gücləndirmək lazımdır. Onun üçün biz ikimiz gənc qüvvələrdən yeni bir kadr düzəldib, yeni bir teatr binası qurmağa çalışacağıq".

İsmayıl Hidayətzadə əhdnaməni oxuyub ayağa qalxır və Cəfəri qucaqlayır. Cəfərin də sevincdən gözləri yaşarır.



***

1927-ci ildə qəfildən Cəfərin ürəyi sancmağa başlayır. Həkim papiros çəkməyi və içki içməyi qadağan edir. 1930-cu ilə qədər o, nə papiros çəkir, nə də içki içir. Bu məsələ dramaturqa baha oturur. Üç ildə o, bir pyes də yazmır və tez-tez arvadına şikayət edir:

–Ay Sonası, işləmək istəyirəm, ancaq bacarmıram. Fikrimi bir yerə toplaya bilmirəm.

1930-cu ilin əvvələrində Cəfər təzədən papiros çəkməyə başlayır. Onu danlayan arvadına deyir:

–Sən mənim canım, üstünü vurma, təzə bir əsər yazmaq istəyirəm, papiros çəkməsəm, onu başlaya bilməyəcəyəm. Həmin əsər "Almas" pyesi idi.

***

Cəfər "Almas" pyesindəki Sürmə rolu haqqında deyərdi:

–Qızım Gülarə böyüyən kimi aparacam onu səhnəyə, Sürməni oynasın.

Lakin dramaturqa öz qızını Sürmə rolunda görmək qismət olmadı.

Cəfərin ölümündən səkkiz il sonra balaca Gülarə bir neçə dəfə Sürmə rolunda çıxış etdi.

***

Cabbarlı "Hamlet"in Azərbaycan səhnəsində tamaşaya qoyulması münasibətilə olan söhbətlərinin birində Kefli İsgəndər tipinin XIX əsr üçün səciyyəvi olan ictimai bir əhval-ruhiyyəni dahiyanə surətdə əks etdirdiyini söyləmişdir:

–Mirzə Cəlil bu tipi gözəl yaratmışdır. "Ölülər" komediyası ölməzdir. Lakin... İsgəndər tam mənasında qəhrəman, mübariz deyildir, o ifşa-çıdır, amma yol göstərən deyildir...

Bu yerdə gənc tənqidçilərdən Məmməd Arif özünü saxlaya bilmədən demişdir:

–Aydın kimi, Oqtay kimi...

Cabbarlı gəncin dik üzünə baxmış, düşüncəli halda:

–Onlarla qohumluğu var...-Azca dayanmış və sonra.- Onları da indi mən tənqid etməyə hazıram, - deyə əlavə etmişdir.

***

Cəfər daima yeni söz axtaran sənətkar idi. Harada, kimdən təzə, xoşuna gələn soz eşitsə idi, cib dəftərçəsinə yazar, sonra da yeri gəldikdə, tip-



lərin dilində işlədərdi. O "1905-ci ildə" pyesini rejissor dostu İsmayıl Hidayətzadəyə oxuyanda İsmayıl Hidayətzadə qəhqəhə çəkib qubernatorun arvadı Mariya Timofeyevna haqqında deyir:

–Arvad deyil, paraxoddur, paraxod!

Cəfər gülür. Sonra həmin ifadəni Salamovun rolunda işlədir:

–Bahadır bəy, sən öləsən, arvad deyil, para-xoddur, paraxod!

***

Bir dəfə Cəfərin iştirak etdiyi cavanlar məclisində gənc yazarlardan söhbət düşür, kimin daha yaxşı yazması haqqında mübahisə qızışır. Cəfərin rəyini soruşurlar. O deyir:

–Mikayıl Müşfiq hamınızdan yaxşı yazır. Çox coşğun təbi, səlis dili, gözəl üslubu vardır. Onun istedadına inanıram, əla şair olacağına da şübhə etmirəm.

***

Cəfər ən böyük optimist idi. O tez-tez deyərdi:

–Baş vermiş bədbəxtliyi aradan qaldırmaq üçün ağlaya-ağlaya tədbir görməyin nə mənası?! Ölümü də gülə-gülə qarşılamaq lazımdır.

***

Cəfər aktrisa Sona xanım Hacıyevanı "Oqtay Eloğlu"nun ilk tamaşasından, Sevəri oynayarkən bəyənmişdi. Sonralar bir dəfə gənc aktrisaya demişdi:

–Sona xanım, hazırlaş, sənə qəşəng bir rol yazmışam. Adı da Sonadır, özü də sona, özünü də Sona oynayacaq...

Həmin Sona "1905-ci ildə" pyesindəki Sona idi.

***

"Dönüş" pyesi tamaşaya qoyulduqdan sonra bəzi artistlərin narazılığına səbəb olur. Onlardan biri, Bağır Cabbarzadə dramaturqun arvadına şikayətə gəlir:

–Sona bacı, Cəfər qardaş məni təzə əsərində niyə yazıb?



Sona təəccüblənir:

–Səni? Hansı əsərində?

–Bəs sən bilmirsən, Sona bacı? "Dö-nüş"-dəki Xosməmməd mənəm də. Sən uşaqlarının canı, Cəfərə de ki, o rolu pyesdən çıxarsın.

Sona xanım artist Bağırın şikayətini Cəfərə yetirdikdə, o, deyir:

–Sonası, Bağır nahaq yerə inciyir. Orada bir o yox, bütün artistlər, rejissorlar, bəzi yazıçılar da var. Hətta mən özüm də varam. Burada inciməli bir şey yoxdur ki? Eləməsinlər, yazmayım.

***

Cəfər Cabbarlı "Dönüş" pyesini xüsusi bir məhəbbətlə sevirdi:

–"Dönüş" mənim bu vaxtacan yazdığım və bundan sonra yazacağım əsərlərin hamısından yaxşıdır. Bilirsinizmi ki, ata-ana öz şikəst balasını bütün övladlarından çox istəyir. Mən də elə.

***

Cəfər geyinməyə o qədər də fikir verməzdi. Çox nadir hallarda qalstuk bağlayıb, kostyum geyinərdi. Bir dəfə Sona xanım ərinin köhnə paltosunu yerinə, xəlvəti aldığı təzə qabardin

palto asır. Cəfər də səhər tezdən paltonu geyinib işə gedir. Teatrda onu təbrik edirlər:

–Cəfər qardaş, təzə palton mübarəkdir.

–Sağ olun, sağ olun,- deyə Cəfər özü də heyrət və təəccüblə əynindəki təzə paltoya baxmağa başlayır.

***

Cəfər bəyə "Erməni kəndi"ndə təzə mənzil verirlər. O, mənzilin açarını da alır. Amma köçmür. Bu hal dostlarını təəccübləndirir. Cəfər deyir:

–İnsaf yaxşı şeydir. Mən ora köçməyəcəyəm. Mənzili bizim Əliliyə bağışlayacağam. Onun nə evi var, nə də işləməyə imkanı.

O, dediyi kimi də edir. Təzə mənzili Əliliyə bağışlayır.



***

Ədəbiyyat həvəskarları bilirlər ki, Cəfər respublikanın əməkdar artisti Süleyman Tağı-zadəyə xüsusi tar almış, "1905-ci ildə" pyesindəki Baxşı obrazını onu nəzərdə tutaraq yaratmışdır. S. Tağızadə tar çalmağı Cəfərin təkidi ilə öyrənmişdir.

1932-ci ildə teatr Gəncəyə qastrola gedir. S. Tağızadə Cəfəri evlərinə qonaq çağırır. Həyətdəki ağ gilas ağacı dramaturqun xoşuna gəlir:

–Nə gözəl meyvəsi var.

S. Tağızadə tez ağaca çıxıb, iri bir budağı sındırır və gətirib Cəfərə uzadır. Cəfər isə bərk inciyir:

–Baxşını oynayan, humanist obrazı yaradan bir aktyordan belə hərəkəti gözləmirdim. Sən nə üçün onun həyatını söndürdün?!

S. Tağızadə Cəfərdən üzr istəməli olur.

***

Cəfər vəfat etməmişdən bir gün əvvəl həyat yoldaşı Sonaya demişdir:

–Ay Sona, bizim nəsil çox yaşamır, bir də adam bilsə ki, min ildən sonra öləcək, indidən bağrı çatlar, ancaq nə vaxt öləcəyini bilmədiyindən, ümidlə yaşayır.

Böyük dramaturq gözlərini əbədi yumduğu gün isə çox istədiyi böyük bacısı Törəyə və Sona xanıma belə bir yuxu danışmışdır:

–Bilirsiniz nə var, indicə yatmışdım, yuxuda gördüm ki, ölmüşəm. Məni aparırlar, özüm də ayığam, siz ağlayırsınız, sizə ağlamayın demək istəyirəm, amma qüvvətim çatmır. Axırda bütün qüvvəmi yığıb sizə dedim ki, ağlamayın, ölməmişəm. Əgər işdir, birdən ölüb eləsəm, uşaqlardan muğayat olun.

Sona zarafata salıb demişdir:

–Ölmək ölməməkdir, ağlamaq da gülmək.

Sonanın yuxunu bu cür yozmasına Cəfər gülmüşdür.





## SƏMƏD VURĞUN

**1906-1956**

Səməd uşaqlığında hazırcavab, nadinc və zarafatcıl imiş. Bir gün Səməd məktəbdə bir qızla dalaşır. Qız da məktəb müdiri, qoca müəllim Əhmədağa Mustafayevə şikayət edir. Müdir Səmədi danlayanda, o da qıza qoşulub ağlayır. Uşaqların ağladığını görən qoca müəllimin də ürəyi kövrəlir, gözləri yaşarır. Səməd gözucu baxır ki, uşaqlar onlara baxırlar, özünü itirmir:

–Ayə, uşaqlar, biz ağlaşırıq, siz də gülüşün,-deyir.

***

Bir dəfə məktəbdə şəkil çəkdirirlər. Səmədi də boyu kiçik olduğu üçün qabaq cərgədə oturdurlar. Səməddin ayaqqabısı cırıq olduğu üçün müəllim deyir:

–Səməd, ayağını bir qədər geri çək.

Səməd o saat cavab verir:

–Müəllim, əgər cırıq ayaqqabı ilə şəkil çəkdirmək nöqsandırsa, təzəsini verin.

***

Səməd Qazaxda seminariyada oxuduğu vaxt Mustafayevlər familiyalı bir dövlətlinin binasının alt mərtəbəsində qardaşı Mehdixanla birlikdə qalırlarmış. O, binanın üst mərtəbəsində yaşayan ev sahibinin qızı ilə hərdən bir zarafat edirmiş. Bir gün qardaşı Mehdixan onu, aşağıda dayanıb üst mərtəbədəki qızla zarafat edərkən görür, danlayır:

–Səməd, sən nə edirsən, altdan yuxarı az bax, bu zarafatlarla onların bizə olan kömək əlini kəsməkmi istəyirsən.

Səməd qardaşının sözündən tutulur, bir an fikrə gedir, sonra isə dillənir:



–Ay Qara (Səməd, Mehdixana Qara deyərdi) , bir vaxt olacaq ki, sənə çox yüksək mərhəmətli görünən bu adamlar da mənim mövqeyim qarşısında, mənimtək altdan yuxarı baxmalı olacaqlar. Cücəni payızda sayarlar...

***

Firidun bəy Köçərli Qazaxda, darülmüəlliminda müdir olarkən Səməd onun ən çox sevdiyi tələbələrindən biri olmuşdur. O, bir dəfə Səməd Vurğunun Füzulini tezliklə mənimsəməsinə heyran qalmışdır:

–Ay Səməd, oğlum, sən bizim darülmüəlliminin həm Füzulisisən, həm də gələcəkdə məşhur bir ədib olacaqsan. Bu mənim yəqinimdir.

***

1923-cü ilin yayında, bir dəstə gənc furqonda Dilicandan Qazağa gəlirdi. Səməd lap qabaqda oturub, atları qovurdu. Kərəm körpüsü deyilən yerə çatanda, furqonu iki atlı saxlayır. Onlardan biri Səmədə diqqətlə baxandan sonra soruşdu:

–Sən Yusif ağanın oğlusan?

–Bəli.

–Kəndləri gəzib saz çala-çala, komsomolluq edən sənsən?

–Bəli.

–Yaxşı, onda bir hava çal görüm.

–Başqa heç nəyə razı olmazdım. Ancaq saza hörmət olaraq, nə istəsəniz çalaram.

Səməd sazını döşünə sıxıb xeyli çaldı. Atlılar heyran-heyran onu dinlədilər, gözləri yaşardı. Sonra işarə etdilər ki, gedin. Səməd atların cilovunu tərpətdi, atlar dördnala götürüldü.

Qazaxda öyrənirlər ki, həmin iki atlı qaçaq dəstəsindən imişlər. Sonralar Səməd zarafatla öz dostlarına deyərmiş:

–Siz mənim sazıma çox borclusunuz. Yoxsa qaçaqlar sizi birtəhər eləmişdilər.

***

1923-cü ildə Dilican qəza komsomol komitəsində işlədiyi vaxt Səməd Vurğun, Ağaməd adlı kasıb kəndliyə qonaq olur.

–Əmi, sən də hacısanmı?

–Yox, bacıoğlu, Həcc mənə qismət olmadı.

Səməd, kasıb kişinin yaxşı tanıdığı xəsis, Hacı Mirzənin adını çəkir:

–Niyə Hacı Mirzə kişiyiə qismət oldu, sənə yox?!



–Onlar vaxtında tərpəndilər, getdilər ziyarətə. İndi də tavarişlər gəldi. Həccin də yolu bağlandı, ziyarətin də.

Səməd gülə-gülə cavab verir:

– Hacı Mirzə kimi bərk hacı olmaqdansa, sənin kimi kasıb kəndli yaxşıdır.

***

1926-cı ildə Səməd Vurğun Şuşaya gəlir. O, burada, Qazax müəllimlər seminariyasında bir yerdə oxumuş dostu Vəli Axundovla rastlaşır. Onlar Cıdır düzünə, Vaqifin qəbri üstünə gəlirlər. Vaqifin ot-gicirtkan basmış məqbərəsini görən Səməd çox mütəəssir olur və onu təmiz-ləməyə başlayır:

– Mən onu dirildəcəyəm, - deyir.

Dostu Səmədin bu sözlərinin mənasını ta 1937-ci ilə qədər başa düşmür. Onlar həmin il Bakıda ikinci dəfə görüşdükdə, Səməd öz dostuna Vaqif haqqında dram yazdığını bildirir. Dostu gülür:

– Belə de, 1926-cı ildə dediyin "Mən onu diridəcəyəm" sözlərinin mənası bu imiş.

– Bəli, – Səməd onu təsdiq edir.

***

Səməd Vurğun aspiranturada oxuyan vaxt, bir dəfə sinifkom dərsə gecikən aspirantlar sırasında onun da adını çəkir. Səməd qəti etiraz edir:

– Gecikmək yarımçıq adamın işidir. Mən gecikmərəm. Mən ya gələrəm, ya da heç gəlmərəm.

***

"Vaqif" dramının bir neçə tamaşasından sonra Səməd Vurğun dostlarından birinə demişdi:

– Öz aramızda qalsın, heç kəs bilməsin. Mən lap uşaqlıqdan Vaqifə özümü borclu bilirdim. Bir poema yazdım, tutmadı. Amma deyəsən, bu "Vaqif" tutdu!

***

"Koroğlu" opersının ilk baxışında iştirak edən Səməd Vurğun sevincindən ağlamış, Üzeyir Hacıbəylini öpərək demişdi:

– Xalqın böyük qüdrət və qüvvətini ifadə edən musiqinin həqiqisi yarandı.



***

Azərbaycan muğamlarını böyük sənətkarlıqla ifa edin məşhur xanəndə Xan Şuşinski ilə şair lap gənc yaşlarından dost imiş. Bir gün küçə ilə gedərkən Səməd ona rast gəlir:

– Xan, səni də tarixə yazdım.

Xan şairin nə dediyini başa düşmür. Belə olduqda, şair ona "Azəbaycan" şeirindən aşağıdakı bəndi söyləyir:

*Könlüm keçir Qarabağdan,*
*Gah bu dağdan, gah o dağdan,*
*Axşamüstü qoy uzaqdan*
*Havalansın Xanın səsi,*
*Qarabağın şikəstəsi.*

***

1939-cu ildə Gəncədə, "Vaqif" pyesinin məşqlərində şair özü də iştirak edirmiş. Xalq artistimiz Məmmədrza Şeyxzamanov, o zaman Eldar rolunda oynamağa hazırlaşırmış. Onun Eldar rolunda çıxışına baxan şair artistə yaxınlaşmış, yarı zarafat, yarı ciddi demişdir:

– Məmmədrza, Eldar sənin üçün Gəncə qoçusu deyil ki, qılınca güc verəsən. O, bizim ellərin qəhrəman oğludur. Oturanda dağ kimi,

duranda quş kimi. Bax, Eldarı bu ruhda oynamağa çalış.

***

Səməd Vurğun, 1940-cı ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunda ədəbiyyat dərnəyinə rəhbərlik edirdi. Növbəti məşğələlərin birində, dərnək üzvləri ilə şair arsında "Komsomol" poeması haqqında geniş rəy mübadiləsi başladı. Səmədə poemanı nə vaxt qurtaracağı, Cəlal və Humayın taleyi barədə çoxlu suallar verildi. Səməd Vurğun söhbətin sonunda dedi:

– Düzdür, Cəlalı da, Humayı da öldürmüşəm, amma peşman olmuşam. Onları diriltmək, həm də evləndirmək istəyirəm...

***

1941-ci ilin dekabrında, Azərbaycandan birinci dəfə Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüş İsrafil Məmmədovun xəbərini eşidən kimi şair qəhramanın doğulduğu Qapanlı kəndinə, oradan da Gəncəyə – İsrafilin anası Gülsüm xalanın yanına getmiş, onu alqışlamış, sonra da mitinqdə demişdir:



– Gəncə bizə böyük şair Nizamini vermişdir. Xalq qəhrəmanı İsrafil Məmmədovu də həmin torpaq yetirmişdir. Sağ olsun belə oğullara döşündən süd verib, onları məhəbbətlə böyüdüb, vətənin xidmətinə verən analar!

***

Səməd Vurğun müharibənin ilk illərində, cəbhədə qəhrəmanlıq göstərən Babaş Dadaşov haqqında "Partizan Babaş üçün" şeirini yazmışdır... Şair 1943-cü ildə iki dəfə Babaşla görüşmüş, 1945-ci ildə isə Moskvada Qələbə paradında qalib partizanı qucaqlayıb bağrına basmışdır. Sonra o, cibindən iki min manat çıxarıb Babaşa və onun döyüş dostu gürcü Avtandil Gülbaladzeyə vermiş və demişdir:

– Gedin, hər ikiniz Qorki parkında dincəlin, qəşəng qızlarla bir qəhrəman kimi gəzin.

Lakin dostlar belə qərara gəlirlər ki, Səmədin bağışladığı pula kişilik rəmzi, qəhrəmanlıq simvolu olan papaq alsınlar. Elə də edirlər. Qaragül dərisindən olan papaq sonralar da Babaşda əziz bir yadigar kimi qalıb.

***

Səməd Vurğun haqlı tənqidi məm-nuniyyətlə qəbul edən sənətkar idi. "Vaqif" pyesində İbrahim xanın düz verilməməsini, bu sahədə buraxdığı yanlışlığı şair dəfələrlə etiraf etmişdir. 1946-cı ildə o demişdir: "Mən, çox sevdiyim "Vaqif" əsərinin gələcək taleyini düşündüyüm zaman, orada yol verdiyim bir çox tarixi təhriflər, xüsusən İbrahim xan surətinin təhrifi məni çox incidir, lakin əsər elə bir vəhdət təşkil edir ki, mən hələ də bu təhrifi əsərin bədii təsirini azaltmamaq şərti ilə düzəltməyə çox çətinlik çəkirəm".

***

1946-cı ilin noyabr ayında, şair öz dostu Allahyar Cavanşirlə Kür çayının sağ sahilindəki Mehman meşəsinə ova gedirlər. Onlar çayın qalın cığ ilə örtülü körpə söyüd pöhrəliyində gəzdikləri vaxt, birdən iki qırqovul xoruzu havaya qalxır, Səməd sərrast atəşlə hər ikisini vurur. Xoruzlar çaya düşür. Su xoruzları axıdır. Reks və Heran adlı ov tulaları da onların dalınca üzür. Şair dərin kədər içərisində öz dostuna deyir:

– Ay Uzun! İtlər də qərq olacaq, quşlar da əlimizdən çıxacaq, bəs biz nə edəcəyik?!



Dostu da ona təskinlik verir:

– Şair, hövsələn olsun, quşları da əldə edəcəyik, itlərimiz də salamat qayıdacaq.

Bir az keçdikdən sonra itlər xoruzları ağızlarına alıb, geri qayıdanda, Səmədin halı tamamilə dəyişir. O, tüfəngi saz kimi döşünə basıb, aşıqlar kimi oxuya-oxuya və oynaya-oynaya itlərə sarı gedir. Onlara çatanda, tüfəngi çiyninə alıb, xoruzların hər birini bir əlində sallayaraq yenidən "qağılı-quğulu, quğulu-qağılı" sözlərini mahnı üzrə təkrar edir, oynayır. Sonra ovçu dostuna söyləyir:

– Ay Uzun! Düz iyirmi il cavanlaşdım. Sən özün bilirsən ki, xalq arasında mənim hörmətim, şöhrətim çoxdur. Mən onu sevdiyim kimi, o da məni sevir. Bu hörməti qazanmaq üçün iztirab da, gərgin vəziyyətlər də keçirmiş, nəhayət sevinmiş, ləzzət anlamışam. Amma bugünkü aldığım ləzzətdən heç olmaz. Sağlıq olsun, ay Uzun, sənin başın üçün, bu hadisədən böyük bir poema yazacağam və sən də onun qəhrəmanı olacaqsan...

***

1949-cu ildə şair ovçu dostu ilə maşında gedərkən, uzaqda, altı yüz, yeddi yüz metrlikdə bir ceyranın qaçdığını görürlər. Səməd istəyir ceyranı vursun, dostu etiraz edir:

– Bu ceyran ya boğazdır, ya da doğub. Onun vurulması böyük günahdır. O, bizi xəbərdarlıq etmək üçün ya ceyran sürüsünün, ya da öz balasının üstə aparacaqdır.

Doğrudan da elə olur. Maşın ceyranı təqib edir. Birdən maşının on metrliyindən, qarağat dibindən bir bala ceyran qalxır. Sürücü maşını saxlaya bilmir. Bala ceyranı maşın vurur. İkinci bala ceyran maşının səsinə ayılıb, hürkmüş vəziyyətdə ətrafa diqqətlə baxır və adamları görcək dağ tərəfə yönəlib qaçır. Anası ceyran da onun ardınca götürülür.

Həmin faciəli halı görən şair iki əli ilə başını sıxıb, qalın saçını qarışdırır və ovçu dostuna:

– Ay Uzun, biz nə etdik?! – deyə qışqırır.

– Şair! Biz yaman böyük zülm etmişik!



Həddindən artıq pərişan, peşman olan şair dərin fikrə gedib, papiros çəkə-çəkə qaçan bala və ana ceyrana kədərli-kədərli baxır.

Onlar yenidən maşına oturub, geri qayıdırlar. Yol boyu şair nə dinir, nə də danışır. Maşın mənzil başına çatanda, o, üzünü ovçu dostuna tutub deyir:

– Ay Uzun, sabah axşam bizə gəl, ceyran haqqında sənə şeir oxuyacağam.

İkinci gün şair ovçu dostuna məşhur "Ceyran" şeirini oxuyur.

***

Şairin ovçu dostlarından biri nəql edir:

– ... Dan yeri xoruz quyruğu kimi qızaranda, çöllərdə dovşanlar tullana-tullana yuvalarına çəkiləndə, torağaylar cığırlarda məclis quranda, qoyun-quzular mələşə-mələşə sübhün əsrarlı açılışında otlağa yayılanda Gədəbəyin Aytala kəndindən, bu yerlərdə Yanıq Həsən adı ilə məşhur olan kişi ilə bərabər dağlara sarı üz tutduq.

Səməd az dinirdi, az danışırdı. Bələdçimiz Yanıq Həsənin sorğularına müxtəsər cavablar verə-verə o, dağların başını, yüksəklikləri, dərə-

ləri yalçın qayaları, axar-baxarları qartal nəzərləri ilə seyr edirdi.

Sona kəkliklər pıqqıldayıb kol dibindən qalxır, dağ keçiləri quşqonmaz qayaların sinəsini dırnaqlaya-dırnaqlaya gözdən itir, dağ hinduşkaları əcayib səslər çıxararaq yatanları oyadır, Səməd isə susurdu. Hər dəfə fikirləşərdik: "Görəsən, nə üçün atmadı? Ovçu da bu fürsəti əldən verərdimi?"

Mən yavaş-yavaş ona yan aldım:

- Səməd qağa, meşədə ov eləmək çətindir, quş qalxan kimi ağacın arxasında görünməz olur.

Səməd bığaltı gülümsədi, başı ilə təsdiq etdi:

- Ovçu, insaf elə ... Buranın gözəllikləri bir-birinə elə yaraşır ki, meşəni onlardan məhrum etməyə adam qıymır. Mənə nə deyərlər, şairin birinci, bəlkə də axırıncı dəfə bu yerlərə ayağı düşür, onda da qırğın törədir.

Biz kəndə dönəndə, öz səxavətini hər yana səpələyən təbiətin seyrindən doymayan Vurğun dağın döşü ilə dolaylananda, Həsən kişi məni saxladı:

- Əliboş qayıdaq, ayə? Şair tüfəngi özünə havayı yük eləyib. Hə özü vurdu nə də bizi qoydu.



Səmədin qulağı uzaqdan elə bil deyilənləri aldı. O, bizə baxıb gülümsədi:

- Deyəsən, qeybət qırırsınız, ayə? Ovçu insaf elə ...

***

Bir gün Səməd Vurğun Yazıçılar İttifaqının klubunda çoxlu adam toplaşdığını görür. Xəbər alır ki, bunlar kimdir, nə işlə məşğuldurlar? Şairə cavab verirlər ki, toplaşanlargənc dramaturqlardır, əsər müzakirə edirlər. Səməd Vurğun bir an dayanıb ah çəkir:

- Kaş bunların hamısı əvəzinə bircə Cəfər Cabbarlı sağ olaydı.

***

Səməd Vurğun Cəfər Cabbarlını çox sevirdi. Bir çox tənqidçi və yazıçılar S. Vurğuna irad tuturdular ki, Cəfərin yaradıcılığında yalnız müsbət cəhətləri görürsən. Bəs onun bir çox çatışmayan, yaxud nöqsanlı cəhətləri yoxdurmu?

S. Vurğun onlara belə cavab vermişdir:

- Mənim sizə cavabım hazırdır. Siz təsəvvür edin ki, mən bu saat mahir bir heykəltəraşın

yaratdığı və "gözəllik abidəsi" adı verdiyi bir heykəl qarşısındayam. Bəlkə bu gözəl abi-dənin sifətindəki bir çox cizgilər də öz yerində deyil. Bəs nə üçün mən onları görməliyəm? Çünki mənim bütün huş və diqqətim, bütün daxili aləmim bu "gözəllik abidəsi"nin gözlərindəki, surətindəki mənaya bağlanmışdır. Bəli, bu sənətdəki ülviyyət, məni özünə məftun etmişdir. Mənim fikrim və diqqətim cizgilər ilə deyil, mənalar ilə məşğuldur. Fəqət, gözəllikdə çirkinlik, yaxşılıqda yamanlıq, işıqda qaranlıq axtaranlar isə yaman gözlərdir.

***

1953-cü ildə, Nizaminin vəfatının 750 illiyi tədbirlərində iştirak etmək üçün Səməd Vurğun bir qrup alimlə Gəncəyə gedir. O, gənclik dostlarından bir müəllimə ilə görüşərkən, müəllimə ərklə deyir:

– Şair, nə yaman qocalmısan?

Şair müəllimənin bu sualından tutulur və heç bir söz demir. Axşam Səməd, Nizami haqqında gözəl bir nitq söylədikdən sonra, əlavə edir:



– İndi də mənə "Şair, nə tez qocalıbsan?" sualını verən müəllimə cavab olaraq bir şeir oxuyacağam.

Bundan sonra, o, məşhur "şair nə tez qocaldın sən?" şeirini oxuyur və iclasdan sonra şeirin əlyazmasını həmin müəlliməyə hədiyyə edir.

***

Səməd Vurğun gözəllik, sevgi vurğunu idi. O, gözəllikdən, sevgidən söhbət düşəndə ən çox Hüseyn Cavidin aşağıdakı sözlərini təkrar edərdi:

*Cahan cənnət olsa, insanlar mələk,*
*Dağlar inci saçsa, dənizlər çiçək,*
*Mənim tanrım gözəllikdir, sevgidir!*

***

1954-cü ilin 22 aprel günü. Səmədin anadan olması günü. Şair çoxlu dostları ilə Göy gölə gəzməyə çıxmışdır. Güllər-çiçəklər bir-birini səsləyir, tər bənövşələr günəşlə oynayırdı. Səməd diz çökdü, bənövşəni qoxladı:

– Şair bənövşəni ancaq tağında qoxumalıdır. Torpaqdan ayrılmadan qoxumalıdır. Elə ki, qoxuladı, torpaq və bənövşəyə şeir deməlidir.

Şair şeirini oxudu, tər-bənövşələrlə söhbət etdi, yaşarmış gözləri ilə söhbət etdi.

Dostlardan biri əyilib bənövşə yığmaq istədi, Səməd qoymadı:

– Əzizim, əyil, bənövşəni tağı üstə qoxla.

Dostu dedi ki, onu özün üçün yox, qadını üçün yığır. Qadın çox gözəl idi. Şair qadına baxıb, gözəllikdən vəcdə gəldi:

– Gözəllər üçün qaydanı pozmaq olar.

Özü dəstə bağlayıb qadına verdi:

– Alın, qurusa da, yenə öz ətrini itirməyəcək. Torpağın ətrini itirməyəcək. Bənövşə şair kimidir. Şair ölüb gedir. Ancaq onun şeiri həmişəlik qalır.

– Mən bu bənövşəni saxlayacağam,– deyə qadın şairi süzdü,– anadan olmağınızın yüz illiyində gətirib sizə verəcəyəm.

Şair dəyişildi. Oldu sifəti daha yaraşıqlı göründü, sevinclə dolu uşaq görkəmi aldı.

– Dostlar,–deyə,–dilləndi.– Bu gün burada, Göy gölün sahilində, bənövşələrin arasında ilk dəfə inandım ki, yüz il ömür sürəcəyəm. Siz də mənimlə bir yerdə. 2006-cı ilin baharında, aprelin 22-də mənim ad günümü burada keçirərik. Gəlin and içək.

– And içirik! – hamı bərkdən cavab verdi.



Şair sevincdən aşıb-daşırdı:

– İnanıram, yüz il yaşayacağam.

***

Səməd Vurğunun romantik arzuları daima qanadlanırdı. 1955-ci ilin yayında "İstisu" yaylağında olanda, o, sanki təbiətlə vidalaşırmış kimi dağlara, dərələrə, düzəngahlara baxmaqdan doymurdu. Şair, onunla birlikdə gəzib-dolanan dostuna deyir:

– Nə ola, yüz ildən sonra insan bir anlığa qayıdıb hündür bir dağdan Azırbaycana tamaşa edə. Yəqin ki, elektrik şəfəqləri hər tərəfə nur səpələyəcək. Yəqin ki, bütün yer üzərindən ehtiyac, göz yaşları əbədi olaraq götürüləcək. Yəqin ki, ceyran sürüsü də insandan qaçmayıb dumduru bulaqlardan, Kürdən, Arazdan, uzanıb gedən kanallardan su içəcəkdir...

– Nə gözəl danışırsan, ay Səməd.

– Səməd nə vaxt pis danışıb, ayə... – deyə şair cavab verir.

***

Səməd Vurğun Kəlbəcərdə, Dəlidağda gəzərkən birdən qara bulud karvanı göy üzündə çaxnaşır. Dəlidağın qaş-qabağı tutulur, dağda şaqqıltı-gurultu qopur. Şair tez özünü çobanların alaçığına verir. Görüşür, sonra üzünü onlara tutur:

– Ayə, tütəyiniz varmı?

Çobanlardan biri heybəsindən alabəndli bir ney çıxarıb şairə uzadır. Səməd tütəyin o tərəf, bu tərəfinə baxıb, mənalı baxışlarla çobanı süzür:

– Ayə, bir çoban bayatısı çal görüm.

Çoban əvvəl duruxur. Sonra tütəyi alıb dodaqlarına yapışdırır. Tütək əvvəlcə bəmdə səslənib sonra zilə qalxır, səsi yağan yağışa, dağ çiçəklərinin ətrinə qarışıb, qarşı dağlara əks-səda verir... Şair xəyala dalmış, tütəyə qulaq kəsilmiş, gözləri yaşarmış halda çobana yaxınlaşır, onu bağrına basır:

– Ayə, nə yaman çaldın, məni keçmişlərə apardın. Sağ ol, çoban qardaş, tamam-kamal, əsil çobansan, – söyləyir.





## MİKAYIL MÜŞFİQ

**1908-1938**

Şeir Müşfiqin həyatına hakim kəsilmişdi. O, bu hakimin iradəsinə tabe olur, ancaq şeir yazdığı günü ömrünün ən vəfalı günü adlandırırdı:

*Ey şeir yazmaqla keçən günlərim!*
*Siz ki, ən vəfalı günlərimsiniz.*

Sənətin bədii təsir gücünə yüksək qiymət verən Müşfiq, sənət dahiləri qarşısında ehtiramla baş əyirdi.

Böyük Azərbaycan dramaturqu Cəfər Cabbarlının vaxtsız vəfatı şairi yasa batırmışdı:

*Duyulsun ki, ölən bir sənətkardır,*
*Sənətdə yer gücü, göy gücü vardır!*

***

İlhamsız yazan, eşqi, ehtirası olmayanların şairlik iddiasına düşmələri Müşfiqi qəzəbləndirirdi:

Şairə ilhamdan maya gərəkdir!
Anasız çocuğa dayə gərəkdir!
Şairəm söyləyir yerindən duran,
Adamın üzündə həya gərəkdir!

***

Müşfiq şeirdə yüksək ideya, dolğun məzmun və sənətkarlıq görmək arzusu ilə yanırdı:

*Qoxusuz lalədir mənasız şeir,*
*Qanadsız bir quşdur xülyasız şeir,*
*Gözəlsiz, çalğısız məclisə bənzər,*
*Məzmunsuz, ahəngsiz, ədasız şeir.*



***

Deyirlər Füzuli şeir dühası idi Müşfiq üçün. O, gecələr yataqda gözlərini Füzili divanı ilə yumar, səhərlər Füzuli divanı ilə açarmış. Füzulinin sehrkar qələminə heyranlığını heç cürə gizlədə bilmirmiş. Bir gün o, dostu şair Mir Mehdi Seyidzadəgildə gecələyir. Səhər tezdən Müşfiq, əlində Füzuli divanı Mir Mehdini yuxudan oyadır:

- Mir Mehdi, bax, gör bir nə deyir! Belə də gözəl söz olar! Hər misrada nə qədər böyük məna var! Biz də adımızı şair qoymuşuq...

***

Müşfiqin vaxtilə oxuyub, bəzi səhifələrində qeydlər etdiyi həmin Füzuli divanı halhazırda şair Mir Mehdi Seyidzadənin şəxsi kitabxanasındadır.

Müşfiq həyatı bütün rəngarəngliyi ilə sevirdi. Xoş əyləncə, zarafat, incə yumor hissi onun mənəvi cazibə qüvvəsini daha da artırırdı. Bir gün Müşfiq bir qrup yazıçı yoldaşları ilə birgə qonorar hesabına "Azərnəşr"in baş mühasibi, folklorçu Əbülqasım Hüseynzadədən avans pul

almaq istəyirlər. Lakin Əbülqasımın avans pul verməklə arası olmadığını bildikləri üçün, ona şeir ilə müraciət etməyi qərara alırlar. Həmin şeiri Müşfiq elə oradaca yazır:

*"Be hüzuri-ağayi-büzurkü və, cənabı-müstətab, hatəmi-zəmanə Əbülqasım Hüseynzadəyə:*

*Əssalam, ey bizim Əbülqasım,*
*Sənə var çoxlu-çoxlu ixlasım.*
*Yığılıb bir neçə ədibişəhir*
*Tökdülər böylə günə bir tədbir.*
*Gər, düzəltsən bizim bu xeyr işi sən*
*Hamımız söylərik: Əcəb kişisən!*
*İş qalıbdır öz iltifatınıza,*
*Əliniz getsə portmanatınıza,*
*Bizə bir yüz manat barat eylər,*
*Mərd olan burda iltifat eylər.*
*Mehdiyu, Vahidü, Rza, Rahim,*
*Müşfiqəm, pəs tutar səni ahim.*
*Verməsən həcvdir bunun dali,*
*Bəs ki, mətləbdən olginən hali.*
*Bədət-təhrir:*
*Qapıdan girdi böylə bir anda,*
*Qoşuldu bizə Süleyman da.*
*Ağanın yoxdur etirazı buna,*
*Hörmət et məclisi-humayuna.*



*Əz tərəfi: Müşfiq Dağlı, əz tərəfi R. Rza Göyçayi, əz tərəfi Məmməd Rahim Badkubeyi, əz tərəfi Mehdi Qazaği, əz tərəfi Vahidi Qəzəlxani, əz tərəfi Ağayi Məzlum, əz tərəfi Süleyman Noxani... işlərə əsas bani..."*

***

Bir dəfə Müşfiq Dilbər xanımla tramvayda harasa gedirlərmiş. Şairin baxışları pəncərədən bayıra zillənmiş, nə haqqında isə düşüncələrə dalmışdı. O, birdən nəzərini Dilbərə çevirəndə gözü onlarla üzbəüz oturan bir kişiyə sataşır. Sir-sifəti çopur, gözlərindən hərislik yağan kişi də demə nəzərlərini onlara zilləyibmiş. Müşfiq elə o dəqiqə Dilbər xanımın qulağına pıçıldayır:

–Dur keçək başqa yerdə oturaq.

Tez də yerlərini dəyişirlər. Müşfiq deyir:

–Mən indicə xəyalımda səmimi, zərif qəlbli, zahircə gözəl, sadə bir insan haqqında düşünürdüm. Belə bir vaxtda bu kişinin sifətini görəndə, elə bil başımdan alov çıxdı.

***

Şeirdə nadir hafizəsi olan Müşfiqin həyatda, məişətdə yaddaşı çox zəif idi. Bu barədə

dövrü mətbuatda qəribə bir yoldaşlıq şarjı çıxmış və altında yazmışdılar ki, guya şair papağını itirir və onu tapmaq üçün hər yeri axtarır, bir də görür ki, papaq qoltuğundadır. Huşsuzluğunu etiraf edən Müşfiq, rus şairi Marşakın "Huşsuza bax, huşsuza!" əsərini öz doğma dilinə tərcümə edərkən deyərmiş:

–Şair lap mənim obrazımı yaratmışdır!

***

Qüvvətli hafizəsinə arxayın olan Müşfiq çox vaxt qoşduğu şeiri uzun müddət kağıza köçürməzdi. Öz şeirlərini və sevdiyi klassiklərin əsərlərini əzbər bilərdi. Bir dəfə, Müşfiq tələbə ikən, müəllim növbəti dərsdə məşhur türk şairi Tofiq Fikrətin yaradıcılığından məruzə oxuyacaqmış. Lakin T. Fikrətin kitabını özü ilə götürməyi yaddan çıxaran müəllim dərsi təxirə salmaq istəyir. Bu vaxt Müşfiq icazə alıb deyir:

–Müəllim, dərsi təxirə salmayın. Tofiq Fikrətin hansı əsəri lazımdırsa mən onu əzbər deyə bilərəm.

Müəllim təəccüblənir:

–Sən onun hansı əsərini bilirsən?

Müşfiq də qürrələnir:



–Müəllim, siz məndən soruşun ki, Tofiq Fikrətin hansı əsərini bilmirsən?

Müəllim bu dəfə fərəhlə gülümsəyir:

–Demək, onun bütün əsərlərini bilirsən?

–Bəli.

–Onda dərsə başlayaq,- deyə müəllim Tofiq Fikrətin yaradıcılığı haqqında növbəti mühazirəsini Müşfiqin köməkliyi ilə oxuyur.

***

Müşfiq qayğıkeş, tələbkar, mehriban bir müəllim kimi şagirdlərin dərin məhəbbətini qazanmışdı. Şair çox cavan olmasına baxmayaraq şagirdlərinə "oğlum", "qızım" deyə müraciət edərdi. Şairin istəkli şagirdləri çox idi. Onlardan biri də Zəhra idi. Bir gün, 1934-cü il mart ayının 11-də Müşfiq sinfə daxil olarkən balaca Zəhra əlində tutduğu kiçik albomu ona uzadır:

–Müəllim, bura bir şeir yazınız.

Müşfiq albomu alıb gülümsəyir:

–Yaxşı, sən get sinif jurnalını gətir, mən də sənin üçün şeir yazım.

Zəhra elə güman edir ki, müəllim albomu evə aparıb sonra gətirəcəkdir. Amma elə olmur. O, sinif jurnalını müəllimlər otağından gətirəndə Müşfiq alboma yazdığı sətirləri tamamlamaqda

idi. Şair albomu Zəhraya qaytarır. "Zəhra üçün" sözlərini görəndə qız gözlərinə inanmır. İnanmır ki, əziz müəllimi bu tezlikdə ona aşağıdakı şeiri yazıb:

*İrəli qaç, irəli,*
*Ey mənim gözəl qızım.*
*Qalma həyatdan geri,*
*Oxu mükəmməl, qızım.*

*Uca dağlardan atlan,*
*Hər çətinliyə qatlan,*
*Bir quş kimi qanadlan,*
*Göylərə yüksəl, qızım!*

*Mehriban ol insana,*
*Bir yuxarı baxsana,*
*Göydən Günəş, Ay sana,*
*Eləyir "gəl-gəl" qızım.*



## Mündəricat

Giriş sözü........................................ 3
Fələki Şirvani ........................................6
Xaqani ........................................ 7
Nizami........................................11
Qivami Mütərrizi ........................................18
Məhsəti ........................................ 19
Əvhədi........................................ 20
Nəsimi ........................................ 22
Cahanşah Həqiqi........................................24
Həbibi ........................................ 25
Şah İsmayıl Xətayi ........................................ 27
Füzuli ........................................ 30
Sarı Aşıq........................................ 36
Zülali ........................................ 37
Vidadi ........................................ 38
Vaqif ........................................ 40
Zakir ........................................52
Ağabəyim Ağa ........................................ 58
Heyran xanım ........................................ 61
Mirzə Şəfi Vazeh........................................ 64
Bakıxanov Qüdsi........................................ 66
Mirzə İsmayıl Qasir ........................................ 70
Nəbati ........................................ 73
M.F. Axundzadə ........................................ 75
Bilqeys – Leyla ........................................ 80
Aşıq Ələsgər ........................................ 81

Kərbəlayı Qəhrəman........................................................ 84
Natəvan ........................................................................ 85
Nəvvab ......................................................................... 91
Seyid Əzim Şirvani ........................................................ 93
Zərdabi ......................................................................... 96
Nəcəfbəy Vəzirov ........................................................ 102
Sabir ............................................................................ 108
C. Məmmədquluzadə ..................................................... 121
Ə. Haqverdiyev ............................................................ 143
M.S.Ordubadi ............................................................... 162
Möcüz .......................................................................... 165
Abbas Səhhət ............................................................... 166
Süleyman Sani ..............................................................170
M. Hadi ........................................................................ 174
Qəmküsar ..................................................................... 179
Abdulla Şaiq ................................................................ 180
Hüseyn Cavid ............................................................... 184
Üzeyir Hacıbəyli ...........................................................188
Seyid Hüseyn ................................................................193
Y.V. Çəmənzəminli....................................................... 195
Hacıbaba Nəzərli .......................................................... 200
Əliağa Vahid ................................................................ 202
Cəfər Cabbarlı .............................................................. 204
Səməd Vurğun ............................................................. 225
Mikayıl Müşfiq ............................................................ 245

**Kamran Məmmədov**

# Azərbaycan yazıçılarının

*həyatından dəqiqələr*

Çapa imzalanıb: 02.07.2013
Formatı: 70x100 1/32. Ofset çapı.
Həcmi 8.
Sifariş № 331. Qiyməti: 3 manat

CBS POLYGRAPHIC PRODUCTION
Tel/Fax: 447 75 04, Tel.: 447 75 06
mətbəəsində çap olunub

3т.

59001

Az 2013/2615

1907-ci ildə Həmidə xanım C

qonaq olsun və istirahət üçün Kəhrizli kəndinə gəlsin. Cəlil razı olur. Onlar hələ rəsmi şəkildə evlənmədikləri üçün, Həmidə xanım məhz yazıçının öz xahişi ilə, onun kim və nəçi olduğunu kimsəyə demirmiş.

– Qızımın Azərbaycan dili müəllimidir. Adı Məmməd Həsənovdur, - söyləyirmiş.

Bir gün Ağdamdan şair Mustafa bəy Behbudov Həmidə xanımgilə qonaq gəlir. O, xoşsifət, söhbətcil imiş. Onun Cəlil ilə də söhbəti tutur, bir-birlərinə xoş gəlirlər. Mustafa bəy Cəlilə belə bir sual verir:

– Mirzə Məmməd, siz "Molla Nəsrəddin" məcmuəsinin redaktoru ilə tanışsınız?

Cəlil cavab verir:

– Bəli, tanışam.

Mustafa bəy:

– O məcmuədə iştirakınız varmı, ona yazırsınızmı?

– Bəli, hərdən bir yazıram.

Mustafa bəy:

– Bilirsiniz, zalım oğlu Molla Nəsrəddin nə gözəl yazır... Ancaq son zamanlar bir az sarsaqlayıbdır, dinə toxunur.

Kitabların onlayn satış ünvanı
www.kitabevim.az
Mütaliənizin ən rahat ünvanı!

9 789952 464764